KHAZAR REVIEW
№ 363 İyun 2017

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

















# İÇİNDƏKİLƏR


"Dünya" məktəbində Nailəxanım İsayevanın yaradıcılıq gecəsi keçirildi ......... 4

Xəzər Universiteti dünyanın ən yaxşı 750 universiteti arasında ................... 11

Əcnəbi tələbə-müəllim heyətinin Qubaya səfəri ................................ 12

1996-1997-ci tədris ilinin məzunları ilə görüş ................................ 14

Universitet xəbərləri ............................................................ 18

"Xəzər"də yubiley ................................................................ 21

Xəzər Universiteti Beynəlxalq Aksu Festivalında ................................ 22

Fransanın Avropa və qlobal münasibətləri üzrə Jan Monne seminarı ............. 28

Macarıstan elm və təhsili ilə əlaqələrin yeni səhifələri ........................ 30

*Л. М. Гамидова.* Хазар в лицах ................................................. 40

*Milana Abbasova.* Şərəfli müəllim ömrü.......................................... 44

Xəzər Universitetində "Dialekt festivalı" ...................................... 48

Azerbaycan'daki Nargin adası şehitleri unutulmadı ............................... 50

NDU xəbərləri .................................................................... 54

"O şeiri yazanda içməmişdim, amma sonra içdim" (*Alik Əlioğlu ilə müsahibə*) .... 56

Müəllim və tələbələr Qobustanda.................................................. 60

*Xaqan Balayev.* Azərbaycan-İran əlaqələrində Xəzər dənizinin hüquqi statusu məsələsi ........ 64

*Andre Morua.* "Tanatos" mehmanxanası (*hekayə*) ............................... 68



1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Eynur Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Aidar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eynur Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre



## “DÜNYA” MƏKTƏBİNDƏ NAİLƏXANIM İSAYEVANIN YARADICILIQ GECƏSİ KEÇİRİLDİ

## THE EVENING DEDICATED TO NAILAKHANIM ISAYEVA, WAS HELD AT “DUNYA” SCHOOL







Mayın 27-də "Dünya" məktəbinin konsert-konfrans salonunda "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayevanın həyatı, quruculuq işi və bəstəkarlıq fəaliyyətinə aid yaradıcılıq gecəsi keçirildi.

Tədbirdə "Dünya" məktəbinin rəhbərliyi və kollektivi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı başda olmaqla universitetin rəhbərliyi və əməkdaşları, bir sıra ali təhsil müəssisələrinin rəhbərliyi, yaradıcılıq ittifaqlarının və hökumətin nümayəndələri, qonaqlar iştirak edirdilər.

Aparıcılar yaradıcılıq gecəsini açıq elan edəndən sonra Nailəxanım İsayeva və Hamlet İsaxanlının birgə həyat və yaradıcılıq fəaliyyətinə aid "İnciçiçəyi" adlı sənədli-bədii film nümayiş etdirildi. Tamaşaçıların böyük maraq və diqqətlə izlədikləri filmdə ailə fraqmentlərinin göstərilməsi ilə yanaşı, şairlə bəstəkarın uğurlu yaradıcılıq işindən bəhs olunurdu. Qeyd edək ki, Nailəxanım İsayeva mahnılarının hamısını Hamlet İsaxanlının sözlərinə bəstələmişdir.

Film Mir Rafiq Əbdülrəhimov, Afaq Qəmbərova, Murad Allahverdiyev, Lalə Həsənova, Hüseyn Qəhrəmanlı və Nigar Fərmanovadan ibarət yaradıcılıq qrupu tərəfindən hazırlanmışdı.

On May 27, the evening dedicated to the life, organizational and composer activities of Nailakhanim Isayeva, the co-founder of 'Dunya' school, adviser to the Board of Directors and Trustees of Khazar University, was conducted in the concert-conference Hall of Dunya School.

The administration and staff of 'Dunya' school, the management and staff of Khazar University, headed by Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, including the leadership of a number of higher education institutions, representatives of creative unions and government and the invited guests took part in the event. After the opening of the evening, the documentary film entitled "Lily of the Valley" dedicated to the life and creative activity of Nailakhanim Isayeva and Hamlet Isakhanli was demonstrated.

The film aroused great interest and attention of the audience, in which along with fragments of family life, the moments of successful creative activity of the poet and composer were shown. It should be noted that all the compositions of Nailakhanim Isayeva were written to the words of Hamlet Isakhanli. The film was produced by a creative group, which included Mir Rafig Abdulrahimov, Afag Gambarova, Murad Allahverdiyev, Lala Hasanova, Huseyn Gahramanli and Nigar Farmanova.



İştirakçıların alqışları ilə qarşılanan filmin nümayişindən sonra Nailəxanım İsayevanın mahnılarından ibarət konsert proqramı təqdim olundu. Mahnıları Xəzər Universitetinin Kamera orkestri, universitetin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqova və "Dünya" məktəbinin müəllimi, pianoçu Nərgiz Gözəlovanın müşayiəti ilə xalq artisti Brilyant Dadaşova, Sumqayıt "Dünya" məktəbinin təşəbbüsü və iştirakı ilə keçirilmiş Sumqayıt şəhər məktəblilərinin Mədəniyyət festivalının qalibi Murad Haqverdiyev, "Dünya" məktəbinin müəllimi Arzu Ömərova, əməkdar artistlər Manana, İlqar Muradov, Fərid Əliyev və Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova ifa etdilər.

Tamaşaçılara Xəzər Universitetinin qızlardan ibarət rəqs qrupunun çıxışları da təqdim olundu. "Dünya" məktəbinin şagirdlərinin ifasında Nailəxanım İsayevanın Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "Dünya" məktəbinin himni səsləndi.

After the film, which was greeted with applause by the audience, a concert programme that contained the songs of Nailakhanim Isayeva was presented. Compositions were performed by Brilliant Dadasheva, National Artist of the Republic of Azerbaijan, Murad Hagverdiev, Winner of the School Festival "Culture" of Sumgait city, conducted by the initiative and participation of 'Dunya' school, Arzu Omarova, teacher of 'Dunya' school, Manana, Ilgar Muradov, Farid Aliyev, Honored Artists of the Republic of Azerbaijan and Mahsati Jabbarova , teacher of Khazar University accompanied by the Chamber Orchestra of the University, the head of the Department of Music and Fine Arts, the pianist Zulfiyya Sadigova and the teacher of 'Dunya' school, the pianist Nargiz Gozalova. Moreover, a dance group, consisting of girls from Khazar University, presented a dance to the audience. The hymn of 'Dunya'school, written by Nailakhanim Isayeva to the words of Hamlet Isakhanli, was performed by the schoolchildren of "Dunya".







Tədbirdə Azərbaycan Dillər Universitetinin rektoru vəzifəsini icra edən Əfqan Abdullayev, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının prorektoru, xalq artisti, Xəzər Universitetinin müəllimi, professor Yeganə Axundova, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov, ailə adından Aygün İsayeva, "Dünya" məktəbinin direktoru Mərufə Mədətli çıxış edərək, yaradıcılıq gecəsi münasibətilə Nailəxanım İsayevanı təbrik etdilər, xoş arzularını bildirdilər. Mərufə Mədətli Nailəxanım İsayevaya məktəbin rəssamı Anar Şahvələdov tərəfindən çəkilmiş portretini hədiyyə verdi.

Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Elza Səmədova Xəzər Universitetinin kollektivi adından Nailəxanım İsayevaya ünvanlanmış təbrik məktubunu oxüdu və ona təqdim etdi.

The acting rector of Azerbaijan State University of Languages, Afgan Abdullayev, vice-rector of Baku Musical Academy named after Uzeyir Hajibeyov, national artist, teacher of Khazar University, professor Yegana Akhundova, Deputy Head of executive power of Sumgait city, Teymur Samadov, on behalf of the whole family Aygun Isayeva, the director of Dunya school Marufa Madatli congratulated Nailakhanim Isayeva on a creative evening and expressed their best wishes. Marufa Madatli presented a portrait of Naila Isayeva, drawn by the painter Anar Shahvaladov.

Dean of the School of Education of Khazar University, Elsa Samadova read a congratulatory letter on behalf of the university staff and handed it to her.








Azərbaycan Təhsil Şurasının sədri, pedaqoji elmlər doktoru, professor, Prezident təqaüdçüsü Əjdər Ağayev Nailəxanım İsayevanın Təhsil Şurasının "Nailiyyət" diplomu ilə təltif olunduğunu bildirdi və diplomu ona təqdim etdi.

Çıxış və təbriklərdə Nailəxanım İsayeva Azərbaycanın maarifpərvər qadınlarının ənənələrini davam etdirən yenilikçi təhsil təşkilatçısı kimi səciyyələndirildi, bəstəkarlıq fəaliyyəti yüksək qiymətləndirildi. Qeyd olundu ki, o, professor Hamlet İsaxanlı ilə birlikdə Azərbaycanın nadir təhsil müəssisələri olan Xəzər Universiteti və "Dünya" məktəbinin qurulmasında və inkişafında misilsiz xidmətlər göstərmiş, "Dünya" məktəbi onun rəhbərliyi ilə böyük nailiyyətlər qazanmışdır.

Yaradıcılıq gecəsi Nailəxanım İsayevanın tortu kəsməsi və atəşfəşanlıqla başa çatdı.

Chairman of the Education Council of the Republic of Azerbaijan, Doctor of Pedagogical Sciences, professor and owner of the presidential scholarship, Ajdar Agayev noted that Nailakhanim Isayeva was awarded with the "Achievement" award of National Education Board and presented the diploma to her.

In congratulations, Nailakhanım Isayeva was characterized as an innovative educational leader, continuing the traditions of enlightener women of Azerbaijan. It was pointed out that she, together with Hamlet Isakhanli rendered enormous services in the foundation and development of the unique educational institutions - Khazar University and Dunya School and 'Dunya School' achieved great success under Nailakhanim Isayeva's leadership.

The evening ended by fireworks and cutting a cake by Nailakhanim Isayeva.







# XƏZƏR UNİVERSİTETİNİN TƏBRİKİ

**Əziz Nailəxanım!**

Yaradıcılıq gecənizin keçirilməsi münasibətilə Sizi təbrik edirik! Siz "Xəzər ailəsi" üçün çox doğma və dəyərlisiniz! Siz daima öz alicənablığınız, sadəliyiniz, təmkinli və obyektiv münasibətinizlə bütün kollektivimizin həqiqi sevgisini və dərin hörmətini qazanmısınız.

Xəzər Universitetinin 26 illik keşməkeşli tarix kitabının hər səhifəsində, hər sətrində Sizin çox böyük əməyiniz və inkaredilməz rolunuz var.

Bütün ölkəmiz üçün çətin 90-cı illərdə yaranmış Xəzər Universiteti yenicə ilk addımlarını atan körpə kimi daima Sizin isti nəfəsiniz və qayğınız, mehriban ana şəfqətiniz, səbrli və mətanətli həyat yoldaşı əzminizlə ildən-ilə böyümüş, uğur qazanmışdır. Nə qədər böyüsək də, kollektivimiz nə qədər genişlənsə də, nəsillər nəsilləri əvəz etsə də, Sizin təməlini qoyduğunuz mehriban, səmimi kollektiv, birlikdə uğurlara nail olan komanda ruhu "Xəzər ailəsi"ndə getdikcə möhkəmlənmiş və əvəzolunmaz dəyərlərə çevrilmişdir.

Siz, eyni zamanda, öz yaradıcılığınız və istedadınızla, zərif musiqi sədalarınızla daima ruhumuzu oxşamış, bizi şövqləndirmiş, estetik zövqümüzü zənginləşdirmisiniz.

Siz ömrünüzün ən gözəl illərini İsaxanlılar ailəsinə, "Xəzər ailəsi"nə və ən kiçik və şirin övladınız olan "Dünya" məktəbinə həsr etmisiniz. Bu kiçik övladı dünyaya gətirib, ilk addımlarını Xəzər Universitetində atdırmısınız. O günün körpə çinarı bu gün böyüyüb, gənc fidanları ilə Azərbaycanın hüdudlarından çox uzaqlara şaxələnib.

Siz çox dəyərli ziyalımız Hamlet İsaxanlı ilə birlikdə Azərbaycan cəmiyyəti üçün əvəzolunmaz və tarix səhifəsinə keçəcək xidmətin başlanğıcını qoymusunuz. Azərbaycan gəncliyinin şüurlu, fəal və demokratik vətəndaş olaraq yetişməsi üçün məktəbəqədər pillədən başlayaraq təhsilin ən yüksək səviyyəsinə qədər cəmiyyətin öyrənmə və öyrətmə ehtiyacına cavab verən təhsil ocaqları yaratmış və Azərbaycan təhsilini dünya təhsili ilə rəqabət edə biləcək səviyyəyə yüksəltmisiniz.

Əziz Nailəxanım!

"Xəzər ailəsi" olaraq Sizə sağlam, uzun ömür, yeni yaradıcılıq uğurları və bütün "övlad"larınızın daha da yüksələn uğur hekayələri ilə daima qürurlanmağınızı arzu edirik.

**Xəzər Universitetinin kollektivi**
*27 may 2017-ci il*





## CONGRATULATION OF KHAZAR UNIVERSITY

**Dear Nailakhanim!**

Congratulations on the evening dedicated to your creative work! You are a very dear and valuable person for the "Khazar family"! You have earned deep respect and sincere love of our team with your kindness, simplicity, prudent and objective attitude.

On each page, in every line of the 26-year-old complex history of Khazar University's book, there is your enormous work and undeniable role.

Khazar University, founded in a difficult period for the whole of our country, in the 90s, as a child, making its first steps, grew up every year with your warm breath, mother's love and care, patient and determination of a spouse, achieved a success. No matter how we grow up, no matter how our staff enlarges, no matter how the generation is replaced by the other one, the kind, friendly team, the foundation that you have laid down, the team spirit of the "Khazar family" has become an ever stronger and irreplaceable value.

At the same time, you please our soul and enrich our aesthetic taste with your creativity and talent, with your elegant music.

You devoted the best years of your life to the family of Isakhanli, the "Khazar family" and your youngest child - school "Dunya". You have brought this little child to the world, and made his first steps at Khazar University. The small plane tree has grown and branched out by its young seedlings outside of Azerbaijan.

You, along with our dear Hamlet Isakhanli, provided invaluable services for the Azerbaijani society, which entered the beginning of history.

In order for the Azerbaijani youth to grow up as a conscious, active and democratic citizen, you have created educational institutions, starting from the pre-school stage and up to the highest level of education, meeting the needs of teaching and learning of the society and raised the level of education in Azerbaijan that can compete with the world education.

Dear Nailakhanim!

On behalf of the "Khazar family" we wish you long years of life, new creative successes and stories of all your "children's" growing success that you will be proud of.

**The staff of Khazar University**
*May 27, 2017*




## QS AZƏRBAYCAN UNİVERSİTETLƏRİ ARASINDA BİRİNCİ

2017-ci il iyunun 8-də QS beynəlxalq reytinq təşkilatı dünya üzrə ali təhsil müəssisələrinin 2017-ci il üçün reytinqini müəyyənləşdirib.

Reytinq siyahısına görə Xəzər Universiteti dünya universitetləri arasında 701-750 aralığında yerləşir və Azərbaycan universitetləri arasında 1-ci yeri tutur.

Qeyd edək ki, QS təşkilatı dünyada fəaliyyətdə olan təxminən 26 000 universitet haqqında araşdırma aparmışdır. Xəzər Universiteti dünyanın 2.7% seçilmiş aparıcı universitetləri sırasına daxil edilmişdir.

QS təşkilatı dünya universitetlərinin fəaliyyətini 6 əsas meyar üzrə qiymətləndirir. Bu meyarlar - akademik nüfuz, elmi məqalələrdən sitat gətirmə, müəllim-tələbə nisbəti, işəgötürənlər arasında nüfuz, xarici müəllimlərin və xarici tələbələrin sayıdır.

Ayrıca olaraq, Xəzər Universiteti dünya universitetləri arasında beynəlxalq tələbələrin qəbuluna görə 388-ci, müəllim-tələbə nisbətinə görə 339-cu, xarici müəllimlərə görə isə 253-cü yeri tutub.

"QS" təşkilatının son reytinq cədvəli haqqında ətraflı məlumatı bu linkdən əldə edə bilərsiniz:

*https://www.topuniversities.com/university-rankings/world-university-rankings/2018*

## QS KHAZAR UNIVERSITY IN QS WORLD UNIVERSITY RANKINGS

On June 8th, 2017, QS World University Rankings published rating of world universities for the year of 2017.

According to the rating list, overall rank of Khazar University is 701-750 among world universities; the University takes the 1st place among universities in Azerbaijan.

To note, QS said that considering there are approximately 26,000 universites globally, this ranking makes Khazar University one of the top 2.7% universites in the world.

QS evaluates the world universities based on 6 indicators: academic reputation, citations per faculty, employer reputation, student to faculty ratio, international faculty, and the number of international students.

Besides, among the world universities, Khazar University takes 388th place according to international students admission; it takes 339th place according to student to faculty ratio, and 253rd place according to the number of foreign professors working at the university.

You can visit the following link for further information on QS recent list of world universities ranking:

*https://www.topuniversities.com/university-rankings/world-university-rankings/2018*

## QS ÖLKƏ MEDİASI: "XƏZƏR UNİVERSİTETİ AZƏRBAYCANDA BİRİNCİDİR"

Xəzər Universitetinin reytinqi ilə bağlı Azərbaycan Dövlət İnformasiya Agentliyi – AZƏRTAC başda olmaqla (http://azertag.az/xeber/Xezer_Universiteti_QS_teskilatinin_reytinq_siyahisinda-1068712) ölkənin 30-dək mediasında xəbər yerləşdirilmişdir.



# ƏCNƏBİ TƏLƏBƏ - MÜƏLLİM HEYƏTİNİN QUBAYA SƏFƏRİ

Mayın 14–də Xəzər Universitetinin əcnəbi tələbə və müəllimləri Azərbaycanın Quba şəhərində yerləşən "Məstərgah" adlı istirahət mərkəzində oldular. Səfərdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, "Dünya" məktəbinin həmtəsisçisi Nailəxanım İsayeva, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Beynəlxalq əlaqələr ofisinin işçi heyəti iştirak etdilər.

Əcnəbi tələbə-müəllim heyəti ümumilikdə 9 ölkədən - Əfqanıstan, Kamerun, Hindistan, İran, İraq, Qambiya, Zimbabve və Türkiyədən olan şəxslərdən ibarət idi. Səfərin məqsədi Xəzər Universitetinin əcnəbi müəllim və tələbələrini daha yaxından tanımaq, onları Azərbaycanın gözəl təbiəti, məkanları ilə tanış etmək, milli mətbəximizin ləziz təamlarından dadmaq və gözəl bir vaxt keçirmək idi.





## INTERNATIONAL STUDENTS AND TEACHER STAFF VISIT GUBA

On May 14, Members of the Khazar University, foreign teachers and students traveled to the Mastargah recreation center, which is located in Guba. Professor Hamlet Isakhanli, Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, Naila Isayeva, co-founder of Dunya School, Alovsat Amirbayli, Director of Public Relations and Media, the International Affairs Office staff and International students participated in the trip.

The annual meeting includes international students, teachers and staff of the Khazar University. The international students and teachers are from 9 countries including Afghanistan, Cameroon, Gambia, India, Iran, Iraq, Poland, Turkey, and Zimbabwe. The purpose of the trip of foreign teachers and students are: to learn more about the khazar university, to see a beautiful nature and places of Azerbaijan, to taste our delicious dishes of our national cuisine and have an enjoyable time together.



## SEMİNAR: "ÜNSİYYƏT BACARIQLARI"

Mayın 15-də Xəzər Universitetində "Ünsiyyət bacarıqları" adlı seminar təşkil olundu. Universitetin tələbələri və əməkdaşları üçün nəzərdə tutulmuş tədbir kommunikasiya və auditoriya qarşısında çıxışlar üzrə aparıcı ekspert Coşqun Kərimov tərəfindən keçirildi. Təqdimat qarşılıqlı diskussiya şəklində keçdi, tələbələr tərəfindən maraqla qarşılandı.

Tədbir Siyasi elm və beynəlxalq münasibətlər departamenti tərəfindən təşkil olunan 10 həftəlik Məşğulluq və İşgüzar Bacarıqlar Proqramı çərçivəsində keçirildi.

## SEMINAR ON "COMMUNICATION SKILLS"

On May 15, a seminar entitled "Communication skills" was organized at Khazar University. The seminar intended for students and employees of Khazar University was delivered by Joshgun Kerimov, a leading expert on public speaking and communication and co-founder of GR8 Club and VitalCV. The presentation was in the form of mutual discussions and was greeted with interest by the students.

The seminar was held within the framework of the ten-week Employment and Business Skills Program coordinated by the Department of Political Sciences and International Relations

## GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Kosta-Rikada keçiriləcək Dünya Robot Olimpiadasının finalında iştirak üçün ölkədaxili seçim yarışlarının keçirilməsi və qalib komandaların dəstəklənməsi məqsədilə mayın 17-də Gənclər və İdman Nazirliyinin, Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının və EduMedia şirkətinin nümayəndələri Xəzər Universitetində komandaların Olimpiadaya hazırlıqları ilə tanış olmuşlar.

Tədbirdən "Olaylar" İnformasiya Agentliyi xəbər yayımlamışdır.

Xəbəri bu link vasitəsilə oxumaq olar: *http://olaylar.az/news/sosial/222872*



# 1996 - 1997 - Cİ TƏDRİS İLİNİN MƏZUNLARI İLƏ GÖRÜŞ

Mayın 15-də Xəzər Universitetini 1996-1997-ci illərdə bitirmiş məzunlarla universitetdə görüş keçirildi. Əvvəlcə universitetin Məzunlarla İş Mərkəzinin müdiri Baba Bayramlı məzunları salamladı və görüşün məqsəd və gözləntiləri barədə iştirakçılara məlumat verdi.



Sonra universitetin rektoru Dr. Hassan Niknafs məzunlarla universitet arasında sıx qarşılıqlı əlaqələrin qurulmasının əhəmiyyətini vurğuladı və məzunlarla belə bir əməkdaşlığın uğurlu nəticələr verəcəyinə ümidvar olduğunu bildirdi.

Öz keçmiş tələbələri ilə yenidən görüşməkdən məmnun olduğunu bildirən universitetin prorektoru, professor Məhəmməd Nuriyev məzunları universitet həyatında fəal iştirak etməyə səslədi və onların öz uğurları barədə "Xəzər Xəbər" jurnalında silsilə yazılar dərc etdirməsinin tələbələr üçün çox maraqlı və faydalı ola biləcəyini qeyd etdi.





# MEETING WITH ALUMNI 1996 - 1997

On 15 May, a meeting with 1996-1997 alumni of Khazar University was held at the university. Baba Bayramli, Director of Alumni Relations Centre, greeted alumni and gave information about the objectives and expectations of the meeting.

Later, Dr. Hassan Niknafs, Rector of Khazar University, noted the importance of establishing close relations between university and alumni and expressed hope that such alumni cooperation will have successful outcomes.

Professor Mohammad Nuriyev who expressed his pleasure of meeting with his former students encouraged alumni to participate actively in the university life and noted that publishing series of articles about their successes on "Khazar Review" will be very interesting and useful for students.









Xəzər Universiteti Məzunlar Assosiasiyasının vitse-prezidenti Ramal Əhmədov qurumun fəaliyyəti barədə məlumat verdi və məzunları assosiasiyanın üzvləri sırasına qoşulmağa dəvət etdi.

Məzunlardan "BP- Azərbaycan" şirkətinin maliyyə meneceri Azər Qasımov, "Paşa Holding"-in şöbə müdiri Mirbağır Mirbabayev, Macarıstan Ticarət Palatasının Azərbaycan və Gürcüstan üzrə nümayəndəliyinin rəhbəri Anar Kərimov, "Marketsaz" şirkətinin icraçı direktoru Aydın Babayev, "Aristokrat" Turizm şirkətinin şöbə müdiri Murad Aslanov, Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktor müavini Namiq İbrahimov, ARPA İctimai Birliyinin Himayəçilər Şurasının sədri Rüfət Mahmud, "Barama K.M." şirkətinin direktoru Yusif Hacıyev, "Bioworks" şirkətinin Xəzər regionu üzrə nümayəndəsi Yusif Məmmədli, "Nort West Construction" şirkətinin maliyyə müdiri Xalid Acalov, "SOLUS MMC" şirkətinin satış meneceri Kamran İsgəndərov, "Real MMC" şirkətinin meneceri Samir Nuriyev, "Azintellectservis" şirkətinin icraçı direktoru Kamran Behbudov, "Gəmi Qaya MMC" şirkətinin meneceri Eldar Lətifov və "GABEG Ltd" şirkətinin təsisçisi və direktoru Yaşar İsgəndərov çıxış edərək, görüşdən məmnunluq duyduqlarını və bu görüşlərin müntəzəm təşkilinin və Xəzər Universiteti ilə daha sıx əlaqələr qurmağın zəruri olduğunu söylədilər, həmçinin, öz fəaliyyətləri haqqında qısa məlumat verdilər.

Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, İngilis dili departamentinin müəllimi Firəngiz Nəsirova, Akademik Keyfiyyətin Təminatı mərkəzinin müdiri Lyudmila Sotova və İqtisadiyyat və menecment fakültəsinin dekani Ceyhun Məmmədov görüşdə iştirak etdilər.

Ramal Ahmadov, Vice-President of Khazar University Alumni Association gave information about activity of the organization and invited alumni to join the association and become members. Graduates Azer Gasimov, Finance Manager of "BP- Azerbaijan" company, Mirbaghir Mirbabayev, Branch Manager of "Pasha Holding", Anar Karimov, Head of the Delegation of Hungarian Chamber of Commerce to Azerbaijan and Georgia, Aydin Babayev, Executive Director of "Marketsaz" company, Murad Aslanov, Branch Manager of "Aristocrat" tourism company, Namig Ibrahimov, Deputy Director of the Social Development Fund for IDPs of the Azerbaijan Republic, Rufat Mahmud, Chairman of the Board of Trustees of the Public Association for ARPA, Yusif Hajiyev, Director of "Barama KM" company, Yusif Mammadli, representative of "Bioworks company on Caspian region, Khaled Ajalov, Financial Chief of "Nort West Construction" company, Kamran Iskandarov, Sales Manager of "SOLUS Ltd." company, Samir Nuriyev, Manager of "Real LLC" company, Kamran Behbudov, Executive Director of "Azintellectservis" company, Eldar Latifov, Manager of "Ship Rock LLC" company and Yashar Iskandarov, Founder and Director of "GABEG Ltd" company made speeches and expressed their pleasure of attending such a meeting and emphasized the importance of organizing such kind of meetings regularly and establishing closer relationships with the university.

Roza Arazova, Head of the Department of History and Archeology, Firangiz Nasirova, Senior Instructor of the Department of English Language and Literature, Lyudmila Sotova, Director of Quality Assurance Center and Jeyhun Mammedov, Dean of the School of Economics and Management, were among the participants of the meeting as well.






# XƏZƏR UNİVERSİTETİNDƏ TEDxKHAZARUNIVERSITY KONFRANSI

# TEDxKHAZARUNIVERSITY EVENT HELD AT KHAZAR UNIVERSITY

Mayın 13-də Xəzər Universitetində TEDxKhazarUniversity ('Thinking Deeply') konfransı keçirildi. Konfransda müxtəlif mövzularda məruzələr dinlənildi.

Konfransda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı öz həyat təcrübəsindən danışdı. Universitetin müəllimi Fuat Rəsulov pulun necə xərclənməli olduğundan, yazıçı Samir İmanov bir barmağı ilə qazandığı uğurlardan, şair və ədəbi tənqidçi Qismət Rüstəmov ədəbiyyatın dünyaya təsirindən, universitetin müəllimi Jestin Baby Mandumpal suyun insan həyatındakı yerindən, təlimçi Murad Məmmədov düşünərək də həzz almağın mümkünlüyündən, təlimçi Rəşad Bayramov emosional intellektin karyeradakı rolundan, təlimçi Daşqın Həmidzadə insanların özlərinə düzgün marşrut müəyyənləşdirmələrinin vacibliyindən, universitetin tələbəsi Erlan İsmayılov dünyagörüşünün formalaşmasından bəhs etdilər.

Tədbirdə Note Done Yet musiqi qrupu və universitetin vokal müəllimi Məhsəti Cabbarlı musiqi nömrələri ifa etdilər.

On May 13, a conference TEDxKhazarUniversity ('Thinking Deeply') was held at Khazar University. Speeches on different topics were delivered in the conference.

Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, told the story of his dreams' becoming true and Khazarv University's instructor Fuad Rasulov spoke about the ways of spending money. Samir Imanov, a writer, gave information about how he achieved success just with his one finger and Gismet Rustemov, a poet and literary critic, spoke about the influence of literature on the world. Jestin Baby Mandumpal, Khazarv University's instructor, emphasized the role of water in the life of people and Rashad Bayramov, a trainer, spoke about the role of emotional intellect in career. Trainer Murad Mammadov stated that it is possible to enjoy while thinking and trainer Dashgin Hamidzadeh focused on the importance of people's determining the right route for themselves. Khazar University's student Erlan Ismayilov spoke about the formation of outlook.

"Note Done Yet" music group and Mahsati Jabbarlı performed in the event.













## “ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN AZƏRBAYCANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ İNTEQRASİYASININ TƏMƏLİNİN QOYULMASI” (ESFIDIP) TEMPUS LAYİHƏSİNİN SON GÖRÜŞÜ KEÇİRİLDİ





Mayın 15-16-da Xəzər Universitetində “Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” (ESFIDIP) Tempus layihəsinin son görüşü keçirildi. Görüşün ilk günündə yalnız layihənin tərəfdaşları – Xəzər Universiteti, Lodz Universiteti, Makedoniya Universiteti, Qraz Universiteti, Lənkəran Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayit Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti, Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzi və Əlil Təşkilatları İttifaqının nümayəndələri iştirak etdilər. Görüş zamanı tərəfdaş universitetlər layihə çərçivəsində gördükləri işlər və əldə etdikləri nəticələr haqqında hesabat verdilər. Layihənin davamlılığı və gələcək əməkdaşlıq haqqında müzakirələr aparıldı

Görüşün ikinci günü Xəzər Universitetinin “Mərmər” zalında keçirildi. Görüşdə müxtəlif universitetlərin, orta məktəblərin, müxtəlif təşkilatların nümayəndələri və tələbələr iştirak etdilər. Görüşü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, qonaqları salamladı və layihənin önəmi haqqında nitq söylədi. Yunanıstanın Azərbaycandakı səfiri Dimotrios Tsoungas çıxış etdi. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin nümayəndəsi Anar Xələfov əlilliyi olan insanların təhsil almaları üçün Təhsil Nazirliyinin gördüyü işlərdən danışdı. Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin nümayəndəsi Hüseyn Hümbətov və Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimli də təşkilatlarının bu sahədə gördükləri işlərdən danışdılar.





## FINAL CONFERENCE ON "THE ESTABLISHMENT OF FOUNDATION FOR THE INTEGRATION OF DISABLED PEOPLE INTO HEIS OF AZERBAIJAN" (ESFIDIP) TEMPUS PROJECT





On May 15-16,, the final conference of "The Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) Tempus project was held at Khazar University. The conference consisted of two sessions. On the first day, only the partners of the project – Khazar University, University of Lodz, University of Macedonia, University of Graz, Lankaran State University, Ganja State University, Sumgayit State University, Azerbaijan State University of Economics, Nakhchivan State University, The Research and Training Center for Labor and Social Problems and members of the Union of Disabled People Organizations participated at the conference. During the conference, partner universities exchanged their experiences about the works they have done and the results they have got within the framework of the project. Later, they discussed the continuity of the project and future cooperation.

The second day of the conference was held in the "Marble" hall of Khazar University. Members of different universities, schools, organisations and students participated in the conference. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, started the conference. He greeted the guests and made a speech about the importance of the project. Dimitrios Tsoungas, Ambassador of Greece to Azerbaijan also spoke at the conference. Anar Khalilov, a member of the Ministry of Education of Azerbaijan, spoke about the activities of the Ministry of Education to create opportunities for education of disabled people. Huseyn Humbatov, member of the Research and Training Center for Labor and Social Problems and Davud Rahimli, head of the Union of Disabled People Organizations also spoke on the activities of their organisation on the topic.






"Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) Tempus layihəsinin layihə rəhbəri Rima Məmmədova iştirakçılara layihə haqqında geniş məlumat verdi və layihənin həyata keçirildiyi müddət ərzində qarşılaşdıqları çətinliklər və əldə etdikləri uğurlar haqqında danışdı. Lodz Universitetinin və Qraz Universitetinin nümayəndələri iştirakçılara öz universitetlərinin təcrübələri və ölkələrində bu sahədə aparılan işlər haqqında danışdılar. Həmçinin, Gəncə Dövlət Universitetinin və Naxçıvan Dövlət Universitetinin nümayəndələri regionda və öz universitetlərində bu sahədə görülən işlərdən söz açdılar. Tədbirin sonunda Xəzər Universitetinin və Azərbaycan Dövlət İqtisad Universitetinin əlilliyi olan tələbələri Nurlanə Cəfərova və Orxan Adıgözəl qarşılaşdıqları çətinliklərə baxmayaraq, əldə etdikləri uğurlardan bəhs etdilər.

Qeyd etmək istərdik ki, "Əlilliyi olan şəxslərin Azərbaycanın Ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) Tempus layihəsi 2013-cü ilin dekabrında başlamış və 2017-ci il mayın 31-də sona çatmışdır. Layihə Avropa Komissiyasının Tempus proqramı çərçivəsində maliyyələşdirilmiş və Xəzər Universiteti tərəfindən idarə olunmuşdur.

Rima Mammadova, the director of the "The Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" " (ESFIDIP) Tempus project, gave detailed information regarding the project to the participants. She mentioned the difficulties they encountered within the implementation period of the project and their success. Members of the University of Lodz and the University of Graz gave detailed information to the participants about the experiences of their universities and taken actions regarding this area in their countries.

Representatives of Ganja State University and Nakhchivan State University spoke about the taken actions in the region and their universities regarding the topic as well. At the end of the event, Nurlana Jafarova and Orkhan Adigozel, students with disabilities from Khazar University and the Azerbaijan State University of Economics, made speeches about their success despite the obstacles they have faced.

We would like to note that, "The Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" " (ESFIDIP) Tempus project started in December 2013 and it will end conclude on May 31, 2017. The project is funded within the framework of the European Commission Tempus program and managed by Khazar University.





## "Xəzər" də yubiley

İyunun 6-da Xəzər Universitetinin yarandığı ildən İngilis dili və ədəbiyyatı departamentində çalışan, baş müəllim Firəngiz Nəsirovanın yubileyi keçirildi. Tədbirdə universitetin rəhbərliyi, dekanlar və departament müdirləri, əməkdaşlar iştirak edirdilər.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, F. Nəsirovanın yüksək səviyyəli ingilis dili mütəxəssisləri hazırlanmasında misilsiz xidmətlərindən, departamentin gənc müəllimlərinin yetişməsində böyük zəhmətindən, tələbələrə diqqət və qayğısından, bununla yanaşı, ciddi tələbkarlığından danışdı. Onu yubileyi münasibətilə təbrik edərək, pedaqoji fəaliyyətində və şəxsi həyatında ona uğurlar arzuladı və gül dəstəsi təqdim etdi.

Digər çıxışlarda da F. Nəsirovanın universitetdəki işi yüksək qiymətləndirildi, tərcüməçilik fəaliyyətindən, səmimi, qayğıkeş bir insan kimi universitet kollektivinin dərin hörmətini qazanmasından, şux xasiyyəti, şən zarafatları ilə "Xəzər"in xoş aurasını daha da artırmasından danışıldı. Bildirildi ki, keçirilən bu tədbirdən əvvəl onun yubileyi İngilis dili və ədəbiyyatı departamentində, Humanitar və sosial elmlər fakültəsinin dekanlığında qeyd olunub.

Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının müşaviri, "Dünya" məktəbinin həmtəsisçisi Nailəxanım İsayeva yubilyara universitetin hədiyyəsini təqdim etdi.

Səmimi söhbətlə davam edən yubiley tədbiri xoş əhval-ruhiyyə ilə sona çatdı.

## Anniversary at Khazar University

On June 6th, Senior Instructor of the Department of English Language and Literature, Firangiz Nasirova's anniversary was held at Khazar University, who has been working at the university since the first establishment years of the university. The university administration, deans and heads of departments as well as collaborators took part in this event.

Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees made a speech about F. Nasirova's invaluable contributions to preparation of high-qualified English Language Specialists, her laborious work in the training of young instructors and her care along with strictness towards the students. He congratulated her on the occasion of the anniversary, wished her the best in both pedagogical and personal life and presented a bouquet of flowers.

Other guests also praised F. Nasirova's work within the university, including her activities related to translation, spoke about how she gained respect of university staff for being a caring and sincere person, as well as her cheerful temper and hilarious sense of humor that create a pleasant ambiance at "Khazar".

It was mentioned that her anniversary had also been celebrated at the Department of English Language and Literature and at the School of Humanities and Social Sciences before that event. Nailakhanim Isayeva, the advisor to the Board of Directors and Trustees and co-founder of "Dunya" School presented the university gift to the heroine. Lasting with sincere conversation, the event ended in a pleasant mood.







# XƏZƏR UNİVERSİTETİ BEYNƏLXALQ AKSU FESTİVALINDA

# KHAZAR UNIVERSITY IN INTERNATIONAL AKSU FESTIVAL

Xəzər Universitetinin oğlanlardan və qızlardan ibarət rəqs qrupları mayın 18-dən 23-dək Türkiyənin Giresun şəhərində keçirilən 40-cı Beynəlxalq Aksu festivalında müvəffəqiyyətlə iştirak etdilər. Xəzər Universiteti ilə birlikdə Gürcüstan, Rusiya, Kosova, Şimali Kipr Türk Cümhuriyyəti və Türkiyənin müxtəlif bölgələrindən rəqs qrupları festivala qatılmışdılar. Xəzər Universiteti artıq ikinci ildir ki, 35 nəfərdən ibarət heyətlə Beynəlxalq Aksu Festivalında iştirak edirdi.

Mayın 19-da "Xəzər"in kollektivi, ilk olaraq, Giresunda yaşayıb fəaliyyət göstərən azərbaycanlı rəssam Leyla Əliyevanın rəsm sərgisinin açılışında iştirak etdi. Azərbaycanlı rəssam iştirak və dəstəyə görə universitetin kollektivinə təşəkkürünü bildirdi. O, Xəzər Universiteti kollektivinin onun şəxsi sərgisinə göstərdiyi diqqətindən qürur duyduğunu, məmnun olduğunu ifadə etdi.

May 18-23 Khazar University two dance groups consisting of boys and girls successfully took part in 40th International Aksu Festival in Giresun, Turkey. Besides Khazar there were dances groups from Russia, Kosova, Northern Cyprus Turkish Republic and some local groups from Turkey itself. Khazar University participated in the festival with the group consisting of 35 people.

On the 19th of May Khazar University's team visited the exhibition of a talented Azerbaijani painter Leyla Aliyeva who is currently living and working in Giresun, Turkey. Leyla Aliyeva expressed her greatest gratitude and satisfaction for the support to Khazar's team. She also expressed her pride for the attention of University's in her personal exhibition.










KHAZAR
UNIVERSITY














Növbəti gün festivalda rəqslərlə zəngin bir gün oldu. İki rəqs qrupu ilə festivala qatılan Xəzər Universitetinin kollektivi Atatürk meydanında və stadionda iki fərqli rəqs proqramı ilə iştirak etdi. Tədbir ənənəvi olaraq Giresun Bələdiyyə başqanı Kerim Aksunun nitqi və hər il yerinə yetirilən bir neçə rituala başladı. Mərasimdə Giresun valisi, millət vəkilləri, yaxın bölgələrin rəhbərləri, ictimaiyyət nümayəndələri və çoxlu sayda yerli əhali iştirak edirdilər.

Mayın 21-də səhər saatlarında hava şəraitinə görə iki gün təxirə salınan ənənəvi yürüş baş tutdu. Bütün Giresun şəhəri boyunca davam edən yürüşdə festival iştirakçıları öz musiqi və rəqsləri ilə yerli əhaliyə dostluq və sülh mesajları yolladılar. Yerli əhali də öz növbəsində iştirakçılara alqışları ilə dəstək oldular. Giresunluların Xəzər Universitetinin kollektivinə olan xüsusi münasibəti hər yerdə seçilirdi. Atatürk meydanında tamamlanan yürüşdə qonaqları bir daha salamlayan Bələdiyyə başqanı Kerim Aksunun nitqindən sonra müxtəlif ölkələrdən gələn iştirakçılar geniş rəqs proqramları ilə tədbirə davam etdilər. Onu da qeyd etməliyik ki, ən geniş və ən çox davam edən rəqs proqramı məhz Xəzər Universitetinə məxsus idi.

The next day of the festival was rich with dances. Khazar University's dances groups had two different concert programs in Ataturk square and stadium. The program started with Giresun Municipal Kerim Aksu's opening speech and some traditional rituals held. Giresun's governor, deputies, the municipals and governors of neighborhood areas, public figures and a number of local people attended the traditional opening ceremony of the festival.

On the 21th of May the traditional march that was delayed for two days due to difficult weather conditions was finally held. During the march all the participant groups gave the messages of peace and friendship to one another and to the local people who were following them everywhere. The local people also expressed their support and respect to the participants with their applause. Special attention and love to Khazar's team by the citizens was felt everywhere. The march ended in Ataturk Square where Giresun Municipal Kerim Aksu once again greeted the participants and the groups had their next large concert program, followingly. We also find it important that the largest and longest performance in the concert belonged to Khazar University's team.




Mayın 21-də Xəzər Universiteti İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəylini, Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanı və milli geyimdə olan iki rəqqası Giresun Valiliyində şəhərin valisi Hasan Karahan və Giresun Bələdiyyəsində Giresun Bələdiyyə başqanı Kerim Aksu qəbul etdilər. Ə.Əmirbəyli Xəzər Universiteti adından Giresun valisinə və Bələdiyyə başqanına dərin təşəkkürünü bildirdi, onlara hədiyyələr təqdim etdi. Görüşdə şəhər rəhbərliyi Xəzər Universiteti rəhbərliyinə tələbələrin maraqlı çıxışlarına görə dərin təşəkkürlərini bildirdilər, onlara hədiyyələrini təqdim etdilər.

Aksu Festivalının sonuncu günü proqram iştirakçıları Giresun Universitetində açıq havada geniş konsert proqramı ilə çıxış etdilər. Güclü yağış səbəbindən təxirə salınması nəzərdə tutulan konsert proqramı iştirakçıların və tələbələrin təkidi ilə reallaşdı. Universitet tələbələri iki saatdan çox davam edən proqramı maraqla izlədilər.

Mayın 23-də Xəzər Universitetinin kollektivi üçün təşkil olunan yeməkdə Giresun Bələdiyyəsi Mədəniyyət və sosial fəaliyyətlər şöbəsinin müdiri Hasan Özdemir, müavinləri, bələdiyyənin digər rəsmiləri yeməkdə iştirak etdilər və sonra Giresun bələdiyyəsinə məxsus avtobusla "Xəzər"liləri sərhədə-Sarp Qapısına yola saldılar.

On the 21th of May Giresun Governor Hasan Karahan and Giresun Municipal Kerim Aksu accepted Alovsat Amirbeyli, the Director of Public Relations and Media, Khazar University and Zulfiyya Sadigova, the Chair of the Department of Music and Fine Arts, Khazar University with two dancers in Giresun Governorate. Both public figures expressed their gratitude to Khazar's team for their interesting performance and accepted presents from Khazar University. Alovsat Amirbeyli in his turn expressed his satisfaction and gratitude to Giresun Governor and Municipal ad accepted the presents. At the end of the meeting memory photos were taken.

On the last day of the festival the concert was held in Giresun University in the open air. Due to heavy rain the program was meant to be cancelled. However, the participants and the students of the university insisted on having the concert. The students watched the program that was going on for more than two hours with great interest.

On the 23th of May Giresun Municipality Director of Cultural and Social Activities Hasan Ozdemir personally accompanied Khazar Univeisyt's team for the dinner organized by Giresun Municipality. After the dinner Khazar Univeristy's was sent to Sarp Border Gates with the special bus given by Giresun Municipality.





# FRANSANIN AVROPA VƏ QLOBAL MÜNASİBƏTLƏRİ ÜZRƏ JAN MONNE SEMİNARI

# JEAN MONNET SEMINAR ON THE EUROPEAN AND GLOBAL RELATIONS OF FRANCE

Mayın 24-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamenti tərəfindən Fransanın Azərbaycandakı səfiri Aureliya Buşe son prezident seçkilərindən sonra Fransanın mövcud xarici siyasəti ilə bağlı müzakirələr aparmağa dəvət olunmuşdu. Səfir Fransada prezidentliyə namizədlərin seçki qabağı keçirdiyi kampaniyaların, onların xarici siyasətlə bağlı verdiyi vədlərin, o cümlədən, Fransada baş verən siyasi proseslərin ümumi icmalını təqdim etdi.

Seminarda Fransanın Avropa və xarici, eləcə də, dünyanın fransız dilində danışan ölkələri ilə əlaqələri barədə, habelə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində Fransanın siyasi münasibəti ilə bağlı suallar verildi.

Seminardan sonra səfir Aureliya Buşe Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə Azərbaycan və Fransa ali təhsil müəssisələri arasında əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində mövcud imkanlar müzakirə olundu..

On May 24, the Department of Political Science and International Relations of Khazar University hosted H.E. Aurélia Bouchez, Ambassador of France to Azerbaijan, to discuss the foreign policy of France following the recent presidential elections. Ambassador Bouchez provided a general overview of the French political process, including the pre-election campaign of presidential candidates and their the foreign policy promises. Questions were asked about the European and Foreign Relations of France, the relations with the French Speaking Countries of the World and the French policy towards the peaceful resolution of the Nagorno Karabagh conflict.

Following the seminar, Amb. Aurélia Bouchez met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees to discuss the challenges and opportunities for the interuniversity cooperation between the Azerbaijani and French institutions of higher education.







## 12 SAYLI MƏKTƏBİN ŞAGİRDLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 5-də Xəzər Universitetində "Açıq qapı" günü keçirildi. Bakının Nizami rayonundakı 12 saylı məktəbin yuxarı sinif şagirdləri "Açıq qapı" günündə universitetin fakültələri, ixtisasları, laboratoriyaları, mərkəzləri ilə tanış oldular. Onlara universitet haqqında geniş məlumat verildi və broşürlər təqdim edildi.



## STUDENTS OF SCHOOL № 12 AT KHAZAR UNIVERSITY

On May 5, "Open Door" day was held at Khazar University.

The high class students of school № 12 in Nizami district visited Khazar University. They got acquainted with the schools, specialties, labs and centers of the university. They were given brochures and comprehensive information about the university.

Memory photos were taken.





## “XƏZƏR XƏBƏR”İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



# MACARISTAN ELM VƏ TƏHSİLİ İLƏ ƏLAQƏLƏRİN YENİ SƏHİFƏLƏRİ

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli Macarıstan Elmlər Akademiyasının dəvəti ilə mayın 24-26-da bu ölkədə səfərdə olmuş, bir sıra görüşlər keçirmiş, qarşılıqlı əməkdaşlıq üçün danışıqlar aparmışdır.

Macarıstan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Lajoş Veskaşla keçirilmiş görüşdə yeni mərhələdə Azərbaycan-Macarıstan elmi əlaqələrini sistemli şəkildə inkişaf etdirmək məsələlərindən bəhs edilmiş, akademiyalar arasında qarşılıqlı əməkdaşlığa dair müqavilənin hazırlanması razılaşdırılmışdır.

Macarıstan EA-nın Humanitar Tədqiqatlar Mərkəzində aparılan danışıqlarda ictimai və humanitar elmlər istiqamətində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Akademik İsa Həbibbəyli görkəmli macar yazıçı-dramaturqu İmre Madaçın “İnsanın faciəsi” mənzum dramatik poemasının Azərbaycan dilində nəşrini Macarıstan tərəfə təqdim etmişdir. Görüşdə Azərbaycan və macar ədəbiyyatlarının tarixi haqqında yazılmış ümumiləşmiş bir əsərin hər iki dilə tərcümə edilib nəşr olunması qərara alınmışdır.

Macarıstan EA Ədəbiyyat İnstitutunun direktoru, professor Qabor Keçskemeti ilə keçirilmiş görüşdə qarşılıqlı əlaqələrin perspektivləri müzakirə olunmuş, Macarıstan EÖTVOS Lorand Universitetinin Türkologiya Mərkəzində dilçilik istiqamətində qarşıda duran vəzifələrdən söz açılmış, kitab mübadiləsi edilmişdir.

Akademik İsa Həbibbəyli vaxtilə akademik Georq Hazainin qurucu rektoru olduğu Andras Universitetində görkəmli alim və böyük ictimai xadimin xatirəsinə həsr edilmiş beynəlxalq elmi konfransda olmuşdur.

Macarıstan Elmlər Akademiyasında, Humanitar Tədqiqatlar Mərkəzində, EÖTVOS Lorand Universitetində keçirilən görüşlərdə, Andras Universitetində təşkil olunmuş konfransda Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyev iştirak etmişdir.

Akademik İsa Həbibbəyli digər görüşlər də keçirmiş, bir sıra başqa tədbirlərin də iştirakçısı olmuşdur.



# AMEA - DA YAZIÇI AFAQ MƏSUDUN YUBİLEYİ QEYD OLUNUB

İyunun 1-də AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin direktoru, yazıçı, dramaturq, Əməkdar incəsənət xadimi Afaq Məsudun yubileyinə həsr olunan tədbir və akademik Nizami Cəfərovun "Afaq Məsud dünyası" monoqrafiyasının təqdimatı keçirilib.

Tədbirdə AMEA-nın vitse-prezidenti, institutun direktoru, akademik İsa Həbibbəyli çıxış edərək Afaq Məsudun "yetmişincilər" ədəbi nəslinin istedadlı nümayəndələrindən biri olduğunu və onun yeni ideyaları və mövzuları ilə müasir dövr Azərbaycan ədəbiyyatının inkişafında xüsusi rol oynadığını bildirib. Qeyd edib ki, Afaq Məsud "Üçüncü mərtəbədə", "Həsən əmi", "Bekar", "Telefonda işıq", "Şənbə gecəsi", "Yataqxana" və bir çox hekayələrində dövrün ictimai və ailə-məişət problemlərini özünəməxsus şəkildə qələmə alıb. Akademik Azərbaycanda bədii tərcümə işinin inkişafında və xalqımızın dünya ədəbiyyatının klassiklərini ana dilində tanımasında A.Məsudun müstəsna xidmətləri olduğunu diqqətə çatdırıb.

"Afaq Məsud dünyası" monoqrafiyası barədə də danışan İ.Həbibbəyli bildirib ki, yazıçının müasir bədii düşüncədə fərdiliyi, bu özəlliyin meydana gətirdiyi bədii məziyyətlər əsərdə ustalıqla araşdırılıb.

Tədbirdə akademik Nizami Cəfərov çıxış edərək monoqrafiyanın "Afaq Məsudun hekayə dünyası", "Afaq Məsudun roman dünyası" və "Afaq Məsudun dramaturgiya dünyası" kimi üç hissədən ibarət olduğunu bildirib. Qeyd edib ki, A.Məsud kifayət qədər görkəmli, hər cür müzakirəyə açıq, təbii bir ziyalı-intellektual xarakterə malik insandır.

Tədbirdə AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Afaq Məsudun milli modernizm ədəbiyyatının gəlişməsində rolu", filologiya üzrə fəlsəfə doktoru Nərgiz Cabbarlının "Afaq Məsud yaradıcılığının tənqidi dərkində Nizami Cəfərovun monoqrafiyasının yeri", filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözovanın "Afaq Məsud hekayəsi və ədəbi tənqid" mövzularında məruzələri dinlənilib.

Mərasimdə Afaq Məsuda Ədəbiyyat İnstitutunun yeni nəşrləri hədiyyə olunub.

Sonda A.Məsud tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.





## KASTAMONU UNİVERSİTETİNİN ƏMƏKDAŞI XƏZƏR UNİVERSİTETİNDƏ MÜHAZİRƏ OXUDU

Mayın 11-də Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə coğrafiya ixtisasının tələbələri və tədqiqatçılar üçün *"The changing of land use for using GİS"* mövzusunda mühazirə - seminar keçirildi. Mühazirəni Türkiyənin Kastamonu Universitetinin Mühəndislik və memarlıq fakültəsinin müəllimi, landşaft memarlıq departamentinin müdiri Dr. Mehmet Çetin aparırdı. GİS mövzusu hazırda coğrafiyaçıların marağında olduğu önəmli bir mövzudur. Xəzər Universitetində keçirilən seminarda BDU-nun coğrafiya ixtisasının magistratura və İqtisad Universitetinin MBA üzrə magistratura tələbələri də iştirak edirdilər.

Seminarın sonunda Dr. Mehmet Çetin tələbələr və tədqiqatçıların suallarını cavablandırdı.

Sonda Coğrafiya və ətraf mühit departamentinin əməkdaşı Günay Kərimova qonağa Xəzər Universiteti adından hədiyyə təqdim etdi.

## KASTAMONU UNIVERSITY FACULTY MEMBER DELIVERS LECTURE AT KHAZAR UNIVERSITY



On May 11, a lecture/ workshop entitled *"The changing of land use for using GİS"* was held for students and researchers of Khazar University majoring in geography with the coordination of Rovshan Abbasov, Head of the Department of Geography and the Environment . The lecture was delivered by Dr.Mehmet Cetin, instructor of the Faculty of Agriculture and Engineering, Head of the Department of Landscape Architecture. Graduate students of Baku State University majoring in geography and graduate students of Azerbaijan State University of Economics studying MBA also took part in the seminar held at Khazar University.

At the end of the seminar, Dr.Mehmet Cetin answered the questions of the students and researchers and Gunay Karimova, an employee of the Department of Geography and Environment presented a gift to the guest on behalf of Khazar University.

## "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" JURNALI YENİDƏN HƏM ELEKTRON, HƏM DƏ KAĞIZ ÇAP FORMATINDA ÇIXIR

## KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES IS PUBLISHED AGAIN IN BOTH ELECTRONIC AND PAPER VERSIONS

"Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") jurnalı Azərbaycanda humanitar və sosial elmlər sahəsində Thomson Reuters' Web of Science elmi platformasına daxil olan yeganə jurnaldır. Jurnal humanitar və sosial elmlər sahəsində ciddi elmi axtarışların, orijinal və aktual məqalələrin nəşrinə üstünlük verir. Eyni zamanda, jurnalda konfrans, simpozium materialları, kitab şərhlərinə də yer verilir. Əsas məqsəd elmdə baş verən yenilikləri beynəlxalq ictimaiyyətə çatdırmaq, yerli və xarici alimlər arasında elmi ünsiyyət qurmaqdır.

Jurnalın redaksiya heyətinə müvafiq sahələr üzrə dünyada nüfuzu olan alimlər daxildir.Təqdim olunan məqalələr ilk növbədə redaksiya heyətinin ciddi nəzarətindən keçirilir və ən az iki rəyə göndərilir. Jurnalın redaksiya heyətinə təqdim olunan bütün elmi məqalələr xarici mütəxəssislərdən ibarət "anonim rəyçi qrupları" tərəfindən qiymətləndirilir. Jurnalın həm kağız, həm də elektron nəşr versiyaları vardır.

Məlumat üçün bildiririk ki, "Khazar Journal of Humanities and Social Sciences" yurnalı 2017-ci ildən etibarən yenidən iki formada - həm elektron, həm də kağız çap formatında çıxır. Qeyd etmək lazımdır ki, bu ildən etibarən jurnalın formatında və üz qabığında da bir sıra dəyişikliklər olmuşdur.

"Khazar Journal of Humanities and Social Sciences" jurnalının ayrılıqda elektron və çap formatına, eləcə də, hər ikisinə istənilən sayda abunə yazılmaq mümkündür.

Abunə yazılmaq barədə əlavə məlumatı submissions@khazar.org elektron ünvanına yazmaqla əldə etmək olar.

Khazar Journal of Humanities and Social Sciences is the unique journal in the field of Humanities and Social sciences which is included in the scientific platform known as Thomson Reuters' Web of Science. The Journal prefers publishing substantive research papers, as well as a publication of original and topical articles. At the same time, conferences, symposium materials and book statements are also included in the journal. The main purpose is to deliver innovations in science to the international community and to establish scientific communication between local and foreign scientists.

Well-known scientists of relevant areas from all over the world are included in the editorial board of the journal. Presented articles are firstly sent to the supervision of editorial board and then, they are sent at least to two reviewers. All the submitted papers to the journal's editorial board are evaluated by 'anonymous reviewer groups' consisting of external experts. Both paper and electronic versions of the publication are available in the journal.

It is relevant to state that since 2017, Khazar Journal of Humanities and Social Sciences has been published in both electronic and paper versions. It should be noted that a number of changes have been made in the cover and the style of the journal.

It is also possible to subscribe separately to electronic and paper versions, as well as to subscribe both versions unlimitedly.

More information regarding signing up for a subscription can be obtained by emailing to submissions@khazar.org

## PROFESSOR HAMLET İSAXANLI RƏSSAM KAMAL ƏHMƏDƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ

İyunun 1-də azadinform.az xəbər saytında "Xalq əmanəti" layihəsi çərçivəsində rəssam Kamal Əhmədə həsr olunmuş tədbirdən geniş yazı yayımlanmışdır.

Yazının bir hissəsini Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının çıxışı təşkil edir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
http://www.azadinform.az/news/a-143516.html

# 232 SAYLI MƏKTƏBDƏ SEMİNAR: "MƏKTƏB, ŞAGİRD, VALİDEYN MÜNASİBƏTLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ"

# WORKSHOP ON "IMPROVING RELATIONS AMONG SCHOOL, STUDENT AND PARENT" AT SCHOOL № 232

Mayın 11-də Xəzər Universitetinin İnkişaf üzrə direktoru Raziyə İsayeva Bakının Suraxanı rayonundakı 232 saylı tam orta məktəbdə "Məktəb, şagird, valideyn münasibətlərinin təkmilləşdirilməsi" adlı seminarda iştirak etdi. O, məktəbin direktoru Məhluqə Əzizovanın dəvəti ilə seminara məruzəçi qismində qatılmışdı.

Seminarda valideynlərlə yanaşı, məktəbin müəllim heyəti və şagirdləri də iştirak edirdilər. Təqdimat çox böyük maraqla qarşılandı və iştirakçıların məruzəçiyə ünvanladığı suallar cavablandırıldı.

Xatırladaq ki, məktəbin direktoru Məhluqə Əzizova Xəzər Universiteti "Potensial Məktəb Direktorları kursu"nun məzunudur.

On May 11, Raziya Isayeva, Development Director at khazar University, participated in a workshop entitled "Improving Relations among School, Student and Parent" held at school № 232. Raziya Isayeva, who was invited to the workshop as a lecturer by the director of the school Mahluga Azizova, delivered a presentation on the topic. Along with parents, teaching staff and students of the school took part in the event as well. Her presentation was greeted with great interest and questions of the participants were answered.

It should be noted that Mahluga Azizova graduated from the Training Course for Potential School Directors at Khazar University.

# "XƏZƏR"İN ƏMƏKDAŞI ORDU UNİVERSİTETİNDƏ

# KHAZAR STAFF MEMBER AT ORDU UNIVERSITY

Mayın 11-13-də Türkiyənin Ordu Universiteti və EAB (Eğitim Araştırmaları Birliği) tərəfindən təşkil edilən 9-cu Beynəlxalq Təhsil Tədqiqatları Konfransında Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova "Azərbaycan universitet tələbələrinin internet asılılığı və psixoloji simptomları arasında əlaqə" adlı tədqiqat işi ilə çıxış etdi. Tədqiqat işində universitet tələbələri arasında keçirilmiş və internet asılılığı ilə müxtəlif alt şkalalar (somatizasiya, obsesiya, depressiya, anksiyetə, fobiya, paranoya, psixotizm) arasında əlaqə araşdırılmışdır. Məruzə böyük maraq doğurdu və mədəniyyətlərarası tədqiqatların aparılması ilə əlaqədar təkliflər verildi.

Konfransda 12 ölkədən tədqiqatçılar iştirak edirdilər.

Sonda məruzəçi Mələk Kərimovaya sertifikat və məruzələrin çap edildiyi kitab təqdim olundu.

On May 11, Melek Kerimova, Assistant Dean of the School of Humanities and Social Sciences, Director of Khazar Psychological Services Center, participated at the 9th International Congress of Educational Research coordinated by Ordu University, Turkey and ERA (Education Research Association). She introduced her research work entitled "Connection between Internet Addiction of University Students and its Psychological Symptoms". The research work conducted among the university students investigates the connection between internet addiction and various sub-scales (somatization, obsession, depression, anxiety, phobia, paranoia, psychoticism). The presentation was greeted with great interest and suggestions were made on conducting intercultural researches.

At the end, Melek Kerimova was presented with a certificate and a book covering the delivered speeches.

# "XƏZƏR"İN ƏMƏKDAŞI POLŞADA BEYNƏLXALQ ƏMƏKDAŞLAR HƏFTƏSİNDƏ

# KHAZAR UNIVERSITY'S STAFF MEMBER AT INTERNATIONAL STAFF WEEK IN POLAND



Xəzər Universiteti Beynəlxalq əlaqələr ofisinin koordinatoru Günay Fərzəliyeva Polşanın Varşava şəhərində Kozminski Universitetində Erasmus+ layihəsi çərçivəsində mayın 8-12-də keçirilən Beynəlxalq Əməkdaşlar Həftəsində iştirak etdi. Tədbirdə Avstraliya, Belçika, Braziliya, Kanada, Çin, Xorvatiya, Çexiya, Gürcüstan, İndoneziya, Yaponiya Qazaxıstan, Malayziya, Yeni Zelandiya, Rusiya, Peru, Filippin, Serbiya, Ukrayna, Böyük Britaniya və ABŞ-dan olan administrativ və akademik heyət nümayəndələri iştirak edirdilər.

Bu, Xəzər Universitetinin Kozminski Universitetində Beynəlxalq Əməkdaşlar Həftəsində ikinci iştirakı idi. Bu ilin əməkdaşlar həftəsi daha çox beynəlmiləlləşdirmə prosesinin effektiv idarə olunması yollarına həsr olunmuşdu. Tələbələrin gələcək iş həyatına hazırlanması, əcnəbi tələbələrin universitet həyatına aktiv cəlb olunması, gələcək təlim metodları və digər məsələlər müzakirə olunan problemlər sırasında idi.

Əməkdaşlar Həftəsində Xəzər Universiteti və onun beynəlmiləlləşdirmə strategiyası barədə təqdimatla çıxış edən G. Fərzəliyeva, həmçinin, tədbirə qatılmış universitetlərin nümayəndələri ilə görüşərək, mümkün əməkdaşlıq imkanlarını müzakirə etdi. O, əməkdaş universitetlərin yarmarkası şəklində təşkil olunmuş və Kozminski Universitetində təhsil alan mübadilə tələbələri və gələcəkdə həmin universitetlərdən gələ biləcək mübadilə tələbələri ilə görüşmək imkanlarının olduğu tədbirdə də iştirak etdi.

G. Fərzəliyeva həm də hazırda Kozminski Universitetində bir semestrlik mübadilə proqramı çərçivəsində təhsil alan Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin iki bakalavr tələbəsi ilə də görüşdü.

On May 8-12, Ms. Gunay Farzaliyeva, Coordinator of International Affairs Office, participated in the International Staff Week organized within the Erasmus+ Programme at Kozminski University in Warsaw, Poland. Participants included administrative and academic staff members from various universities of Australia, Belgium, Brazil, Canada, China, Croatia, Czech Republic, Georgia, Indonesia, Japan, Kazakhstan, Malaysia, New Zealand, Peru, Philippines, Russia, Serbia, Ukraine, UK, and USA.

It was the second time that Khazar University participated in the International Staff Week at Kozminski University. This year's staff week focused on effective management of the internationalization process. Discussions included work-life balance, future learning tools, organization of engagement of international students in university life actively, preparation of students for a job market, and many others.

During the staff week, Gunay Farzaliyeva delivered a presentation about Khazar University and its internationalization strategy. She met with the representatives of participating universities and discussed possible cooperation opportunities with them. Ms. Farzaliyeva also represented the university in the networking event organized in the form of fair of universities where partner universities had a chance to meet with both their students on exchange and prospective exchange students from Kozminski University. Gunay met with two bachelor students from the School of Economics and Management of Khazar University who are currently on a semester-long exchange at Kozminski University.

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI RESPUBLİKA ELMİ - PRAKTİK KONFRANSINDA ÇIXIŞ ETDİLƏR

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Dillər Universitetinin birgə əməkdaşlığı ilə mayın 11-12-də Azərbaycan Dillər Universitetinin yaranmasının 80 illiyinə həsr edilmiş "Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda Respublika elmi-praktik konfrans keçirildi. Konfransda ADU-nun rektor vəzifəsini icra edən professor Əfqan Abdullayev, ADU-nun ümumi dilçilik kafedrasının professoru Fəxrəddin Veysəlli və digərlərinin məruzələri dinlənildi.

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri İrina Orucova, Elmira Əliyeva, Zamirə Qurbanova (doktorant), Gülnaz Novruzzadə (doktorant), həmin departamentin minor proqramlar üzrə koordinatoru Milana Abbasova (doktorant) və Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi Validə Kərimova (doktorant) konfransda iştirak etdilər. İrina Orucova *"Обучение стилистическому приему сравнение на уроках художественного перевода (на материале рассказов Э.Хемингуэя)"*, Elmira Əliyeva *"Дискурс и коммуникативная компетенция"*, Gülnaz Novruzzadə *"Azərbaycan və ingilis dillərində inkarlıq kateqoriyası"*, Milana Abbasova *"Sosial şəbəkələrin tələbələrin ingiliscəsinə təsiri"*, Validə Kərimova isə *"Analyzing the features of Publicist style. Political metaphor in the media"* mövzularında məruzə etdilər.

Konfransda xarici dillərin öyrənilməsi, tədrisi və metodikasında yaranan problemlər müzakirə edildi, ingilis dilinin tədqiqində İKT-dən istifadə məsələləri, dil öyrənmə prosesində anlam konsepsiyası və bu kimi başqa məsələlər geniş müzakirə olundu..

Sonda iştirakçılara sertifikat və məruzələrin çap edildiyi kitab verildi.

## KHAZAR UNIVERSITY STAFF MEMBERS AT REPUBLICAN SCIENTIFIC - PRACTICAL CONFERENCE

On May 11-12, instructors of English Language and Literature Department Irina Orujova, Elmira Aliyeva, Zamira Gurbanova (PhD student), Gulnaz Novruzzadeh (PhD student), Milana Abbasova PhD student and Minor Programs Coordinator of the Department and Valida Kerimov, PhD student and Dean's assistant of School of Humanities and Social Sciences, participated at the Republican Scientific-Practical Conference held with coordination of the Ministry of Education of Azerbaijan Republic and Azerbaijan University of Languages. The conference entitled "Actual problems of teaching foreign languages" was dedicated to the 80th anniversary of the establishment of AUL. Theses of the above mentoned instructors entitled "Обучение стилистическому приему сравнение на уроках художественного перевода (на материале рассказов Э.Хемингуэя)"( Irina Orujova), "Дискурс и коммуникативная компетенция" (Elmira Aliyeva), "Azərbaycan və ingilis dillərində inkarlıq kateqoriyası" ( Gulnaz Novruzzadeh), "Sosial şəbəkələrin tələbələrin ingiliscəsinə təsiri" ( Milana Abbasova), "Analyzing the features of Publicist style. Political metaphor in the media" ( Valida Kerimova) were delivered during the conference.

The conference covered topics such as challenges encountered in learining, teaching foreign languages, the role of ICT in the study of English language, the concept of meaning in language learning and so on. Afgan Abdullayev, the acting rector of AUL and Fakhraddin Veysalli, professor of the department of Linguistics, made speeches as well.

At the end of the conferenc, the participants were presented certificates and a book covering the delivered speeches.

# GƏNC TARİXÇİLƏR NUMİZMATİKA VƏ MİNİATÜR KİTAB MUZEYLƏRİNDƏ



Mayın 12-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun Təhsil fakültəsi tarix ixtisasının tələbələri üçün təşkil etdiyi növbəti dərs İçərişəhərdə yerləşən Numizmatika muzeyində gerçəkləşdirildi. Dərs ekskurs xarakterli olması ilə bərabər, numizmatika üzrə mütəxəssis Qənirə Pirquliyevanın rəhbərliyi ilə keçirildi.

Təhsil fakültəsinin tələbələrinə Azərbaycan numizmatikası, Şərqin pul dövriyyəsi, mübadilə və ticarət ilə bağlı geniş və maraqlı faktlardan bəhs olundu. Tələbələrin maraqlı sualları və şərhləri, dərsin keçirildiyi məkanın – Çin məscidinin özünəməxsus aurası və Q. Pirquliyevanın əhatəli təqdimatı dərsin qavranmasına və yaddaqalan olmasına şərait yaratdı.

Bu ekskursiyaya Şirvanşahlar sarayı yaxınlığında yerləşən dünyanın nadir Miniatür kitab müzeyinə qısa gəzinti də daxil idi. Orada tələbələr kitab incəsənəti və texnologiyası haqqında məlumatlandırıldılar. Mikroskopik ölçülü kitablar muzeyi ilə tanışlıq tarixçi tələbələr üçün çox maraqlı oldu.

# YOUNG HISTORIANS' FIELD TRIP TO MINIATURE AND NUMISMATIC MUSEUMS

On May 12, Orkhan Zamanov , an instructor of the Department of History and Archeology organized the next history class as a field trip to the Numismatic museum located in Icherisheher for students of the School of Education majoring in history. Academic excursion was under the supervision of numismatic expert Ganira Pirguliyeva. The students of School of Education were provided with extensive and interesting facts about Numismatics of Azerbaijan, East currency, exchange and trade. The students' interesting questions and comments, unique aura of China's mosque where the class was held, the comprehensive presentation of Ganira Pirguliyeva made the lesson be perceived well and memorable. A short trip to Miniature Book Museum located near Palace of Shirvanshahs` palace also included to this academic excursion. The students were given information about book art and technology. Microscopic books and being in one of the rarest museums of the world were very interesting for the students of history.







## "XƏZƏR"İN RƏQS QRUPLARININ AKSU FESTİVALINDA İŞTİRAKI HAQQINDA MÜŞAVİRƏ

Xəbər verdiyimiz kimi, Xəzər Universitetinin oğlanlardan və qızlardan ibarət rəqs qrupları mayın 18-dən 23-dək Türkiyənin Giresun şəhərində keçirilmiş 40-cı Beynəlxalq Aksu festivalında müvəffəqiyyətlə iştirak etmişlər.

Mayın 31-də universitetdə səfərin nəticələrinə həsr olunmuş müşavirə keçirildi. Müşavirədə universitetin rəhbərliyi, dekan və dekan müavinləri, departament müdirləri, rəqs qruplarının üzvləri və rəhbərləri iştirak edirdilər.

Müşavirə səfər haqqında filmin nümayişi ilə başlandı. Sonra Giresuna səfərdə kollektivə rəhbərlik etmiş universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsər Əmirbəyli çıxış edərək, səfərin nəticələri, rəqs qruplarının çıxışlarının böyük müvəffəqiyyətlə keçməsi haqqında ətraflı məlumat verdi.

Rəqs qruplarının rəhbərləri - universitetin müəllimləri Səbinə İsmayılova və Telman Əliyev, universitetin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova çıxışlarında səfər təəssüratlarını bölüşdülər, universitet rəhbərliyinə festivalda iştiraklarına şərait yaratdığına görə təşəkkürlərini bildirdilər.

Universitetin prorektoru Məhəmməd Nuriyev, dekan və dekan müavinləri də çıxış edərək, fikir və mülahizələrini bildirdilər.

Sonda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri prpfessor Hamlet İsaxanlı rəqs qruplarının üzvlərini və rəhbərlərini festivalda uğurlu çıxışlarına görə təbrik etdi, onlara yeni nailiyyətlər arzuladı.

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ XALQ ŞAİRİNİ YAD ETDİLƏR

Mayın 28-də Xəzər Universitetinin müəllimi Qardaşxan Əzizxanlı və universitetin tələbələri xalq şairi Söhrab Tahirin xatirəsinə həsr olunmuş tədbirdə iştirak etdilər. Bu haqda Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) rəsmi internet səhifəsində məlumat yayılmışdır:

*http://azertag.az/xeber/Xalq_Sairi_Sohrab_Tahirin_xatiresi_anilib-1065505*

GÜNDƏLİK İCTİMAİ SİYASİ QƏZET ŞƏRQ www.sherg.az

## PROFESSOR HAMLET İSAXANLI UNİVERSİTETLƏRDƏ HAZIRLIQ KURSLARININ YARADILMASINA MÜNASİBƏT BİLDİRDİ

İyunun 8-də "Şərq" qəzetinin internet səhifəsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının universitetlərdə hazırlıq kurslarının yaradılması ilə bağlı təklifə münasibəti yer almışdır.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*http://www.sherg.az/site/id-32412/_Professordan_mükəmməl_İZAH:_"Universitetlərdə_kurslar_yaradılsa,_neqativ_hallar..._"*



## "XƏZƏR"İN ƏMƏKDAŞLARI KASTAMONUDA

Mayın 7-14-də Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamenti və Biologiya departamentinin 6 nəfərlik müəllim heyəti - Rövşən Abbasov, İradə Xəlilova, Fuad Cəfərli, Rövşən Kərimov, Ramil Sadıqov və Cavid Ocaği Erasmus+ proqramı çərçivəsində Türkiyənin Kastamonu Universitetində olmuşlar. Səfər günlərində onlar universitetin rektoru Prof. Dr. Seyit Aydın, Erasmus koordinatoru Dos. Dr. Əhmət Sivacıoğlu, Meşəçilik Fakültəsinin Dekanı Prof. Dr. Ömər Küçük və Təhsil fakültəsinin Dekanı Prof. Dr. İbrət Ünal ilə görüşmüşlər.

"Xəzər"in əməkdaşları, eyni zamanda, Kürə Dağları Milli Parkında, Meşəçilik idarəsində olmuş, yerli QHT nümayəndələri ilə görüşlər keçirmişlər.

Qeyd edək ki, Xəzər Universitetinin Kastamonu Universiteti ilə əlaqələri 2012-ci ildən başlamışdır. Hal-hazırda Kastamonu Universiteti meşəçilik üzrə Türkiyənin ən tanınmış universiteti hesab olunur.

## KHAZAR STAFF MEMBERS AT KASTAMONU

On May 7-14, 6 teaching staff members of the departments of Geography and Environment and Biology Rovshen Abbasov, Irade Khalilova, Fuad Jafarli, Rovshen Kerimov, Ramil Sadigov and Javid Ojaghi were at Kastamonu University, Turkey, within the framework of Erasmus+ program. During the visit they met with Prof. Dr Seyit Aydın, Rector of Kastamonu University; associate professor Dr Ahmet Sivacıoghlu, Erasmus coordinator; Prof. Dr Omer Kuchuk, Dean of the School of Forestry; Prof. Dr Ibret Unal, Dean of the School of Education. Khazar`s staff members were at Kure Mountains National Park, held meetings with representatives of local NGOs as well.

It should be noted that the relations between Kastamony University and Khazar University started in 2012. Currently, Kastamony University is considered the most popular university in Turkey in forestry.

## *XEBER365. COM*-DA PROFESSOR HAMLET İSAXANLI İLƏ VİDEOSÖHBƏT

İyunun 11-də *Xeber365.com* saytı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə apardığı videosöhbəti yayımlamışdır. Söhbət, əsasən, QS beynəlxalq reytinq təşkilatının dünya üzrə ali təhsil müəssisələrinin 2017-ci il üçün reytinqinin nəticələrinə həsr olunmuşdur.

Reytinq siyahısına görə, Xəzər Universiteti dünya universitetləri arasında 701-750 aralığında yerləşir və Azərbaycan universitetləri arasında isə 1-ci yeri tutur. Söhbət zamanı professor İsaxanlı bu uğura gətirib çıxaran yoldan, Xəzər Universitetində elm və təhsilin beynəlxalq təcrübə əsasında inkişafına səy göstərilməsindən bəhs etmişdir.

Videosöhbəti bu linklər vasitəsilə izləmək olar:

*https://www.youtube.com/watch?v=-Kcr075k0iQ;*

*http://mektebgushesi.az/2017/06/11/hamlet-isaxanli-ədliyyə-nazirliyi-azərbaycani-məndən-qoruyur-videosohbət/*

# ХАЗАР В ЛИЦАХ

*Начало и продолжение в номерах 361, 362*

## РАФИГ МУЕЛЛИМ



Рафиг муеллим!
Своей походной Зевса
Вы трепет можете внушить
Тому, кто видит Вас впервые.
Но стоит Вас получше рассмотреть
Сквозь призму Вашей жизни свеч,
Так станет очевидно, что Вы – лирик.

Работа – Вашей жизни культ,
Её Вы любите безмерно,
Вы в тишине, без суеты
Ей преданы самозабвенно.

Вы с гордостью себя несёте
По жизни сложной, но прекрасной,
И никогда Вы не свернёте,
Если идти по ней опасно.

Все говорят: «Его совет всегда в цене,
Он скрупулёзен и дотошен,
Умеет «наводить мосты»,
Он инженер, в расчётах точен!

Его организаторский талант
Был высоко оценен,
И было решено его на прочность испытать,
И, не куда-нибудь в уютный мир,
А в Африку послать, чтобы его потенциал
И там быть мог проверен.

Подумал он, что Африки тепло,
Конечно не во вред,
Но, иногда, тепло мозги немного размягчает,
И чтоб вобрать мозги назад,
Реально холод помогает.

Хотя наш Рафиг-муеллим
Мужчина тёплый и вальяжный,
Он может остудить мозги,
Когда учиться мыслить важно.

Он климат в Африке сменил
На интеллектуально - влажный,
Его студенты ощутили холодок,
И вмиг в их головах возник поток
Научных знаний очень важных.

С тех пор синоптики твердят,
Что климат Африки сменился,
Поскольку интеллект людей
Неимоверно изменился.

Себя они не узнают,
Свои привычки позабыли,
И громогласно признают,
Что их мышленье обновили.

Тогда они познали суть
Дисциплинарного подхода,
Который путь им указал
К прозренью целого народа.

Его отчёты без изъяна,
Где цифры, векторы и факты
Сияют ярко, как бриллианты,
И в совокупности своей,
Напоминают акварель.

Но если, вдруг, какой-то казус
Возник из недр бытия,
Без промедленья он укажет,
Откуда нам грозит беда.

Ведь, когда надо Вы - хирург,
Свой скальпель в зону риска направляя,
Вы извлекаете червя,
Тем самым рану очищая.

Не разглашая свои мысли,
Вы их храните про запас,
Вы знаете, что вся их сила
Себя проявит в вещий час!

Вы генеральскою походкой
Идёте вдоль Хазарских стен,
Себя несёте Вы степенно,
Вы арсенал Хазарских стрел.

И если уж вы улыбнулись нам при встрече,
Это хороший знак того,
Что на сегодня Вы успешно завершили дело,
Ради которого Вы здесь уже давно.

Хочу напомнить Вам слова из песни
Где было сказано о том,
Что «первым делом, первым делом самолёты»
Ну а всё прочее, что не Хазар -это потом!

Мы благодарны Вам
За Вашу взвешенную поступь,
За Ваш могучий знаний магнетизм,
За Ваши нежно-голубые очи,
Таящие всей Вашей жизни смысл...

## ФИРАНГИЗ ХАНУМ

Что пожелать тебе, скажи
В момент высокого признанья?
Когда родные и друзья
Полны почтенья и вниманья?
Уж всё, что все могли сказать,
Тебе известно.
А как же я?
Готовься, будет интересно.

Хочу сказать, что жизнь твоя логична,
Призвание твоё довольно эстетично,
И там, где ты, есть вечное движенье,
Есть шутки, смех и наслажденье.

Имея время наблюдать за тем,
Что было в твоей жизни,
Могу уверенно сказать,
Что «вёл» тебя английский «сыщик».
Когда пришла пора понять,
Что делать в жизни и кем стать,
Испить тебе велел Шекспир
Его сонетов эликсир.

Внушил тебе во время сна
Уменье познавать сполна
Всё то, что нам он завещал,
Храня как вещий капитал.
«Тебе придётся нелегко»,
Шепнул он в ухо глубоко,
«Ведь я не близко, высоко,
И вижу ох как далеко!
Тебе судьбой отведено
Моих сокровищ пить вино
И чтобы ты сказала внятно,
Кому где быть или не быть занятно».

С тех пор она ему верна,
За это ей от всех хвала.



Её талант переводить,
Интерпретировать, учить,
Не может «Шексу» навредить:
Ведь всё, что он понаписал,
Теперь Хазарский капитал,
Который Фирангиз-ханум
Кладёт студентам всем на ум,
Чтобы они навеки знали
Цену Шекспировской печали,
При этом помня хорошо,
Кто научил их понимать
Как жить, любить, но не страдать!

Они должны быть благодарны
Судьбе за случай роковой
Быть в её классе, где есть радость
Познать шедевр мировой!

Ты яркая звезда Хазара,
Ты излучаешь яркий свет,
Ты интереса к жизни не теряешь,
Дай бог тебе сто тысяч звонких лет!

# НИГЯР ХАНУМ



Давай не будем говорить,
Как так случилось,
Что надломилось жизнь и радость от неё,
И взгляд на суть существованья изменился,
На смысл деяний, на добро и зло.
В расцвете подвига земного,
Пришлось тебе себя загнать в капкан,
Откуда робко и безмолвно
Ковать ты стала новый план.

Ты выбралась, определилась,
Себя ты заново нашла.
И больше ты не суетилась,
В порядок чувства привела.

Твоей бунтующей натуре
Необходимо чётко знать,
Когда настанет час успеха,
Чтобы во всей красе предстать.

Ты любишь праздник, наслажденье,
Обилие красивых слов,
Тебе необходимо подтвержденье
Любви и текстов твоих снов.

Ты всегда выглядешь красиво,
Природа тебе щедро отпустила,
И ты стараешься сберечь
Природы щедрую картечь.

Ты много сделала тогда,
Когда деканом ты была,

Тебя и в Индии и в Пакистане,
Иране, Африке, Азербайджане
Чтить будут до скончанья века
За труд большого человека.

Ты им путёвку в жизнь дала,
Предусмотрев их будущие судьбы,
Снабдила знанием сполна
Как жизнь людей спасать,
Борясь с болезнями и мукой.

Ты никогда не отходила
От образа классической науки
В своих попытках сочетать
То новое, что стало всем нам нужным,
И вечное, что никогда не будет скоротечным,
И что никак нельзя нам забывать.

Твоя душа полна глубокой боли,
Когда ты видишь брошенных больных детей,
Ты бы всё сделала, что в твоей воле,
Чтоб оградить их от их горе-матерей,
Ты всех бы обняла, пригрела,
Одела, накормила и себе взяла,
Но нет такой возможности,
Чтоб дети всего мира
Остались бы твоими навсегда.

Ты ввяжешься в любую тяжбу
Из-за побитого щенка или кота,
Не побоишься ни угроз, ни мести
Ни живодёра, ни врага,
Ты всех бы кошек и собак отмыла и привила,
Подушки ты под всех бы подстелила,
Сама б за них охотилась, кормила,
И вальс бостон их танцевать бы научила.

Ты не ко всем стремишься без разбора,
Ты избирательна, но если «прикипишь»,
Ты будешь верным другом и надолго,
Пока есть в дружбе сокровенный смысл.

Твоя любовь к природе безгранична,
Свой сад ты превратила в рай,
Ты ходишь по нему императрицей,
Кивая красоте, обвившей твой «серай»

# БАБА МУЕЛЛИМ



Наш вечно юный Купидон
Очарователен, умён,
Всегда он что-то изучает,
Много работает, читает.

Английский выучил с нуля,
Учителей не утруждая,
Сейчас французскими увлечён,
Чтоб прочитать всего Стендаля.

Мужчина с именем Баба
Суров бывает иногда,
Но наш Баба – это весна,
Которая всегда красна
Своею пышностью садов
Назло врагам её цветов.

Историк, педагог и друг
Всегда поймёт, что за недуг
Людей вокруг него терзает:
Он улыбнётся, и в тот миг
Людская боль чуть-чуть стихает.

Он может сопереживать,
Людей ни в чём не обвиняя,
Он может глубоко страдать,
Когда его не понимают.

Он всем родной,
Кто его знает,
Он уважаем и любим,
Он очень добрый, терпеливый
Он в дружбе непоколебим.
Он принимает всех такими,
Какими их создал Аллах,
С ним всем легко, спокойно, мирно,
Мы все в его добра сетях.

Мужчина с именем Баба
Стареет раньше иногда,
Ведь в имени его намёк,
Что жизни выучен урок,
И его аура полна
Надежным опытом до дна!

Но это не его удел!
Он к знаниям стремиться смел,
Его натура такова, что нет предела для ума,
Поскольку он преподаёт
Науку жизни наперёд,
Чтоб наша молодёжь была
Способна знать её сполна.

Кто, как не педагог,
Ответственен за тот итог,
Который каждый наш студент
Достойно в жизнь свою возьмёт?

Баба муеллим!
Ваш оптимизм воистину неисчерпаем,
И Ваш девиз «всегда вперёд»
Мы все безмерно обожаем!

**Л. М. Гамидова,**
*Старший преподаватель*
*Департамента Английского*
*Языка и Литературы*

*Продолжение следует*



# ŞƏRƏFLİ MÜƏLLİM ÖMRÜ

Firəngiz müəllimlə ilk tanışlığım 2006-cı il fevralın 26-da olub. O zamandan 11 il keçməsinə baxmayaraq, hələ də o günü ən gözəl duyğularla xatırlayıram. Həyatda elə təsadüflər baş verir ki, çox vacib insanlarla tanışlığa səbəb olur və yaddaşlara silinməz tarix kimi həkk olunur.

Həmin gün Xəzər Universitetində müəllim vəzifəsində çalışmaq üçün müraciət etmişdim. O zaman Firəngiz müəllim İngilis dili və ədəbiyyatı departamentinin müdiri vəzifəsində çalışırdı. Sənədlərə baxdıqdan sonra "interview" (müsahibə) üçün dəvət olundum. Firəngiz müəllim mənimlə ümumi söhbətdən sonra "demo lesson" (sınaq dərsi) keçməyim üçün vaxt təyin etdi.

Həyəcanlı idim. "Demo lesson" günu bir cox əməkdaşlar qarşısında Xəzər Universitetində müəllim işləmək şərəfini qazanmaq üçün dərs nümayiş etdirməli idim. Həyəcanıma dəstək olmaq üçün hətta ailə üzvlərim də mənimlə bərabər Xəzər Universitetinə gəldi. "Demo lesson" başladı. Firəngiz müəllimlə bağlı bu gun də xatırladıqları belə bır məqam var. "Demo lesson" davam edərkən əməkdaşlardan biri Firəngiz müəllimi dəhlizə çağırır və onunla bir məsələni müzakirə etmək istədiyini bildirir. Firəngiz müəllim cavabında "hazırda vaxtım yoxdur və içəridə sınağa gəlmiş müəllim maraqlı dərs keçir, ona qulaq asmalıyam" - deyir. Bəli, Firəngiz müəllimi məsuliyyətli, işinə məhəbbət və ciddiyyətlə yanaşan və ən əsası Xəzər Universitetinə can yandıran insan kimi tanıdan məqamlardan birini qeyd etdim. Lakin bu, sadəcə biridir...

Xəzər Universitetində 2006-cı il mart ayının 6-da rəsmi olaraq işə başladım. Mühəndislik fakültəsində "çətin" adlanan bir qrupu Firəngiz müəllim dərs demək üçün mənə tapşırdı və söylədi: "Əgər bu qrupun öhdəsindən gəlsən, Xəzər Universitetində çalışmağa davam edəcəksən". Və o gündən, qeyd etdiyim kimi, artıq 11 il ötür. Bu illər ərzində təcrübəli müəllim olaraq yetişməyimdə Firəngiz müəllimin interaktiv dərslərində iştirakımın rolu danılmazdır, həm də onunla daha yaxından tanış oldum...

Firəngiz xanım müəllim və tərcüməçi peşəsini təsadüfən seçməmiş, hələ orta məktəb illərindən ingilis dilinə dərin maraq göstərmişdir. O günləri belə xatırlayır Firəngiz xanım: "8-ci sinifdə təhsil alırdım. Sevimli pedaqoq-alim, professor Fikrət Seyidov bizim 199 nömrəli məktəbdə dərs deyirdi. İngilis dilini bilməyim onun diqqətindən yayınmamışdı. İnstitutda ədəbi-bədii gecə keçiriləndə məni də dəvət etdi. Hamımızın ehtiram göstərdiyi, o vaxtlar dekan vəzifəsində çalışan əziz müəllimimiz İsmixan Rəhimov çıxışımı bəyəndiyini bildirdi, "yolunu gözləyirik, qızım" - dedi. İki ildən sonra sənədlərimi Azərbaycan Xarici Dillər İnstitutunun (indiki Azərbaycan Dillər Universiteti) ingilis dili fakültəsinə təqdim etdim. İmtahanlardan yüksək qiymət alıb, tələbə adına layiq görüldüm."

Firəngiz xanım 1970-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirir və təyinat komissiyasının qərarı ilə burada müəllimliyə başlayır. Adətən, bu

gözlənilməz şans hər kəsə nəsib olmur.

Müəllimləri Firəngizin tezliklə alimlik elmi dərəcəsi alacağına inanırdılar. Artıq o, "Şekspir Azərbaycan poeziyasında" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmək ərəfəsində idi. Həyat isə Firəngiz xanımın yaradıcı, elmi axtarışlarının üstündən xətt çəkdi. Həyat yoldaşı avtomobil qəzasına düşdü, hər an ölümlə üz-üzə dayandı. Ailənin bütün qayğısını o çəkməli oldu. Firəngiz xanımın yaddaşından: "Elmə nə qədər dərindən bağlansam da, dalınca gedə bilməzdim, çünki uşaqlarıma, ailəmə məhəbbətim bundan qat-qat üstün idi. Müəllimliyə gəldikdə isə, Allah bunu mənə çox görmədi. Çəkdiyimiz zəhmət hədər getmədi, gec də olsa, həyat yoldaşım sağaldı. Bundan sonra əl-qolum açıldı, işə həvəsim artdı. Həyatda yaxşı insanlar çoxdur. Dönə-dönə minnətdarlığımı bildirirəm ki, onlar dar, çətin günlərimizdə ailəmizə mənəvi köməklik göstərdilər."

Firəngiz xanım 1990-cı ildə ABŞ-ın "İnsan hüquqları araşdırmaları idarəsi"ndə tərcüməçi işləyir. Bir il sonra isə o, Xəzər Universitetinin ingilis dili kafedrasında baş müəllim vəzifəsində işləmək üçün dəvət alır. Etiraz etmir. Elə ilk günlərdən dərin biliyi, yüksək qabiliyyəti və təşkilatçılıq bacarığı sayəsində kollektivdə böyük nüfuz qazanır. Elmi, mədəni-kütləvi tədbirlərdə iştirak edərək, fərqlənməyə başlayır. Xüsusilə, ABŞ və Böyük Britaniya səfirlikləri ilə görüşlərdə ingilis dilinin incəliklərini dərindən bildiyini nümayiş etdirir.

1994-cü ilin baharında ilk təcrübə mübadiləsinə dəvət alan Firəngiz xanım ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərindəki universitetin həm "tələbəsi", həm də "müəllimi" olur. Bu azərbaycanlı xanımın ingilis dilində səlis danışması, onun leksikasını, qrammatikasını, fonetikasını mükəmməl bilməsi əcnəbi elm adamlarını heyran edir. Elə həmin ilin payızında Kolorado ştatının Bolder Universitetində ikinci dəfə təcrübə mübadiləsi keçir. Özünün və həmkarlarının dediyi kimi, ən dəyərli işi Vaşinqtonda olanda görüb. Xəzər Universitetinin "Qadın araşdırmaları" mərkəzinin göndərişilə ABŞ-ın paytaxtında fəaliyyət göstərən "Qlobal bacılıq" institutunda bir ay çalışan Firəngiz xanım "Hüquqlarımızın tələbi" adlı kitabı Azərbaycan dilinə tərcümə edir. Hazırda bu kitabdan respublikamızda fəaliyyət göstərən bir sıra qadın təşkilatları faydalanır.

1996-cı ilin aprel ayında Avstriyanın Zalsburq şəhərində təcrübə mübadiləsi keçən Firəngiz xanım burada da elmi-praktiki çıxışlarına görə rəğbətlə qarşılanır. 2001-ci ilin yanvar-fevral aylarında Böyük Britaniyanın Notingem şəhərində təcrübə mübadiləsində olarkən Firəngiz xanım "Təhsildə keyfiyyət" seminarında iştirak edib.

Böyük Britaniyanın Azərbaycandakı səfirliyi ilə sıx əlaqə saxlayan Firəngiz xanıma səfirliyin Ali Diplomatik Xidmət Şöbəsində işləməyə gələn diplomatlardan Azərbaycan və rus dillərindən imtahan götürmək kimi məsuliyyətli bir iş tapşırılıb. Hazırda 14 xarici diplomat bu sınaqdan uğurla çıxıb. Firəngiz xanım ingilis dilli xaricilər üçün ilk "Azərbaycan dili" dərsliyinin müəlliflərindən biridir.

Firəngiz xanım bədii tərcümə ilə də məşğul olur. Özü də bədii nümunələri doğma dilimizdən ingilis dilinə çevirir. O, səbəbini belə izah edir: "Çoxları tərcümə işinə başlayan kimi Şekspiri, Bayronu dilimizə çevirir. Onsuz da bu dahilərin əsərləri dəfələrlə tərcümə edilib. Özgələri tanıtdığımız kimi özümüzünküləri də tanıtmaq hər birimizin vətəndaşlıq borcudur. Bu məqsədlə Əli Kərimin, Hüseyn Arifin, Bəxtiyar Vahabzadənin, Nəriman Həsənzadənin, Zəlimxan Yaqubun şeirlərini Şekspirin dilinə çevirmişəm. Tərcüməçi həmkarlarımın fikrincə, heç də pis alınmayıb. Hörmətli başçımız, professor Hamlet İsaxanlının Türkiyədə çap olunmuş "Təzadlar" kitabına rəy yazmışam. "Yaşamağa nə var ki", "Təzadlar yadındamı" və bir çox seçilmiş şeirlərini ingilis dilinə tərcümə etmişəm."

Firəngiz xanım ötənləri yada salır, inamla bildirir ki, haqqı var özünü xoşbəxt sansın. Səbəbini soruşanda belə cavab verdi: "Xoşbəxt ailə sahibiyəm, sevimli Xəzərim və orada çalışan dəyərli dostlarım, həmkarlarım var. Xəzər Universitetini qurtaran tələbələrim arasında yüksək vəzifə sahibləri və elmi yaradıcı axtarışları ilə ad-san qazanan alimlər var."

Tədbirlərdə və universitet şənliklərində Firəngiz xanımın yanında əyləşmək ayrı bir zövqdür. Zarafatları ilə ruhumuzu oxşayan Firəngiz xanım "İngilis dili və ədəbiyyatı departamentinin enerji mənbəyidir" desək, yanılmarıq.

Firəngiz xanıma uğurlar arzu edirəm. Həmişə belə şən, gözəl qalmasını diləyirəm. Ad gününüz mübarək olsun, əziz Firəngiz xanım!

**Milana Abbasova,**

*İngilis dili və ədəbiyyatı departamentinin alt proqramlar üzrə koordinatoru*




## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ TİPİİ - DƏ

Mayın 17-də Xəzər Universiteti Təhsil fakültəsinin bir qrup tələbəsi Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda (TİPİİ) oldular. TİPİİ-nun direktoru Vəfa Yaqublu və direktor müavini Nəzakət Mehdiyeva tələbələrlə həmsöhbət olaraq, onlara institutun tarixindən, funksiyasından və layihələrindən danışdılar.

İnstitutun rəhbərliyi tələbələrlə bu görüşü yüksək qiymətləndirdiklərini və bunu Xəzər Universiteti ilə TİPİİ arasında əlaqələrin başlanğıcı olaraq gördüklərini ifadə etdilər.

Azərbaycan təhsil sistemində müasir tendensiyalardan bəhs edən Vəfa Yaqublu tələbələrə maraqlı məlumatlar verərək, onları institutun layihələrinə qoşulmağa dəvət etdi.

Sonda tələbələr də təəssüratlarını bölüşdülər.

## KHAZAR STUDENTS AT INSTITUTE OF PROFESSIONAL DEVELOPMENT OF EDUCATION WORKERS

On May 17, the students of the School of Education attending the course of Class Management were on an excursion in the Institute of Professional Development of Education Workers. Vafa Yagublu, the director of the Institute of Professional Development of Education Workers and deputy director Nezaket Mehdiyeva talked with students, gave information about the history, functions and projects of the institute. The institute administration highly appreciated this excursion and considered it the onset of the relations between Khazar University and the Institute of Professional Development of Education Workers. Vafa Yagublu spoke about the modern trends in the educational system of Azerbaijan and called the students to join their projects.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN ƏMƏKDAŞININ MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin alt proqramlar üzrə koordinatoru Milana Abbasovanın (doktorant) "Anqlisizmlər Azərbaycan Kütləvi İnformasiya vasitələrində" adlı elmi məqaləsi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Dövri Elmi Nəşrlərin çapı üçün tövsiyə edilən, Azərbaycan Dillər Universitetinin "Azərbaycanda xarici dillər" jurnalının 2016-cı il 4-cü buraxılışında çap edilmişdir.

Məqalədə qloballaşan ingilis dilindən, Azərbaycan kütləvi informasiya vasitələrinə anqlisizmin təsirindən, anqlisizmin əksər həyat sferalarında, əsasən də kütləvi informasiya vasitələrindəki yerindən bəhs edilir. Tədqiqatın araşdırma obyekti "525-ci qəzet"dir.





## XALQ YAZIÇISI ÇİNGİZ ABDULLAYEVLƏ GÖRÜŞ

Mayın 18-də Xəzər Universiteti Tələbə Məclisinin tanınmış şəxslərlə görüş planı çərçivəsində görkəmli yazıçı, Azərbaycan Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev ilə görüş keçirildi. Yazıçı yaradıcılıq fəaliyyətinə necə başladığından və qazandığı uğurlardan danışdı, tələbələrin suallarını cavablandırdı.

Görüşdən sonra Çingiz Abdullayev universitetin kitabxanası ilə tanış oldu.





## MEETING WITH NATIONAL WRITER, CHINGIZ ABDULLAYEV

On 18th May, a meeting with Chingiz Abdullayev, famous writer, first secretary of the Union of Azerbaijani Writers, was held at Khazar University within the frame of meeting with famous persons of Khazar University Student Union.

The writer shared his history of successful career and answered students' questions during the meeting. Then, Chingiz Abdullayev familiarised with the library of Khazar University and a footage highlighting memorable moments of library staff was screened.





# XƏZƏR UNİVERSİTETİNDƏ "DİALEKT FESTİVALI"

# "DIALECT FESTIVAL" HELD AT KHAZAR UNIVERSITY

Mayın 17-də Xəzər Universitesinin Mərmər zalında Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru İlahə Qurbanovanın " Dialektologiyaya giriş" fənni üzrə açıq dərs proqramına daxil olan "Dialekt festivalı" keçirildi. Festivalda Şərq, Şimal, Qərb, Cənub, eləcə də, keçid dialekt qrupu olan Lənkəran qrupu təmsil olunurdu. Müəllim İ.Qurbanovanın giriş sözündən sonra hər qrupu təmsil edən tələbələr Azərbaycan dili dialekt və şivələrinin xüsusiyyətlərini əks etdirən məruzə və çıxışlar etdilər, səhnəciklər və videomateriallar göstərdilər, hər dialekt qrupuna məxsus adətləri və kulinariya nümunələrini nümayiş etdirdilər.

On May 17, "Dialectics Festival" was held in the "Marble" hall of Khazar Unversity. The event was organized within the framework of open lesson program on the subject "Introduction to Dialectology" of Ilahe Gurbanova, PhD in philology, instructor of the department of Azerbaijani Language and Literature. East, North, West, South, as well as Lenkeran dialect groups were represented in the festival. After opening speech of Ilahe Gurbanova, students representing each group delivered speeches, performed small scenes and showed videos reflecting the characteristics of dialects and accents of Azerbajani language. They demonstrated samples from customs and traditions and cuisine of each dialect.









H.Bəşirovanın aparıcılığı ilə çox maraqlı keçən tədbirdə Şərq qrupu dialektlərini M.Hüseynova, F.İsgəndərova, S.Mahmudzadə, S.Əliyeva, Ü.Abışova, A.Qədirova, Lənkəran qrupunu T.İbrahimova, Şimal qrupunu M.Məmmədova, F.Qaziyeva, N.Babazadə, Qərb qrupunu H.Bəşirli, N.Möhübbətli, G.Həsənova, N.Məstəliyeva, A.Ömərova, Z.Əliyeva, Cənub qrupunu C.Məmmədov, M.İmanlı, Ü.Cəlalova, G.Dünyamalıyeva təmsil edirdilər.

Tədbirin sonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, bir neçə maraqlı təklif verdi və tədbirin təşkilatçılarına təşəkkür etdi.

Tədbir haqqında mətbuatdan məlumat almaq istəyənlər bu linklərə müraciət edə bilərlər:

*http://xeber365.com/haber-x-z-r-universitetind-dialekt-festivali-kecirilib---ilk-d-f-7559.html;*

*http://axar.az/news/hadise/174174.html*

In the event hosted by H. Bashirova East group was represented by M.Huseynova, F.İsgenderova, S.Mahmudzadeh, S.Aliyeva, U.Abıshova, A.Gadirova and Lankaran group was represented by T.Ibrahimova. M.Mammadova, F.Gaziyeva, N.Babazadeh represented North group and H.Bashirli, N.Mohubbetli, G.Hasanova, N.Mastaliyeva, A.Omerova, Z.Aliyeva represented West group. South group representers were J. Mammadov, M.İmanlı, U.Calalova, G.Dunyamalıyeva.

At the end of the event, Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a speech and gave some interesting suggestions. He expressed his gratitude to the organizers of the event.

Some media outlets published articles about this event. The articles are available at the following links:

*http://xeber365.com/haber-x-z-r-universitetind-dialekt-festivali-kecirilib---ilk-d-f-7559.html;*

*http://axar.az/news/hadise/174174.html*







## AZERBAYCAN'DAKİ NARGİN ADASI ŞEHİTLERİ UNUTULMADI

*Türkmeneli İşbirliyi və Kültür Vəqfinin Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) internet səhifəsində mayın 28-də yerləşdirilmiş "Azerbaycan'daki Nargin adası şehitleri unutulmadı" adlı məqaləni oxucularımıza*

Birinci Dünya Savaşı'nda Rusların işgali sırasında 10 binin üzerinde Türk askerinin esir tutulduğu Hazar Denizindeki Büyük Zire Adası (Nargin adası) ilk kez Türkiye'nin Bakü Büyükelçisi Erkan Özoral ve beraberindekiler tarafından ziyaret edildi.

Azerbaycan Deniz Kuvvetleri'ne ait askeri gemiyle dün gerçekleştirilen ziyarete, Türkiyenin Bakü Büyükelçisi Erkan Özoral, eşi Meltem Özoral, Askeri Ateşe Tuğgeneral Zafer Ocak, Azerbaycan Deniz Kuvvetleri Komutan Yardımcısı Natig Bağırov, Kars Serhat Boyları Derneği Başkanı Muharrem Yıldız, büyükelçilik çalışanları ve basın mensupları katıldı.

Bakü açıklarında sahile yaklaşık 11 kilometre mesafede bulunan adaya giden büyükelçi ve beraberindekileri askeri yetkililer karşıladı. Adadaki yapıları inceleyerek askerlerden bilgi alan Özoral ve beraberindeki grup, yaklaşık 3 kilometre yürüyerek anma noktasına geldi. Duygusal anların yaşandığı alanda şehitler için karanfil bırakılarak, dualar edildi. Öte yandan Kars Serhat Boyları Derneği Başkanı Muharrem Yıldız da Sarıkamış şehitliğine götürmek bölgeden bir miktar toprak aldı.

### BÜYÜKELÇİ ÖZORAL: BİZLERİN TARİHTEN BÜYÜK DERSLER ÇIKARMAMIZ LAZIM

Türkiyenin Bakü Büyükelçisi Erkan Özoral basın mensuplarına burada yaptığı açıklamada, tarihimizin şanlı sayfalarla dolu ama aynı zamanda da Sarıkamış gibi acı yönlerinin de bulunduğunu belirterek, şunları söyledi:

Bundan acı olan da bu acı sayfalarımızı biz yeterince bilmiyoruz. bugün tarihimizin o acı sayfalarının yaşandığı bir yerdeyiz. Burası Hazar denizinin ortasındaki Bakü açıklarındaki Nargin adası. Nargin Adası, 1'nci Dünya Savaşı sırasında Ruslar tarafından Anadolu'dan esir alınan ama özellikle Sarıkamış'ta donarak şehit olmaktan kurtulup da Rusların eline esir düşen askerlerimizin getirilip esir tutuldukları bir kamp. Şu anda da askerlerimizin toplu olarak büyük ihtimalle öldürüldükleri bir sahada bulunuyoruz. Buraya 12 bin ile 20 bin arasında esirin getirildiği söyleniyor. O dönemde esirlerin koşullarının Bakü halkına ulaşmasından sonra tarihimizin en güzel sayfalarından biri yazılmış. Bizlerin tarihten büyük dersler çıkarmamız lazım. Dersi çıkartmak için de neler yaşadığımızı bilmek lazım. Sarıkamış'tan alınan askerlerin buraya getirilmelerini hatta buradan bir kısmının Sibirya'ya götürülmelerini maalesef biz yeterince bilmiyoruz. Özellikle genç kuşakların bu yaşananları öğrenmeleri ve iyice bilmeleri lazım ki biz bir daha bu felaketleri yaşamayalım. Tarihimiz bir daha felaketlere sahne kalmasın şanlı sayfalarla doldurulsun.

### ÖZORAL: AZERBAYCAN'DA BİZİM TARİHİMİZİN ÖNEMLİ BİR PARÇASI GİZLİ

Adadaki hüzün kadar acıyı hafifleten başka yönünün de olduğunu ifade eden Özoral, şöyle devam etti:

"O da buradaki esirlere karşı Azerbaycan halkının göstermiş olduğu misafirperverlik. Adadaki esirlerin durumunun öğrenilmesinden sonra Bakü

halkı, Rus makamları nezdinde ısrarlı girişimlerde bulunuyor. Ondan sonra adaya yiyecek göndermeye başlıyorlar. Esirlere çamaşır getirmeye başlıyorlar. Bir aşamadan sonra onlar için hafta sonu izni almaya başarabiliyorlar. Hafta sonu aldıkları izinlerde de esir askerlerimizi kendi evlerinde yatırıp misafir ediyorlar, yıkıyorlar, temizliyorlar. Bu adadaki esirlerin kurtulmasın için ellerinden ne geliyorsa onlardan esirgemiyorlar. Kendi hayatlarını tehlikeye atıp onların kaçmalarına neden oluyorlar. Bugün gerçekten çok duygusal anlar yaşadık. Herkese nasip olmayacak şeyler gördük. Azerbaycan'da bizim tarihimizin önemli bir parçası gizli. Bunu mutlaka ortaya çıkarmamız lazım. Türkiye ile Azerbaycan halkı birbirini daha fazla, daha sıkı kenetleyip kucaklaması lazım. Türkiye Cumhuriyeti'nin her ferdinin gelip Azerbaycan'ı görmesini yürekten arzu ediyorum. Bizim kardeşliğimiz ancak böyle pekişecek. Ancak bu şekilde Türkiye ile Azerbaycan halkının kardeşi anlamını bulacak. Bugün buraya gelmemizi sağlayan Azerbaycanlı yetkililere şükranlarımı sunuyorum. Hepsine teker teker teşekkür ediyorum.

## YILDIZ: VATANI VE MİLLETİ UĞRUNA ÖLMEYİ ORTAYA KOYAN BİR MİLLET

Kars Serhat Boyları Derneği Başkanı Muharrem Yıldız ise tarihte Sarıkamışın hem savaşının hem de şehitlerinin çok az yer bulduğunu belirterek, Bizim neslimizden saklanıldı Sarıkamış gerçekliği. Sarıkamış'ta sanki bir kahramanlık destan yazılmamış gibi, Türk milletinin benliğinden belki unutturulmak istenilmişti, doğru değildi. Bu doğru değil çünkü orada seve seve ölümü seçmek isteyenler vardı. Soğuğa rağmen, açlığa rağmen bile bile ölüme gitmek vardı. Dünyaya vatanı ve milleti uğruna ölmeyi ortaya koyan bir milletin kahramanlık destanı vardı. Bunu bizden saklamışlardı. Ne yazık ki artık üstü açılıyor Sarıkamışın da Nargindeki bu esirlerimizde. Çünkü biz gençlik olarak yüreğimiz sızlıyordu 90 bin şehit bir mermi atmadan öldü diye oradaki kahramanlık destanına verilen doğru bir kelime değildi dedi.

## YILDA BİR KEZ DE OLSA TÖREN YAPILMALI

Nargin adasını, Sarıkamış'tan gelen askerlerimizin hangi şartlarda yaşadığını ve akıbetinin ne olduğunun iyi bilinmediğini söyleyen Yıldız, Sadece Vehici Hürkuş'un kurtulduğundan dolayı biliyorlar, diğer askerlerimizin akıbetinin ne olduğu bilinmiyordu. Sarıkamış törenlerine benzer ve Sarıkamış törenlerinin öncesinde ya da sonrasında yılda 1 kez de olsa bir anma töreni yapılmasını arzu ediyoruz. Geçen yıl Cumhurbaşkanımızdan bu adada şehitleri anma ile alakalı bir abide olması konusunda bir talebimiz de olmuştu. İnşallah Büyükelçimiz bu işe el koydu. Buraya bize benzer farklı grupların ve derneklerin geldiği olmuştu. Bu ziyaret devletin resmi olarak geldiği bir başlangıç bu çok önemli. Türkiye Cumhuriyeti devleti bu resmi ziyareti yaptı ve başlattı bundan sonra devam edecek diye konuştu.

## YILAN ADASI OLARAK DA BİLİNİYOR

Azerbaycan'ın başkenti Bakü 'nün karşısında, Hazar Denizi'nde bulunan Nargin Adası, 3.1 kilometre uzunluğu ve 900 metre eni ve yaklaşık 900 dekarlık yüzölçümüyle bölgenin en büyük adası. Su kaynağı ile bitki örtüsü bulunmayan ada, yılanlarıyla ünlü. Bu yüzden tarihte Yılan Adası olarak da anılıyor. Rusların uzun yıllar "hapishane ada" olarak kullandığı Nargin'de ilk yapılaşma, 1814'te yapılan bir deniz feneriydi. Nargin Adası, I. Dünya Savaşı sırasında Türkiye ve Azerbaycan arasında trajik olaylara ev sahipliği yapmıştı. Doğu Anadolu'nun Ruslar tarafından işgali sırasında tutuklanan asker ve sivil adada esir olarak tutulmuştu. Esirler açlık, yılan ısırması ve hapishane görevlilerinin işkenceleri nedeni ile ölmüştü. Ayrıca, Türk pilot Vecihi Hürkuş da adada esir tutulanlardan idi ve yöre sakinlerinin yardımları ile kurtulmuştu.

*http://www.milliyet.com.tr/azerbaycan-daki-nargin-adasi-gundem-2458407/*





## PSİXOLOGİYA DEPARTAMENTİNİN MAGİSTRLƏRİ DİSSERTASİYA MÜDAFİƏ ETDİLƏR

Mayın 19-da Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsi Psixologiya departamentinin magistrləri aşağıdakı mövzularda dissertasiya müdafiə etdilər: Günay Məmmədova – "Ağır psixi pozuntusu olan xəstələrin psixososial reabilitasiyasının qiymətləndirilməsi" (elmi rəhbər: tibb e.ü.f.d. Fuad İsmayılov); Günel Məmmədova – "Natamam ailələrdə böyüyən yeniyetmələrdə şəxsiyyət pozuntuları problemi və onların reabilitasiya məsələləri" (elmi rəhbər: fəl.e.ü.f.d. Eldar Şahgəldiyev); Tərlan Qənbərova - "Autizmli uşaqların valideynlərində rast gəlinən psixopatoloji xüsusiyyətlərin aşkarlanması və eksperimental tədqiqi" (elmi rəhbər: tibb e.ü.f.d. İkram Rüstəmov).

Müdafiə şuranın sədri Eldar Şahgəldiyev, üzvləri - Humanitar və sosial elmlər fakültəsinin dekanı, dosent Cabir Xəlilov, AR-nın Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin aparıcı psixoloqu, psixologiya ü.f.d. Ləman Verdiyeva, Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, sosial fəlsəfə üzrə doktorant Mələk Kərimova, Azərbaycan Tibb Universiteti (ATU) Psixiatriya kafedrasının assistenti, ATU-nun Uşaq Psixi Sağlamlıq və İnkişaf Mərkəzində aparıcı mütəxəssis, tibb e.ü.f.d. İkram Rüstəmov və şuranın elmi katibi Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi, german dilləri üzrə doktorant Validə Kərimovanın iştirakı ilə keçdi.

İşlər Müdafiə şurası tərəfindən müsbət qiymətləndirildi.

## NİZAMİ LAYİHƏSİNİN 4 - CÜ GÖRÜŞÜ

Xəzər Universitetinin əməkdaşları - Biologiya departamentinin müdiri Dr. İradə Xəlilova və İnkişaf Mərkəzinin direktoru Raziyə Isayeva mayın 16-19-da Naxçıvan Dövlət Universitetində keçirilən Nizami Erasmus + Kadr Potensialının İnkişafı layihəsi ilə bağlı görüşdə iştirak etdilər. Görüşdə səmərəli müzakirələr aparıldı. Doktorluq təhsilində yüksək standartlar, dissertasiya müdafiəsi, milli idarəetmə portalı, peşəkar bacarıqların inkişafı, əlaqə və keyfiyyət planı haqqında olan təqdimatlar hərtərəfli müzakirə olundu.

Azərbaycanda Milli Erasmus + ofisinin rəhbəri Pərviz Bağırov və onun köməkçisi Aygün Rüstəmli də görüşdə iştirak etdilər və layihənin ilkin qiymətləndirilməsini etdilər.

## 4TH MEETING OF NIZAMI PROJECT

Two representatives of Khazar University – Dr. Irada Khalilova, Head of Biology department, And Raziya Isayeva, Development Director have participated in the next NIZAMI ERASMUS + Capacity Building Project meeting held at Nakhchivan State University on 16-19th of May, 2017. All members of NIZAMI project have participated in the meeting. The meeting was devoted to the discussion of workpackages 2 to 9, and three and a half day of discussions were very intensive and fruitful. Presentation of High Standards in Doctoral Education, Thesis Charter, National Management Portal, Development of Professional Skills, Communication, Quality Plan were discussed in details. Responsible universities for workpackages presented their piece of job and it followed with long discussions.

The head of National ERASMUS + Office in Azerbaijan, Mr. Parviz Bagirov and his assistant Aygun Rustemli have also participated in the first two days of the meeting and held the first monitoring of the project.

## DEPARTAMENT MÜDİRİNİN "ŞƏRQ" QƏZETİNƏ MÜSAHİBƏSİ

Mayın 15-də Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri, dosent Vurğun Əyyubun "Şərq" qəzetinin internet səhifəsi olan sherg.az saytında "Təhsil sisteminə baxış dəyişməlidir" başlıqlı müsahibəsi yayımlanmışdır. Müsahibədə Azərbaycan təhsilindəki nöqsanlar, ölkə ziyalılarının televiziya efirlərinə dəvət olunmamaları, cəmiyyətdəki mədəni aşınmalar, gənclərin kriminala meyllənmə səbəbləri və başqa mövzular ətrafında söhbət açılmışdır.

Müsahibəni bu link vasitəsilə oxumaq olar: *http://www.sherg.az/site/id-31114/*

## INTERVIEW OF KHAZAR`S INSTRUCTOR FOR NEWSPAPER "SHERG"

On May 15, an interview with Vurghun Eyyub, Assocaite Professor, Head of the Department of Azerbaijani Language and Literature, was published on the official website of the newspaper "Sherg" sherg.az. The interview entitled " Attitude toward the educational system is to be changed", covers topics such as shortcomings in the educational system of Azerbaijan, intellectuals' not being invited to the TVs, society 's cultural erosion, the causes of young people's inclination towards crime and so on.

The full version of the interview is available at the following link: *http://www.sherg.az/site/id-31114/*







## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI BEYNƏLXALQ KONFRANSDA

Mayın 22-dən 28-dək Türkiyənin paytaxtı Ankarada Türk Dil Qurumu tərəfindən VIII Beynəlxalq Türk Dili Qurultayı keçirilmişdir. Qurultayda dünyanın müxtəlif ölkələrindən gələn elm adamları ilə yanaşı, Xəzər Universitetinin əməkdaşları da iştirak etmişlər.

Konfransda Xəzər Universitetinin Dillər və mədəniyyətlər departamentinin koodinatoru, dosent əvəzi fil.ü.f.d. Zivər Hüseynli-Baylan "Əfşarlar dönəmi dövlət idarəçiliyində işlənən türkcə terminlər" və həmin departamentin dosenti, i.ü.f.d. Elnurə Əzizova "XX əsrin başlanğıcında Türkiyə və Azərbaycan türkcəsi arasında ortaq dil yaratma cəhdi olaraq "Füyuzat" jurnalı: göstərdiyi təsirlər və aldığı tənqidlər" adlı məruzələrlə çıxış etmişlər.

Qurultayın sonunda məruzəçilərə sertifikat verilmişdir.

## EMPLOYEES OF KHAZAR UNIVERSITY ARE AT THE INTERNATIONAL CONFERENCE

On 22nd – 28th May, the 'VIII International Turkish Language Congress' was organised by the Turkish Language Association, Ankara city, the Republic of Turkey. The employees of Khazar University attended the congress along with the scientists from around the world.

Zilver Huseynli Baylan, the coordinator of the Languages and Cultures Department, acting assisstant professor, Phd in Philology delivered a speech on 'Turkish terms used in public administration during the Afshar period and Elnura Azizova, PhD in Theology made a speech on 'The Fuyuzat journal - as an attempt to create a common language between Turkey and the Azeri Turkish at the beginning of the XX century. The impacts and the criticism'.

The speakers were given certificates at the end of the congress.



# ÇANKIRI KARATEKİN UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ NDU - DA

İyunun 5-də Türkiyə Cümhuriyyəti Çankırı Karatekin Universitetinin 9 nəfərdən ibarət nümayəndə heyəti Erasmus+ layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. Universitetlə yaxından tanış olan qonaqlar ixtisaslaşmış bölmələrdə dərs və treninqlər keçiblər.

İnformasiya sistemləri, Kimya, Türk dili və ədəbiyyatı, Turizm və beynəlxalq münasibətlər ixtisaslarında keçirilən dərslərdə qardaş ölkənin tədris sahəsindəki təcrübəsini bölüşən müəllimlər tələbələri maraqlandıran sualları cavablandırıblar.

Treninqlər keçmək üçün dəvət olunan nümayəndələr isə İnformasiya - kommunikasiya, Mühasibatlıq, Tələbə-məzun və İdman şöbələrində olublar.

İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) bölməsində şəbəkə sistemi, İKT-nin iş strukturu, elektron imtahanın keçirilmə qaydaları ilə bağlı məlumatlar verilib. Qonaqlar universitetin internet resursları və televiziyanın iş prinsipi, onlayn videokonfransların keçirilmə qaydaları ilə yaxından tanış olublar.

Mühasibatlıqda sənəd dövriyyəsi ilə maraqlanan qonaqlar Tələbə-məzun şöbəsində universitetdə həyata keçirilən elektron tədris prosesi haqda məlumat alıblar.

İdman sahəsi üzrə treninq nümayəndəsinə isə universitetin idman kompleksinin iş prinsipi, idman qurğuları, pedaqoji fakültədə mövcud olan idman zalı, idman meydançaları haqda dolğun məlumat verilib.

Universitetlə tanışlıq, keçirilən dərs və treninqlər türkiyəli qonaqlarda NDU haqda xoş təəssürat yaradıb.



# NDU-NUN KOLLEKTİVİ HÜSEYN CAVİDİN XATİRƏ KOMPLEKSİ VƏ EV - MUZEYİNDƏ

İyunun 12-də NDU-nun kollektivi Hüseyn Cavidin Naxçıvan şəhərindəki xatirə kompleksində və ev-muzeyində olub.

Xatirə kompleksini ziyarət zamanı qeyd olunub ki, böyük ədibin xatirəsinin əbədiləşdirilməsində, onun zəngin irsinin qorunub saxlanılmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu, misilsiz xidmətləri olub. 1982-ci ilin noyabr ayında məhz onun təşəbbüsü və böyük qayğısı nəticəsində ölməz şairin nəşi uzaq Sibirdən öz doğma yurduna - Naxçıvan torpağına gətirilib, burada dəfn olunaraq xatirəsi əbədiləşdirilib. 1996-cı ildə ədibin məzarı üzərində əzəmətli məqbərə ucaldılıb.

Görkəmli şair-dramaturq Hüseyn Cavidin ev-muzeyində məlumat verilib ki, bu mədəniyyət müəssisəsi ədibin anadan olmasının 100 illiyi ilə əlaqədar 1982-ci ildə onun yaşadığı evdə yaradılıb. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifi olan Hüseyn Cavid 1919–cu ilə qədər fasilələrlə bu evdə yaşayıb və ölməz, həmişəyaşar əsərlərindən bir neçəsini burada qələmə alıb. Vurğulanıb ki, muzeyin fondunda 9 mindən artıq eksponat qorunub saxlanılır ki, hazırda bu eksponatların 500-ə yaxını ekspozisiyada nümayiş etdirilir.

Müxtəlif fotoşəkillər, ədibin əsərlərinin ilk nəşrləri, üzərində şairin avtoqrafı olan əsərlər, tamaşaya qoyulmuş dram əsərlərinin afişa və proqramları, müxtəlif xatirə və ev əşyaları, şairin oğlu Ərtoğrol Cavidin və qızı Turan xanımın əsərləri, müxtəlif dövrlərdə nəşr olunmuş kitablar Hüseyn Cavidin həyat və yaradıcılığı barədə dolğun təəssürat yaradıb.

Universitetin rektoru muzeyin xatirə dəftərinə ürək sözlərini yazıb, kollektivlə birgə xatirə şəkli çəkdirilib.

Səadət Əliyeva,
NDU-nun Mətbuat şöbəsinin müdiri



# "O ŞEİRİ YAZANDA İÇMƏMİŞDİM, AMMA SONRA İÇDİM"

2017-ci il mayın 27-də *qaynarinfo.az* xəbər saytında Xəzər Universitetinin əməkdaşı Alik Əlioğlunun müsahibəsi yayımlanmışdır. Müsahibəni oxucularımıza təqdim edirik.

*Sosial şəbəkələrdə nə axtardığımı bilmədən, amma nəsə tapacağıma əmin şəkildə axtarışdaydım. Kimin olduğuna diqqət etmədən bir şeiri oxudum. Sonra...*

*"Sonra yağış... Allahın*
*əlləri yerə dəydi,*
*Gərək*
*özü də gələydi..."*

*Hə... o gəlmədən baxdım ki, şeirin müəllifi Alik Əlioğludur. Nə yalan deyim, müsahibəni bəhanə edib, onunla bir az söhbət etmək istədim. Bəlkə də, heç gözləmirdi. Yerini soruşdum və ərinmədən Bakının küləyinə qarışıb düzəldim yola. "Nədən danışacağam, nə sual verəcəyəm?" deyə, bir fikrim də yoxdur. Alik Xəzər Universitetində Elektron Media Mərkəzinin müdiri vəzifəsində çalışır. Universitetin qarşısında salamlaşdıq. Qalxdıq 5-ci mərtəbəyə.*

**Alik:**
- Hə, indi nə danışım?

**- Heç nə. Müsahibə hazırlamağa gəlmişəm. Sual verəcəyəm, danışmağa bir söz taparsan.**
- O zaman, buyur (*gülür*).

**Alik "buyur" deyəndən sonra, yaman ciddiləşdi. İnandırım sizi, üzündəki mimikalar belə tam ciddi görüntüş aldı.**

**- Niyə birdən ciddiləşdin?**

- Yox. Əslində, mənim təbiətim ciddidi. Amma çox qıvraq şəkildə əhvalımı dəyişə bilirəm. Kənar amillərdən asılı olaraq, tez-tez dəyişiklik olur.

*Bəlkə də bu işdə ilk olduğum üçün sualı "hardan verim, necə verim " anlayışını unutdum. Və məni maraqlandıran sualı verdim:*

**- Sosial şəbəkədə şeir paylaşmısan. Yeni şeirdimi?**
- Hə, iki şeir yazmışam. İksini də dünən yazmışam.

**- İçmişdin?**
-(*Gülür*) Yox.. Hə, amma axşam içmişdim. Yəni, şeiri yazandan sonra. Ümumiyyətlə, çox içən deyiləm. İçkili olanda da şeir yazmaq yadıma düşmür. Həmin vaxt başqa halda, başqa aləmdə oluram.

**- Son zamanlar ədəbi mühitdə gözə dəymirsən. Yoxsa ədəbiyyatın daşını atmısan?**

- Əvvəllər ədəbiyyatçılarla çox sıx münasibətim var idi, ədəbi mühitdə çox tez-tez görünürdüm. Çünki müəyyən ədəbi görüşlər təşkil edirdik. Hətta elə olurdu ki, görüşlərin təşkilatçısı mən özüm olurdum. Həm də ilk ədəbiyyat saytlarından birini də mən açmışdım: *Azyazar.com saytı*. Təəssüf ki, sonra öz məsuliyyətsizliyim ucbatından o layihəni davam etdirmədim. Getdikcə rəqabət artmağa başladı. Mən də bu işi öz gücümə edirdim. Sonra maliyyə çatışmazlığından təslim oldum.

Hə, o ki qaldı sualınıza, ədəbi mühitdə niyə görünmürəm? İndi daha çox öz işlərimlə məşğulam. Pul qazanıram (*gülür*). Siz də bilirsiniz ki, Azərbaycanda ədəbiyyatla pul qazanmaq bəlkə də mümkündür, amma ən azından mən yazdığım tərzdə, məsələn, sərbəst şeirlə, xırda esselərlə oxucu toplamaq o qədər də real məsələ deyil. Mənim və mənim kimi ruhən poeziyaya yaxın olan adamların, siz də bilirsiniz ki, sayıla biləcək qədər oxucusu var və bu oxucularla pul qazanmaq qeyri-mümkündür.

**Alikin iki kitabı var. Amma ikinci kitab birincinin təkrarıdı. İlk kitabın yaxşı tərtib olunmaması və dizayn cəhətdən də zəif olmasına görə ikinci kitab nəşr olunub.**

- Qismətin və Yaradıcılıq Fondunun sayəsində ikinci kitabı çıxarmışıq. Onların bu kitab siyasətini çox dəstəkləyirəm. Xüsusən də, son vaxtlar gənclərə kitab çıxartdırmaqda yardım edirlər, bu əla təşəbbüsdür. Son çıxartdıqları kitab Mövlud Mövludun xatirəsinə həsr olunub. Çox yaxşı işdir. Yeri gəlmişkən, axşam bir söz-söhbətin şahidi oldum. Söz-söhbət dediyimiz də ki, gənc şairimiz Şəhriyar Del Geraninin Mövlud Mövludun xatirəsinə çıxarılmış kitab və kitab təqdimatı ilə bağlı sosial şəbəkədə paylaşdığı fikirdir. Mövzudan bixəbər olanlar üçün paylaşımı təqdim edim:

*"Mövludun kitabının çıxması yaxşı hadisədir. Təbrik edirəm hamımızı. Amma eşitdim təqdimat günü kitaba qiymət qoyulmayacaq. Çox pis. Yəni "bax da, sən canın, yetim uşağı qalıb özündən sonra, nə verirsən ver, gör nağayrırsan" janrında. Hətta uşağın adına bank hesabı-zad da açılıb. Təəssüf. Bu nə yazıqlıq, bu nə duyğu sömürüsü? Nolub, a yoldaşlar? Niyə o uşağın boynuna bu boyda ictimai minnət qoyursunuz? Guya o hesaba başsadağası 5-10 manat yığılmasa, o uşaq böyüməyəcək imiş. Hansı ki, Mövlud o boyda əzəmətli ölümü ilə məhz bu kimi şeylərə etiraz etmişdi həm də. Nədənsə "bədbəx oğlu bədbəxin" o boyda tarana getməsi də urvatsız oldu. Səd-əfsus! Biz cəmiyyət olaraq şairi, yazıçını nəinki şair-yazıçı kimi yaşamağa, heç şair-yazıçı kimi ölməyə də qoymuruq. Aman vermirik bir urvatlı ədəbiyyat, həyat faktı olsun ortada. Çox güman bütün bunlardan sonra Mövlud özünü bir də öldürəcək...*

*P.S. Mən bunları inboxlara da yaza bilərdim, pıçıldaya da bilərdim. Yaxud, ümumiyyətlə susa bilərdim, bu mövzuda. Etmədim. Nədən ki, belə lazımdı. Ümumiyyətlə, yazıqlıq modundan çıxmaq gərək. Bəsdirin mən ölüm!"*

**- Paylaşımdan mənim də xəbərim var. Səncə, Şəhriyarın yanaşması səhvdir?**

- Əslində, Şəhriyarın canfəşanlığını, o cür münasibət göstərməyini hardasa başa düşürəm. O başqa prizmadan yanaşır. Amma dostlarımızın... Təbii ki, hamısı dostlarımızdı. Hamısı ilə də yaxşı münasibətlərim var. Heç biri də Mövlud üçün pis bir şey demir. Bəziləri kitab çıxarır, o biri də nə üçün kitaba qiymət qoyulmamasını tənqid edir. Bu da bir az kimdənsə pul ummaq anlamına gəldiyi üçün yaxşı qarşılanmır. Amma, fərqi yoxdur. Mahiyyət etibarilə ikisi də Mövlud üçün danışırlar. Şəhriyarla nəyə görə razı deyiləm, Yaradıcılıq Fondu fikirləşib ki, tutaq ki, mənim imkanım yoxdur. Bir manatım var və fikirləşirəm ki, kaş kitab bir manat olardı və mən də kitabı ala bilərdim. Bəlkə də Mövludun oğlunun bu pula ehtiyacı yoxdur. Amma düzünə qalsa, bu çox yaxşı bir haldı. Və bizim də, az da olsa, köməyimiz toxunacaqsa, nə xoş bizə.

**- Mövzudan mövzuya keçidlər edirik. Deyirəm bəlkə bizə ədəbi mühitdə bəyəndiyin yazarlardan danışasan?**

- Bu suala heç vaxt özlüyümdə cavab tapa bilməmişəm. Bilirsinizmi, ədəbiyyat at yarışları deyil. Tutaq ki, hansısa at qabağa gedir və sən görürsən ki, o at qabaqdadır. Ədəbiyyat zövq məsələsidir. Ona görə heç vaxt bu barədə düşünməmişəm. Çox maraqlıdır ki, bizdən iki nəsil qabaq yazanlardan çox maraqlı imzalar yarandı. Bizdən əvvəl və bizim nəsildə də maraqlı yazarlar var. Bizdən sonranı hələ ki, anlaya bilmirəm. Onlar lap balacadılar hələ (*gülür*).

**- Neçə yaşınız var?**

- 29 olub (*yenə gülür*). Görürsən, çox mənasız alınır cavablarım.

**- Elə demə, hər şey yaxıdı. Sən ondansa ad çək görək...**

- Ad çəkim də. Qismət. Qismətlə biz, demək olar ki, ədəbiyyata çiyin-çiyinə başlamışıq. Bayaq dediyim sayt bizi dostlaşdırıb. Həm də "İrəli ədəbi gənclik təşkilatı" var idi. Elə ordan nə qədər istedadlı gənclər çıxdı üzə. Zərdüşt var idi. Çox təəssüf ki, bizim nəsildən olan gənc istedadlardan bəziləri həyatlarını erkən itirdilər. Onlar, demək olar ki, ən istedadlı imzalar idi. Yəqin ki, talelərı elə gətirdi. Sonra Fərhad Mete var idi. Fərhad çox maraqlı şair idi. Demək olar ki, onun bütün şeirlərini bilirəm. Çox yazan deyildi. Aysel Əlizadəni də bəyənirəm. İndi bəlkə də çoxusu yadıma düşmür.

**- Düşünürəm ki, yaxşı şeir indi yox, 50 ildən sonra nə qalacaqsa odur. Yəni, 50 il uzaqdan dayanıb baxanda indi baş verən ədəbi prosesləri müzakirə edəndə bir dəyişiklik olacaqmı?**

- Mənə elə gəlir ki, ayrı-ayrılıqda istər nəsr olsun, istərsə də poeziyada iz buraxacaq imzalar olacaq.

**- Bir də oxucuların şairə çevrilmək məsələsinə necə baxırsınız?**

- Sözün açığını deyim ki, bizim dostlar, söhbət yazarlardan gedir, tort və ya müxtəlif hədiyyələr paylaşırlar ki, oxucularım göndərib. Bir az səmimiyyətlərinə inanmıram. Bəlkə də mən ədəbiyyatdan uzaq olduğum üçün bu cür hallarla qarşılaşmıram.

**- Son oxuduğunuz kitab hansıdır?**

- Son zamanlar klassiklərin kitablarını oxumu-

ram. Müasir yazarlarımız sağ olsun, gündə bir kitab çıxarırlar. Təqdimatlar toy məclisinə dönüb. Hələ onları oxuyub çatdıra bilmirəm. Əslində, kitab oxumağa da çox vaxt ayıra bilmirəm. Mən veb masterəm. Bu da o deməkdir ki, sayt yaradıram. Hazırda bir neçə saytı birdən işlədirəm. Ona görə də vaxtım çatmır ədəbiyyatla məşğul olmağa.

**- Bu o deməkdir ki, yaradıcılıq ikinci plandadır?**

- Bəlkə də başqa yerdə yaşasaydıq, belə olmazdı. Harda ki, ədəbiyyata çox böyük diqqət yetirirlər. Çox uzağa getmirəm, elə götürək Gürcüstanı. Orda ədəbiyyata çox böyük maraq var. Oxucuların sayı çoxdur. Orda yaxşı bir kitabla, elə satılan kitabların gəliri ilə yaşamaq mümkündür. Amma Azərbaycanda kitabını satmaq olar? O dərəcədə satılmır axı, sən o pulla özünü təmin edəsən. Elə bəlkə də bunlara görə ədəbiyyatdan uzaqlaşdım ki, pul qazanım. Yaşamaq üçün pul qazanmaq lazımdır. Ümumiyyətlə, deyim ki, ədəbiyyatda tənqid mənə çatmır. Söhbət ciddi ədəbi tənqiddən getmir. Şəxsi tənqiddən gedir. Məsələn, bir də görürüsən kimsə o birisinin bığına, saqqalına sataşır. Bu mənə çatmır (*gülür*).

**- Ola bilər ki, ciddi əsərlər olmadığı üçün belə şəxsi tənqidlərlə gündəmdə qalmaq istəyən insanlar var?**

- Yəqin ki. Tənqid edən o adamlardır ki, əsərdən ciddi ədəbi səhvlər tapa bilmir. Başlayır boş-boş şəxsi tənqidə. Bu, paxıllıqdan irəli gəlir.

**- Sizcə, cəmiyyətdəki durğunluq ciddi əsərlərin yaranmamasına səbəb ola bilər?**

- Yox, düşünmürəm ki, bu həmin durğunluqla bağlı bir şeydi. İndi internet dövrüdü. Dünyada o qədər proses baş verir ki, bu prosesləri vizual olaraq müşahidə etmək olar.

**- Görməklə yaşantı arasınada fərq var axı...**

- Siz elə düşünürsünüz ki, böyük yazıçılar çətin həyat yaşayıb?

**- Bəli. Hətta elə düşünürəm ki, o cür yazıçıların ən yaxşıları müharibə görüb, öldürmək hissi ilə üz-üzə qalıblar. Yenə deyirəm ölmək yox, öldürmək hissi ilə. Bu da o deməkdir ki, o cür insanlar mənəvi cəhətdən daha böyük insanlardı. Və bir də üstünə istedadları varsa, yaradacaqlar. Amma indi istedad var, hadisə yoxdur elə bil. Ya da biz görə bilmirik o hadisəni.**

- Razıyam. Müharibə görmüş adamın istedadı varsa, daha yaxşı yazacaq. Razı deyiləm ki, yaxşı yazıçı olmaq üçün ağır həyat yaşamaq lazımdır. İnsana təsir edəcəksə, elə itin də, pişiyin də ölümü təsir edir.

**- Niyə bizim yazarlarda Qərbə qaçma meyli var? Yazarlarımız bizim məişətimizi müşahidə edə bilmirlər?**

- Yəqin ki, daha uğurlu əsərləri Qərbdə görürlər. Elə düşünürlər ki, onlar da həmin mövzularda yazsalar, daha yaxşı əsər ərsəyə gətirəcəklər.

**- Ən yaxşı oxucun kimdir?**

- Anam. Özü yazmasa da, həm Azərbaycan, həm də dünya ədəbiyyatını yaxından izləyir. Onun zövqünə çox güvənirəm. Olur ki, yazıram və özüm yazdığım üçün də çox bəyənirəm. Anam - ilk oxucum olaraq şeirimi ilk təhlil edən odur. Əgər o bəyənirsə, deməli ki, şeir alınıb.

**- Alik, təşəkkür edirəm, amma nəzərə al ki, mən bu danışılanları yazılı hala da salmalıyam.**

**Beləliklə, əziz oxucular, yarımçıq sitatın sonu. Şairin yeni şeirini sizə təqdim edirik:**

Sonra
Deməli, o günləri
Çıxıb getdi e hamı...
Ay sağol,
Çərşənbə axşamı...
İlk dəfə siqaret yandırdım
Qırmızı-ağ var e, bax o...
Doğrudur,
"Marlboro"...
Əlimə bir qədəh aldım,
Öz-özümə dedim, vuraq...
Haqlısan,
Araq...
Könlümə musiqi düşdü,
Gözəl qadın var aa,
Ay sağol,
Madonna...
Sonra yağış... Allahın
əlləri yerə dəydi,
Gərək
özü də gələydi...
Sonda bir az kədərləndim.
Səbəb bilirsən nədi?
Yox e,
Heç kəs gəlmədi...

**Lalə Niftaliyeva**
*Qaynarinfo.Az*
*27-05-2017*

*http://az.qaynarinfo.az/news/shownews/114554-"o-seiri-yazanda-icmemisdim-amma-sonra-icdim".html*



## AMERİKADA TƏHSİLLƏ BAĞLI TƏQDİMAT



Mayın 18-də beynəlxalq maliyyə üzrə professor, PhD proqram direktoru Dr. C. Bulent Aybar və Amerikada təhsil üzrə məsləhətçi Leyla Həmidova Amerika Birləşmiş Ştatlarında ali təhsil almaq mövzüsunda təqdimat keçirdilər.

Xəzər Universitetində keçirilən təqdimatda universitetin bakalavr və magistr tələbələri, İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri iştirak edirdilər.

Dr. C. Bulent Aybar və Leyla Həmidova iştirakçılara Amerika təhsil sistemi haqqında məlumat verdilər və Amerikada magistr və Phd dərəcələri almaq üçün olan imkanlardan danışdılar.

Təqdimatdan sonra tələbələri maraqlandıran suallar əsasında müzakirə aparıldı.

## PRESENTATION ON EDUCATION IN AMERICA HELD

On 18 May, Dr. C. Bulent Aybar, Professor of International Finance, Ph.d. Program Director and Leyla Hamidova, Education USA Adviser visited Khazar University to deliver a presentation on the Higher Education in the USA. BA and MA students of Khazar University and some members of English language and literature department participated in the meeting. Leyla Hamidova provided the participants with detailed information about the US education system and spoke about the opportunities to apply for an MA and PhD degrees in the USA. The presentation was followed by discussions regarding the tuition fee, accommodation and challenges usually faced by the students during their studies in the US. Overall, the meeting was very beneficial and both the quests and the participants were pleased.










# MÜƏLLİM VƏ TƏLƏBƏLƏR QOBUSTANDA

Mayın 21-də Xəzər Universitetinin Təhsil fakültəsinin müəllim və tələbələri Azərbaycanın və dünyanın nadir tarixi - mədəniyyət abidə kompleksi olan Qobustana yollandılar. Səfər Tarix və arxeologiya departamentinin müdiri Roza Arazovanın dəstəyi və departamentin müəllimi Orxan Zamanovun təşəbbüsü ilə baş tutdu.

Səfərin məqsədi universitetin birinci kurs tarix müəllimliyi ixtisası tələbələrinin dünyagörüşünü genişləndirmək, biliklərini artırmaq və Azərbaycanın maddi-mədəni irsi ilə bilavasitə yaxından tanışlığını təmin etmək idi. Məqsəd, eyni zamanda, imtahan ərəfəsində tələbə və müəllimlərin birgə istirahətini təşkil etmək və qarşılıqlı fikir mübadiləsinə imkan yaratmaq idi.

Tələbələrə Böyükdaş dağında qədim mağaralar, qayaüstü təsvirlər, ibtidai insanın ocaq və yaşayış yeri, landşaftın özünəməxsusluğu nümayiş olundu. Sonra isə xüsusi olaraq yeni yaradılmış interaktiv muzeydə bələdçi tərəfindən dünya və Azərbaycanın petroqlifləri, onların öyrənilməsi və coğrafiyası, bölgənin qədim iqlimi və landşaftı, fauna və florası, ibtidai insanın fəaliyyəti və yaşamı haqqında geniş ekskursiya təşkil olundu.

Səfər qısa istirahət və əyləncəli oyunlarla başa çatdı.





# TEACHERS AND STUDENTS VISIT GOBUSTAN

On May 21, the teachers and students of the School of Education visited Gobustan- the cultural-historical monumental complex of Azerbaijan and the world. The visit was organized with Roza Arazova's support Head of the Department of History and Archaeology, and Orkhan Zamanov's initiative, the teacher of the department. The purpose of the visit was to develop the outlook and historical knowledge of the 1st year students majoring in History Teaching and provide their direct acquaintance with intangible cultural heritage of Azerbaijan, to organize effective recreation of teachers and students before the examinations and create opportunity for idea exchange.

The ancient caves of Boyukdash mountain, rock paintings, the bonfire and habitaion of ancient people, the uniqueness of the landscape were demonstrated to the students of Khazar University. Later, an extensive excursion to the newly created interactive museum was organized by the museum guide to provide information about petroglyphs of Azerbaijan and the world, their study and geography, the ancient climate and lanscape, the fauna and flora of the territory, the activity and life of the ancient people. The visit concluded with the short break time and entertaining games.






## DOSENT ELNURƏ ƏZİZOVA BEYNƏLXALQ SİMPOZİUMDA

Xəzər Universitetinin Dillər və mədəniyyətlər departamentinin müdiri dosent Elnurə Əzizova İstanbulda 29 Mayıs Universitetində mayın 19-21-də keçirilən "Osmanlı İstanbulu - V Beynəlxalq simpoziumu"nda "Konstantinopolisin işğalından İstanbulun fəthinə: milli-dini kimlik zəminində sovet və post-sovet Rusiya və Azərbaycan tarixçiliyində İstanbulun fəthinə baxışdakı dəyişiklik" adlı məruzə ilə çıxış etdi.

## KPMG - AZƏRBAYCAN ŞİRKƏTİ "XƏZƏR"DƏ

KPMG-Azərbaycan şirkəti mayın 22-də Xəzər Universitetinin "Neftçilər" kampusunda Karyera Günü keçirdi.

Karyera Günündə maliyyə, mühasibat uçotu və audit, biznesin idarə edilməsi ixtisasları üzrə təhsil alan sonuncu kurs tələbələri KPMG-Azərbaycanın audit və vergi departamentlərindəki vakansiyalar üçün onlayn rəqəmsal və məntiq testində iştirak etdilər.

## KPMG - AZERBAIJAN AT KHAZAR UNIVERSITY

On may 22, KPMG-Azerbaijan held a Career day at "Neftchiler" compus of Khazar University. Senior year students majoring in finance, accounting and audit, business management took part in the online digital and logic testing for vacancies of Audit and Tax Department of KPMG Azerbaijan. The results of the online testing which were the first step of the recruitment process were announced immediately.

## "İŞ AXTARMAQ QAYDALARI" MÖVZUSUNDA TƏLİM





Mayın 22-də Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin tələbələri üçün "İş axtarmaq qaydaları" mövzusunda təlim keçirildi. Təlim Xəzər Universitetinin müəllimi və İnformasiya sistemləri şöbəsinin əməkdaşı Rəşad Xalıqov tərəfindən aparıldı. İş təcrübəsi olmayan tələbələrə bu yolda yardımçı olmaq üçün yaratdığı stajer.az/ platformasından danışan Rəşad Xalıqov işə müraciət zamanı tələbələrin riayət etməli olduqları qaydaları da izah etdi.

Qeyd edək ki, təlim Siyasi elm və beynəlxalq münasibətlər departamenti tərəfindən təşkil olunan 10 həftəlik Məşğulluq və İşgüzar Bacarıqlar Proqramı çərçivəsində keçirildi.

## "XƏZƏR"İN VOKAL MÜƏLLİMİ "DALĞA" AŞIQLAR QRUPUNUN KONSERTİNDƏ



Mayın 24-də Heydər Əliyev adına Sarayda Çingiz Mehdipurun rəhbərlik etdiyi "Dalğa" aşıqlar qrupunun konserti oldu. Təbrizdən gəlmiş qrupun konsertində Azərbaycan aşıqları Nabi Nağıyev və Əli Zeynalabdinov, müğənnilər Ayşən Mehdiyeva və Xəzər Universitetinin vokal müəllimi, Müslüm Maqomayev adına Dövlət Filarmoniyasının solisti, beynəlxalq müsabiqələr laureatı Məhsəti Cabbarova (Azaflı) da iştirak etmişlər.

Məhsəti Cabbarovanın (Azaflı) ifasında "Laçını Koroğlu" və "Bayramı" aşıq havaları səslənmişdir. O, Azərbaycan aşıq sənətində ilk dəfə olaraq "Bayramı" aşıq havasını akademik üslubda, obrazlı ifa tərzində tamaşaçılara təqdim etmişdir.

Konsert tamaşaçıların sürəkli alqışları ilə qarşılanmışdır.

## DOSENT VURĞUN ƏYYUBUN KİTABI ÇAPDAN ÇIXIB




Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri dosent Vurğun Əyyubun "Azərbaycan romantizmini araşdırarkən…" adlı kitabı "Elm və təhsil" nəşriyyatında çapdan çıxmışdır. Kitaba müəllifin "Azərbaycan romantiklərinin yaradıcılığında vətəndaşlıq lirikası (1905-1920-ci illər)" adlı tədqiqatı, Azərbaycan ədəbiyyatında romantizm və romantikanın problemlərinə işıq salan müxtəlif illərdə yazılmış məqalələr daxildir.

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ YAYIMLANIB

İyunun 2-də Xəzər Universitetinin dosenti, Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyubun "Hekayə təhlilləri" silsiləsindən yazıçı Nəriman Əbdülrəhmanlının "Qapı" hekayəsinin təhlilinə həsr olunmuş məqaləsi xeber365.com saytında yayımlanmışdır.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*http://xeber365.com/haber-n.-bdulr-hmanlinin-qapi-si-onund-dusunc-l-r-7932.html*



# AZƏRBAYCAN - İRAN ƏLAQƏLƏRİNDƏ XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU MƏSƏLƏSİ

**Xaqan Balayev**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, Xəzər Universitetinin müəllimi*

Azərbaycan - İran münasibətlərinə mənfi təsir edən və hələ də həllini tapmamış problemlərdən biri Xəzərin hüquqi statusu məsələsi ilə bağlıdır. Bu problemin meydana çıxmasının əsas səbəbi keçən əsrin 90-cı illərində Avrasiyanın geosiyasi konfiqurasiyasında baş vermiş ciddi dəyişikliklərlə əlaqədar olmuşdur. Sovet imperiyasının süqutu Xəzəryanı bölgədə də geosiyasi faktorlar nisbətinin dəyişməsi ilə nəticələnmiş, dənizin delimitasiya edilməsi məsələsini (dənizin dibinin və səthinin bölünməsinin dövlətlərarası sazişlə təsdiqlənməsi) aktuallaşdırmışdı. Böyük tarixi dövr ərzində Xəzərə nəzarət iki dövlətə - Rusiya və İrana (əsas etibarilə Rusiyaya) məxsus idisə, indi dənizətrafı dövlətlərin sayı beşə çatmışdı; Azərbaycan, Türkmənistan və Qazaxıstanın da artıq öz payı olmalı idi. Yeni geosiyasi reallığın yaranması ilə dəniz sərhədlərinin demarkasiyası məsələsi zərurətə çevrilmişdi.

Azərbaycan Rusiya və Qazaxıstanla bu barədə razılığa gələ bilsə də (hər iki ölkə ilə dəniz sərhədləri dəqiqləşdirilmiş, konkret müqavilələr imzalanmışdır), İran və Türkmənistanla problemin həllində gərginlik özünü büruzə vermişdir. Qeyd edilən dövlətlərin problemin aradan qaldırılması ilə bağlı tutduqları qeyri-konstruktiv mövqe danışıqlar prosesinin uzanması ilə nəticələnmiş, dövlətlərarası dialoqun bu gün də davam etməsinə səbəb olmuşdur.

Mütəxəssislər İranın Xəzər hövzəsindəki strateji maraqlarının siyasi xarakteristikasını bu formada verirlər:

"1. Mərkəzi Asiya və Cənubi Qafqaz dövlətlərində sabitliyi, təhlükəsizliyi dəstəkləməklə və islam dininin təsirini gücləndirməklə özünün şimal bölgəsi və Xəzər dənizi üzrə sərhədlərinin təhlükəsizliyini və dayanıqlığını təmin etmək;

2. Beynəlxalq təcriddən çıxmaq siyasəti çərçivəsində region dövlətləri ilə qarşılıqlı münasibətləri qaydaya salmaq;

3. Bölgələrin, kənar dövlətlərin və hərbi blokların Xəzərə daxil olmasının qarşısını almaq"(2, s. 45).

Göründüyü kimi, İranın bu geostrateji siyasəti və məsələyə yanaşma konsepsiyası Xəzərdə öz dominantlığının (Rusiya ilə bərabər) təmin olunmasına yönəlmişdi. Xüsusilə nəzərə alsaq ki, iki yüz ilə yaxın bir müddət ərzində (XIX əsrin əvvəllərində Çar Rusiyası ilə İran arasında imzalanmış Gülüstan (1813) və Türkmənçay (1828) sazişlərinə görə Xəzərdə hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus idi, sonrakı dövrlərdə də Rusiyanın dənizdə hakim mövqeyi qorunub saxlanılmış və yalnız SSRİ-nin dağılması nəticəsində Rusiya Xəzərə öz daxili dənizi kimi baxmaqdan imtina etmişdi) Xəzər dənizi Rusiyanın hegemon nəzarətində olmuş, İranın bu hövzədə nüfuzu isə xeyli dərəcədə məhdudlaşdırılmışdı. Buna görə yeni yaranmış geosiyasi şəraitdən dəyərlənməyi İran tarixən itirdiyi mövqelərin kompensasiyası kimi qiymətləndirmiş, nüfuzlu dəniz dövləti kimi statusunun bərpasına çalışmışdır.

İrandan fərqli olaraq Azərbaycan Xəzər dənizinin yeni konfiqurasiyasının formalaşdırılması prosesində beynəlxalq tərəfdaşlıq qaydalarına riayət etmiş, bu kontekstə uyğun problemin həllində sektor bölgüsü mexanizmini əsaslandıraraq, məsələnin nizamlanması istiqamətində bu prinsipin qəbul olunmasını təklif etmişdir. Bu yanaşmaya görə, Xəzər dənizi "sərhəd gölü" kimi qəbul edilərək, orta xətt prinsipi üzrə bölünməli, hər bir dənizətrafı dövlət sahil xəttinə uyğun formada öz sektoruna nəzarət etməli idi. Lakin İran buna etirazını bildirmiş, "milli sektorlar" strukturlaşmasını qəbul etməmişdir. İran tərəfinin mövqeyinə görə, bölgünün bu formada aparılması ABŞ-ın Qafqaz və Mərkəzi Asiya regionunda güclənməsinə şərait yarada bilərdi. Professor Əli Həsənov qonşu respublikanın bu mövqeyi ilə bağlı qeyd edir ki, "İran Birləşmiş Ştatların regionda yeritdiyi siyasətə qarşı birmənalı şəkildə sərt mövqe tutan yeganə dövlətdir. Tehran Cənubi Qafqaz, Xəzər hövzəsi və Orta Asiyadakı nisbi sabitliyə əsas təhlükəni ABŞ-ın siyasəti ilə bağlayır və bu ölkənin hərbi və siyasi nüfuzunun möhkəmlənməsini təhlükəli sayır"(3, s. 569).

Alternativ olaraq respublikamız tərəfindən tək-

lif edilən "açıq dəniz" prinsipi də (bu müddəaya görə hər bir xəzəryanı dövlət 12 mil ərazi sularına və 200 mil iqtisadi zonaya sahib ola bilərdi) İran tərəfindən qəbul edilməmişdir. İran özü tərəfindən irəli sürülmüş bölgü prinsipini ədalətli hesab edərək, Xəzərin yeni hüquqi statusu müəyyənləşdirilərkən, dənizin bölgüsündə 20% pay onun ixtiyarında olmalı idi. Beləliklə, İran öz bölgü prinsipində israrlı olduğunu nümayiş etdirmiş, digər konstruktiv təklifləri mənafeyinə zidd faktor kimi dəyərləndirmişdir.

Eyni zamanda, İran dənizin statusu məsələsi ilə əlaqədar ayrı-ayrı dövlətlər arasında imzalanmış müqavilələri qəbul etməyərək (bu ölkənin rəsmiləri Azərbaycan Respublikasının Rusiya Federasiyası və Qazaxıstanla imzaladığı (2001) Xəzər dənizinin dibinin milli sektorlar əsasında bölüşdürülməsi və Xəzərin hüquqi statusuna dair sazişləri tanımırlar) bütün Xəzəryanı dövlətlərin iştirakı ilə müştərək müqavilənin imzalanmasını öz mövqeyi kimi bəyan etmişdir. Göründüyü kimi, problemin həllinə İranın belə siyasi prizmadan yanaşması məsələnin həllinə nəinki xidmət etməmiş, əksinə, onun dondurulmuş formada qalmasını təmin etmişdir.

Geosiyasi planda problemin nizamlanmaması geoiqtisadi müstəvidə də respublikamız üçün əlavə maneələr yaratmış, bir sıra hallarda xarici ölkə şirkətləri ilə sazişlərin imzalanmasını çətinləşdirmiş, hətta bəzi iqtisadi təsisatların Xəzərə sərmayə qoyuluşundan imtina etməsinə səbəb olmuşdu.

Məhz İran tərəfinin qərəzli siyasətinə görə bu kontekstdə 2000-2001-ci illərdə Xəzər dənizində insidentlər baş vermişdi. Problemin eskalasiya olunmasını istəməyən respublikamız məsələnin nizamlanması üçün siyasi dialoqa üstünlük vermişdi. Xüsusilə beynəlxalq aləmdə ABŞ və Türkiyənin Azərbaycanı müdafiə edərək, İrana qarşı sərt bəyanatlar verməsi, bu dövləti tutduğu konfliktogen mövqedən çəkindirmiş, məsələnin danışıqlar yolu ilə nizamlanmasına vadar etmişdi.

Hətta Türkiyə problemin dərinləşəcəyi təqdirdə, İranla silahlı münaqişəyə gedəcəyini də bildirmişdi. Bütün bu faktorlar (beynəlxalq təzyiqlər, respublikamızın dənizin statusu məsələsində prinsipial mövqeyi) İranın güc tətbiqetmə siyasətindən çəkindirmiş, Xəzər dənizində vəziyyətin tədricən stabilləşməsinə səbəb olmuşdu. Eyni zamanda, bu proseslər İran rəsmilərinə göstərmişdi ki, Xəzər dənizindəki mövcud problemlər artıq regional xarakterli deyil (sovet dönəmində və SSRİ-nin süqutundan sonrakı ilk illərdə olduğu kimi), böyük dövlətlər də buradakı geosiyasi vəziyyətin ədalətli konfiqurasiyasında maraqlıdırlar və istənilən zorakı aksiya beynəlxalq səciyyə daşıyaraq, nüfuzlu dünya dövlətlərinin sərt reaksiyası ilə qarşılanacaq.

Digər tərəfdən, sonrakı illərdə beynəlxalq geosiyasi strukturlaşmada baş vermiş mühüm dəyişikliklər, Əfqanıstan və İraqın NATO qoşunları tərəfindən işğal edilməsi, Türkiyə, Pakistan və Fars körfəzində ABŞ ordusunun mövcudluğu İranı Xəzər dənizindəki problemlərin həllində daha ehtiyatlı davranmağa məcbur etmiş, Azərbaycanla əlaqələrinə siyasi dialoq müstəvisindən yanaşmasını zəruri etmişdir.

Sonrakı illərdə də Azərbaycanla İran arasında bütün dənizətrafı dövlətlərin iştirakı ilə (Xəzəryanı ölkə rəhbərlərinin I sammiti 2002-ci ildə Aşqabadda, II sammiti 2007-ci ildə Tehranda, III sammiti 2010-cu ildə Bakıda, IV sammiti 2014-cü ildə Həştərxanda keçirilmişdir) Xəzərin statusu ilə bağlı danışıqlar davam etdirilmiş, qarşılıqlı fəaliyyətin əsas məsələləri müzakirə edilmiş, lakin yekun nəticə əldə olunmamışdır. İran öz mövqeyini dəyişdirməmiş, məsələnin həllinə özünəməxsus kontekstdən yanaşmaqda davam etmişdir. Bu formata uyğun 2014-cü ilin aprelində keçirilmiş Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin görüşündə İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin bəyanatı maraqlıdır; o bildirmişdi ki, "İranın Xəzərin statusu ilə bağlı mövqeyi dəyişməyib, hesab edirik belə dəyişikliyə ehtiyac da yoxdur. Tehran Xəzərdə sahilyanı dövlətlərdən başqa hər hansı ölkənin silahlı qüvvələrinin mövcudluğunu yolverilməz sayır. Təəssüf ki, bəzi qeyri-regional oyunçular Xəzərə yalnız neft və qaz mənbəyi kimi baxır və ekologiyanı unudur. İran hesab edir ki, Xəzərlə bağlı məsələlərin həlli üçün hərtərəfli uzunmüddətli, kollektiv maraqları təmin edən addımlar atılmalıdır"(1, s. 33-34). İran rəsmisinin bu bəyanatı bir daha göstərir ki, qonşu dövlət öz konsepsiyasında və müddəalarında israrlıdır.

Ümumi mənzərəyə diqqət yetirdikdə görürük ki, dənizətrafı dövlətlərdən üçü (Azərbaycan, Rusiya, Qazaxıstan) vahid siyasət yeridərək, Xəzər dənizinin orta xəttinin müəyyənləşdirilməsi və onun sektorlara bölünməsinin bir metodunu, iki dövlət isə (İran və Türkmənistan) başqa metodunu təklif edir.

Xəzəryanı dövlətlərin xarici işlər nazirləri müavinlərinin bu il mayın 1-2-də Aşqabadda keçirilmiş iclasından sonra Xəzərin statusu haqqında konvensiyanın bəzi müddəalarının razılaşdırılması haqqında rəsmi məlumatın yayılması müsbət haldır. Bununla belə, Xəzər dənizinin statusu ilə bağlı konvensiyanın yaxın gələcəkdə imzalanması real görünmür. Bu fonda dövlətlərarası dialoqun davam etdirilməsi daim gündəmdədir.

## Ədəbiyyat


1. *Aslanlı A. Geosiyasi rəqabət və geoiqtisadi maraqlar zəminində Xəzər Hövzəsinin "Qordi Düyünü". Bakı: 2014*
2. *Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: 2011*
3. *Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti", Bakı, 2005*




## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI BEYNƏLXALQ KONFRANSDA

Mayın 13-də Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova Türkiyənin Çanaqqala şəhərində Rating Academia və Kəpəz Bələdiyyəsi tərəfindən mayın 11-13-də keçirilən Beynəlxalq Elm və Mədəniyyət Konfransında "Sənətkarlar və onların şəxsi psixoloji xüsusiyyətləri" adlı tezis ilə çıxış etdi. Tədqiqatda incəsənət xadimlərinin şəxsi keyfiyyətləri, incəsənətin şəxsiyyətə təsiri və şəxsi keyfiyyətlərin də incəsənət əsərlərində əks olunmasına dair verilən milli nümunələr konfrans iştirakçıları tərəfindən maraqla qarşılandı.

Sonda məruzəçi Mələk Kərimovaya sertifikat verildi.

## KHAZAR UNIVERSITY STAFF MEMBER AT INTERNATIONAL CONFERENCE

On May 13, Melek Kerimova, Assistant Dean of the School of Humanities and Social Sciences, Director of Khazar Psychological Services Center, participated at the international conference "Quest For Beauty In Science, Culture And Arts". It was organised by International Rating Academia and Kepez Municipality. Melek Kerimova presented her thesis entitled " Masters and their personal psychological characteristics". The research work investigating art, personal qualities of masters, the influence of art on personality and personalities reflection in artworks was greeted with great interest.

At the end, Melek Kerimova was presented with a certificate.

## DR. RƏSUL MURADİNİN BEYNƏLXALQ JURNALDA MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universitetinin Kimya mühəndisliyi departamentinin koordinatoru Dr. Rəsul Muradinin nanotexnologiya ilə bağlı son araşdırmasının nəticələri "Elsevier" nəşriyyat evinin "Molecular Liquids" ("Molekulyar mayelər") jurnalında (cild 23, iyul 2017, səh. 242-246) çap olunmuşdur. Məqalədə nanomayenin termal xüsusiyyətləri araşdırılır. Nanotexnologiyanın ən müasir sahələrindən olan nanomayeni hazırlamaq üçün karbon nanoborular və sudan istifadə olunur. Karbon nanoborular / su nanomayesi haqqında daha çox məlumat əldə etmək üçün çoxsaylı araşdırmalar aparılmışdır. Nanaomaye istilik dəyişdiricilərin, eləcə də, müxtəlif soyuducu cihazlarda hərəkət edən mayenin istiliközürmə effektivliyini artırmaq üçün istifadə oluna bilər.

Qeyd edək ki, kimya mühəndisliyi üzrə fəlsəfə doktoru Rəsul Muradi 2016-ci ilin sentyabrından Xəzər Universitetində fəaliyyət göstərir və bu, onun Xəzər Universitetinin adından çap olunan üçüncü məqaləsidir.

Məqaləni aşağıdakı link vasitəsilə oxumaq olar:
*http://www.sciencedirect.com/science/article/pii/S0167732217304774*

## DR. RASOUL MORADI'S RESEARCH WORK IN ELSEVIER PUBLICATION

The results of the recent research in Nano-Technology by Dr. Rasoul Moradi (Coordinator of the Chemical Engineering Department) were published by Elsevier Publication, Journal of Molecular Liquids (Volume 237, Issue 7, 2017, pages 242-246).

This scientific paper is investigating of nanofluid thermal properties. Carbon Nano Tubes (CNTs) and Water are used to prepare nanofluid that is one of the leading edges in nanotechnology. The numerical studies have done to get further information of the CNT/Water nanofluid. The possible application of nanofluids is in enhancing heat transfer efficiencies of the industrial heat exchangers as well as driving fluid in various cooling instruments.

Dr. Moradi, PhD in Chemical Engineering, joined Khazar University in September 2016 and this article is his 3rd publication on behalf of the Khazar University.

The following link will help to get access to the published article:
*http://www.sciencedirect.com/science/article/pii/S0167732217304774*



## . TARİX MUZEYİNDƏ "MÜCADİLƏ FİLMİNƏ BAXIŞ

Mayın 26-da Milli Azərbaycan Tarixi Muzeyində 28 May Respublika Gününə həsr edilmiş tədbir – muzeydə yaradılmış kinoklubun açılışı oldu, yazıçı-publisist, kinorejissor Nazim Rzanın "Mücadilə" adlı sənədli filmi nümayiş etdirildi.

Filmin nümayişindən əvvəl Nazim Rza Azərbaycan Cümhuriyyətinə həsr olunmuş bu ekran əsəri haqqında məlumat verdi, tariximizin köklü, zəngin anlarının bu filmdə əks olunduğunu bildirdi. Filmin nümayişindən sonra filmin elmi məsləhətçisi, BDU-nun professoru Elmira Muradəliyeva çıxış etdi.

Tədbirdə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Roza Arazovanın başçılığı ilə Təhsil fakültəsinin tarix müəllimliyi ixtisasının tələbələri də iştirak etdilər.

Tədbirin sonunda kinorejissor Nazim Rza tələbələrin suallarını cavablandırdı.

Kinoklubun açılışında müzeyin direktoru, akademik Naila Vəlixanlı iştirak edirdi.

## TARİX DƏRSLƏRİ MUZEYDƏ KEÇİRİLDİ



Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimləri mütəmadi olaraq hər dərs ilində tədris edilən fənlərlə əlaqədar muzeylərə və sərgilərə ekskursiyalar təşkil edərək tələbələrin dünyagörüşünün genişlənməsinə çalışırlar. Belə ekskursiyalarda tələbələr əyani olaraq gördüklərini nəzəri bilikləri ilə əlaqələndirməyi öyrənir, onlarda maraq oyadan eksponatların tarixçəsini yadda saxladıqlarından dövr haqqında daha artıq biliklərə yiyələnirlər. Departamentin daha sıx əməkdaşlıq etdiyi muzey Azərbaycan Tarixi Muzeyidir, çünki bütün fakültələrdə Azərbaycan tarixi tədris edildiyindən bu muzeyin payına düşən ünsiyyət daha çox olur. Tarix və arxeologiya departamenti Azərbaycan Tarixi Muzeyinin rəhbərliyinə və bütün əməkdaşlarına dərslərin muzeydə təşkilində yaxından köməklik göstərdiklərinə görə təşəkkür edir, Xəzər Universiteti ilə əlaqə quran digər bütün muzeylərə minnətdarlığını bildirir.



# "TANATOS" MEHMANXANASI

(*hekayə*)

**Andre Morua**
*1885-1967*
**Fransa**

"Stil" aksiyaları neçəyə düşüb? - Jan Monye soruşdu.- Əlli doqquz dörddə birə - deyə, on iki makinaçıdan biri cavab verdi.

Makinaların taqqıltısı bir-birinə qarışıb, caz ritmini otağa doldururdu. Pəncərədən Manhettenin nəhəng binaları görünürdü. Telefonlar cingildəyir, xəbərlər, rəqəmlər, çap olunmuş kağız lentlər bir göz qırpımında qıvrılıb uzanır, otağın içində qalaqlanırdı.

- "Stil" aksiyaları neçədir? - deyə, Jan Monye yenidən soruşdu. Hertrud Ouen cavab verdi:

- Əlli doqquz.

Qız bir anlıq dayanıb gənc fransıza baxdı. O, kresloda əyləşib başını əlləri arasına almışdı. Halı özündə deyildi.

"Bu da lütləşdi" - deyə, qız düşündü. "Vay halına! Vay Fanninin də halına.

Holman bankının Nyu-Yorkdakı nümayəndəsi Jan Monye iki il əvvəl özünün katibəsilə, amerikalı bir qızla evlənmişdi. Jan Monye bir də soruşdu:

- Bəs "Kennekot" aksiyaları neçəyə düşüb?- İyirmi səkkizə, - deyə, Hertrud Ouen cavab verdi.

Qapının arxasında kimsə qışqırdı. Harri Kuper otağa girdi. Jan Monye ayağa qalxdı.

- Dəhşətdir! - Harri Kuper dilləndi. - Bütün aksiyalar iyirmi faiz qiymətini itirib. Hələ bəzi səfehlərin dediyinə görə, guya bu böhran deyil!

- Yox, böhrandır, - deyib, Jan Monye otaqdan çıxdı.

- Bu da yamanca batdı, - Harri Kuper qapıya tərəf işarə etdi.

Hertrud Ouen təsdiqlədi:

- Elədir, tamam var-yoxdan çıxıb. Mənə Fanni dedi. O özü bu axşam Jandan ayrılacaq.

- Nə etmək olar? Əsl böhrandır, - deyib Kuper sözünü bitirdi.

Liftin yaraşıqlı tunc qapıları örtüldü. Jan Monye yuxulu kimi göstəriş verdi:

- Aşağıya.

- "Stil" aksiyaları neçəyə düşüb? - deyə liftçi oğlan soruşdu.

- Əlli doqquza.

Jan hər aksiyanı 112 dollara almışdı, indi isə hər birindən 53 dollar zərər çəkirdi. Başqa şirkətlərdən aldığı aksiyalar da öz qiymətlərini itirmişdi. Əvvəllər Arizonada qazandığı pulların hamısını bu aksiyalara xərcləmişdi. Fanninin özünün bir senti də olmaz. Hər şey bitmişdi. O, küçəyə çıxıb, tramvaya tərəf tələsdiyi vaxt gələcəyi düşünürdü. Təzədən başlamaq? Əgər Fanni cəsarətli

olsaydı, təzədən başlamaq mümkün idi. O, özünün ilk mübarizəsini, çöllərdə qoyun güdməsini, az vaxtda ucalmasını yadına saldı. Həm də onun otuz yaşı ancaq olardı. Bircə şey məlum idi ki, Fanni rəhmsizlik edəcək. Fanni belə də etdi. Ertəsi gün səhər Jan Monye yerindən tək qalxdı. O bütün ümidini itirmişdi. Fanni ona soyuq olsa da, Jan qızı sevirdi. Zənci qadın həmişəki kimi səhər yeməyini - bir dilim yemiş və süddə bişirilmiş yulaf yarmasını gətirdi, sonra isə pul istədi.

- Xanım hardadır, mister?

- Gəzməyə gedib.

O, xidmətçiyə on beş dollar verdi. Qalan pulunu saydı. Altı yüz dollardan az qalmışdı. Bu pulla iki ay, uzaq başı üç ay dolanmaq olardı... Bəs sonra? O, pəncərədən baxdı. Bir həftədən bəri demək olar ki, qəzetlər hər gün intihar edənlər haqda yazılar dərc edir. Bankirlər, birja alverçiləri, aksiyaçılar ölümlə özlərini müflislikdən qurtarırdılar. İyirminci mərtəbədən tullanmaq? Neçə saniyəyə yerə çatmaq olar? Üç? Dörd? Sonra isə xıncım-xıncım olmaq. Bəlkə birdən ölmədi? O, dəhşətli ağrıları, çiliklənmiş sümükləri, parçalanmış insan ətini təsəvvürünə gətirdi. Köks ötürdü, qəzetlərdən birini qoltuğuna vurub, səhər yeməyi üçün restorana getdi. Ağcaqayın şirəsi ilə isladılmış kətələri həmişəki iştahla yeməsinə özü də təəccüb etdi. Palas Otel "Nyu-Meksiko..." Görəsən, bu qəribə ünvandan mənə məktub yazan kimdir? Harri Kuperdən də məktub var idi, əvvəlcə onu oxudu. Sahib onun nə üçün idarəyə gəlmədiyini soruşurdu. O, kassaya səkkiz yüz doxsan üç dollar borcludur... Bu barədə nə fikirdədir?.. Həm qəddar, həm də sadəlövh adamın sualına oxşayır. Ancaq Harri Kuper sadəlövh adam deyildi. O, ikinci məktubu açdı. Yuxarıda üç sərv ağacı çəkilmişdi. Ünvan belə idi: Palas Otel "Tanatos" Direktor: Henri Bersteker. Məktubda yazılmışdı:

"Əziz c-b Monye! Sizə yazdığımız bu məktubu təsadüfi hesab etməyin. Sizin haqqınızda aldığımız məlumat belə bir ümid yaradır ki, bizim xidmətimizə ehtiyacınız olacaq. Yəqin, artıq sizə məlumdur ki, ən cəsarətli insanlara belə həyatda elə ağır bədbəxtliklər üz verir ki, mübarizə etmək imkanı qalmır, ölüm yeganə çıxış yolu olur. Gözlərini yumub, rahat yatasan, bir daha ayılmayasan, bir daha suallar, kinayəli sözlər eşitməyəsən... İnsanların çoxu bunu arzu edir, bu cür ölüm istəyir. Lakin çox az da olsa, elə insanlar var ki, özlərini daha ağır əzaba salırlar. İntihara cəhd etmiş bəzi adamları xatırlasaq, aydın olar ki, bu çox qorxulu olur. Bəzisi gicgahına bir güllə vurub özünü öldürmək istəyir, ancaq ölmür, görmə sinirlərini zədələyib kor olur. Başqa birisi yuxu dərmanı ilə özünü zəhərləmək fikrinə düşür. Lakin dərmanı lazımi qədər atmadığından ölmür. Üç gündən sonra yaddaşını itirmiş, beyni korlanmış, əzaları iflic vəziyyətdə ayılır. İntihar incəsənətin elə bir növüdür ki, xırdaçılığı və şıltaqlığı sevmir, həm də onun elə bir xüsusiyyəti var ki, insana bu sahədə təcrübə qazanmağa imkan vermir. Əziz c-b Monye, əgər məsələ sizi, bizim güman etdiyimiz qədər maraqlandırsa, həmin təcrübəni sizə təklif etməyə hazırıq. Mehmanxanamız Birləşmiş Ştatlarla Meksika sərhədində boş bir ərazidədir. Heç bir ictimai nəzarətdən qorxusu yoxdur. Biz, başqa bir çarəsi olmayan, ciddi səbəblərə görə həyatla vidalaşmaq qərarına gəlmiş insan övladlarına kömək etmək, onlara iztirabsız, cəsarətlə deyə bilərik ki, qorxusuz bir ölüm bəxş etməyi özümüzə borc bilmişik. "Tanatos" Palas Oteldə şirin yuxuda olduğunuz vaxt ən asan, ən rahat bir ölümlə həyatdan gedə bilərsiniz. Hər dəfə bizə yeni müvəffəqiyyət gətirmiş (keçən il iki min nəfərdən çox müştəri qəbul etmişik) on beş illik təcrübə əsasında yaratdığımız texniki vasitələr bizə, məsələni dəqiqliklə və bir anda həll etmək imkanı verir. Bunu da deməliyik ki, dini əqidələrdən çəkinən müştəriləri çox alicənab bir üsulla hər cür günahdan azad edirik. Bizə yaxşı məlumdur ki, müştərilərimizin çoxu puldan korluq çəkir və intihar hallarının çoxluğu ilə banklara olan borcların böyüklüyü arasında uyğunluq yaranır. Biz bütün imkanlarımızı səfərbər edib, ən gözəl rahatlıq nümunələri yaratmağın və "Tanatos"da

qiymətlərin mümkün qədər aşağı olmasının qeydinə qalmışıq. Buraya gələrkən sizin burada olacağınız vaxtın bütün xərcləri - əməliyyat üçün, dəfn və qəbrə qulluq xərcləri birlikdə hesablanıb. Sizin burada nə qədər yaşayacağınızdan xəbəriniz olmayacaq. Əlavə xidmətlər üçün sizdən pul da tələb edilməyəcək. Əlavə etmək lazımdır ki, "Tanatos" təbii gözəlliyə malik bir ərazidə yerləşir. Burada dörd tennis stolu, on səkkiz dəlikli qolf, qəşəng hovuz var. Bizim qonaqlarımız hər iki cinsdən yüksək cəmiyyətdən seçmə adamlardır. Burada həyat bambaşqadır. İnsanlar şəraitin qəribəliyinin təsirindən daha da mülayim və səmimi olurlar. Qonaqlar dəmir yolu ilə Diminq stansiyasına qədər gəlirlər. Onları vağzalda bizim maşınımız gözləyir. Qonaqlardan xahiş edilir ki, öz gəlişlərini məktub, yaxud teleqramla heç olmasa iki gün əvvəl bizə xəbər versinlər. Teleqramı bu ünvana göndərin: "Nyu-Meksiko. Soronado. Tanatos".

Jan Monye bir dəst kart götürüb, Fanninin öyrətdiyi kimi fal açdı. Yol çox uzun çəkdi. Qatar saatlarla pambıq tarlalarının arası ilə getdi. Pambıqçı zəncilərin qaraltısı ağ tarlaların içində tez-tez nəzərə çarpırdı. Sonra iki gün, iki gecə yuxu ilə mütaliə bir-birini əvəz etdi. Nəhayət, dağlıq əraziyə çatdıqda mənzərə dəyişdi: hər tərəfdə nəhəng və əfsanəvi qayalar görünürdü. Qatar dərə ilə iki sıldırım qayanın arasında irəliləyirdi.

Dağlar bənövşəyi, sarı, qırmızı rənglərə boyanmışdı. Ortada isə ağ qurşağa oxşayan bir bulud parçası uzanırdı. Qatarın dayandığı balaca stansiyalarda iri həsir şlyapalı və naxışlı meşin pencək geymiş meksikalılar görünürdü.

- Gələn stansiya Diminqdir, - deyə, zənci vaqon xidmətçisi Jan Monyeyə müraciət etdi. - Çəkmələrinizi silimmi, mister?

Jan kitablarını yığışdırdı, çamadanlarını örtdü. Özünün axırıncı səyahətinin bu qədər adi olması onu təəccübləndirirdi. Gurultulu bir səs gəldi. Əyləclər cingildədi. Qatar dayandı.

- "Tanatos"a buyurursunuzmu, ser? - deyən bir hindli öz arabası ilə vaqonlar boyu gedirdi. Onun arabasına iki sarışın qəşəng qızın çamadanları qoyulmuşdu. Qızlar arxada gedirdilər. Jan Monye düşünürdü: "Görəsən, doğrudanmı bu qəşəng qızlar da ölmək üçün gəliblər?" Qızlar da ciddi nəzərlərlə ona baxır, dodaqaltı bir-birinə nəsə deyirdilər. "Tanatos"un maşını, təsəvvür edildiyi kimi, ölü maşınına oxşamırdı. O, tünd göy rənglə boyanmışdı, yaşıl və sarı zolaqları vardı, tər-təmiz idi, gün altında parıldayırdı. Həyətdəki başqa maşınlar cır-cında kimi səpələnib, həyəti köhnə dəmir bazarına oxşadırdı. Ətrafda ispanca və hindu dilində söyüşlər eşidilirdi. Yolun kənarındakı qayalar yosunla örtülmüşdü. Hündür qayalar günəşin altında metal parçaları kimi parlayırdılar. Sürücü boz rəngli xüsusi forma geymiş dombagöz, gombul bir kişi idi. Jan Monye qəşəng qızlara mane olmamaq üçün irəli keçib sürücünün yanında əyləşdi. İti döngələrdə adama elə gəlirdi ki, maşın indicə dərəyə aşacaq. Jan sürücünü danışdırmaq istədi:

- Siz çoxdanmı "Tanatos"da sürücü işləyirsiniz?

- Üç ildir, - deyə kişi donquldandı.

- İşiniz çox qəribə işdir, eləmi?

- Qəribə? - deyə, sürücü səsini qaldırdı. Mən maşınımı sürürəm. Burda qəribə nə var ki?

- Sizin sərnişinlərdən heç geriyə qayıdanı olurmu?

- Həmişə yox. Bəzən olur, - deyə, kişi narahatlıqla cavab verdi - az olur... Ancaq hər halda olur. Elə mənim özümü götürün.

- Sizi? Doğrudanmı?.. Deməli, siz bura... ölməyə gəlmişdiniz?

- Cənab, - sürücü acı-acı dilləndi - mən bu peşəni qəbul etmişəm ki, bir daha özüm haqda danışmayım. Həm də burada döngələr çox itidir. Zənnimcə nə özünüzün, nə də bu qızların qəzaya düşməsini istəmirsiniz.

- Əlbəttə ki, yox, - deyə Jan Monye tələsik cavab verdi. Sonra isə cavabının qəribəliyini

fikirləşib gülümsədi. İki saatdan sonra sürücü bir kəlmə söz demədən barmağı ilə dağ döşündəki "Tanatos" mehmanxanasını göstərdi. Mehmanxana hind-ispan stilində tikilmişdi. Damı alçaq və pilləli idi. Qırmızı divarlarına çəkilmiş sement ustalıqla gilə oxşadılmışdı. Otaqlar cənuba açılır, eyvanları gün döyürdü.

İtaliyalı bir qapıçı qonaqları qəbul etdi. Onun təmiz qırxılmış üzü, başqa bir ölkəni, böyük bir şəhərin küçələrini, gül-çiçəkli parkları Jan Monyenin yadına saldı. Xidmətçilərdən biri onun çamadırunu əlindən aldı. Jan qapıçıdan soruşdu:

- Heç cürə yadıma sala bilmirəm, mən sizi harada görmüşəm?

- Barselonada görmüsünüz, cənab... Mənim adım Sarkonidir... Oradan inqilab vaxtı qaçmışam...

- Barselonadan birbaş Yeni Meksikaya? Gözəl səyahətdir.

- Cənab, qapıçının işi hər yerdə eynidir. Ancaq indi sizə verəcəyim kağızların doldurulması başqa yerdəkindən bir az çətin olacaq... Üzr istəyirəm, cənab!

Təzə gəlmiş üç nəfərə verilən vərəqlər xətlərlə, suallarla, izahatlarla dolu idi: Doğulduğun vaxt və yer, bir hadisə baş versə xəbərdar ediləsi adamların ünvanları tam dəqiqliklə göstərilməlidir. Xahiş olunur qohum, yaxud dostlarınızdan, heç olmasa, ikisinin ünvanını göstərəsiniz, ələlxüsus, aşağıdakı "A" formasını adəti danışıq dilinizdə öz əlinizlə köçürməyi unutmayın:"Mən, aşağıda imza edib, bədəndən və şüurdan sağlam olduğumu, həyatdan öz istəyimlə getməyimi, əgər bir əhvalat baş verərsə, "Tanatos" Palas mehmanxanasının müdiriyyətinin və xidmətçilərinin məsuliyyət daşımadığını təsdiq edirəm".

Qonşu stol arxasında bayaqkı qəşəng qızlar üz-üzə oturub, səliqə ilə "A" formasını köçürürdülər. Jan Monye gördü ki, qızlar alman dilində yazırlar. Mehmanxananın müdiri Henri Bersteker sakit adam idi. Gözlərinə qızıl sağanaqlı eynək taxırdı. O öz müəssisəsi ilə fəxr edirdi.

- Mehmanxana sizinkidirmi? - deyə, Jan Monye soruşdu.

- Xeyr, cənab, mehmanxana aksiyaçı bir cəmiyyətə məxsusdur. Lakin onu yaratmaq ilk dəfə mənim ağlıma gəlib. İndi mən buranın ömürlük müdiriyəm.

- Bəs, nə əcəb yerli hökumət orqanları sizi incitmirlər?

- İncitmirlər? - deyə, cənab Bersteker diksinərək təəccüblə dilləndi. Cənab, biz mehmanxana qaydalarına zidd olan heç bir iş görmürük. Biz müştərilərimizin arzularını yerinə yetiririk, hər nə istəsələr, onu edirik, başqa heç nə... Bir də ki, cənab, burada hökumət orqanı yoxdur. Bu ərazi elə vəziyyətdədir ki, heç kəs buranın Meksikaya, yaxud Birləşmiş Ştatlara məxsus olduğunu dəqiq bilmir. Uzun müddət buranı toxunulmaz hesab ediblər. Əfsanəyə görə, guya yüz il əvvəl bir dəstə hindli avropalıların əlindən qaçıb, bu dərədə ölüblər. Sonra yerli əhali deyirdi ki, həmin ölülərin ruhu bu dağa yaxın gəlməyə icazə vermir. Elə buna görə ərazini sərfəli qiymətə ala bildik. İndi asudə ömür sürürük.

- Bəs müştərilərin qohum-qardaşı necə, sizinlə çəkişmir?

- Bizimlə çəkişmək? - cənab Bersteker incimiş halda, ucadan soruşdu - nə üçün canım? Hansı məhkəmənin qarşısında? Bizim müştərilərin qohumları bu cür əmmalı və ağır işlərin hay-küysüz görülməsindən çox razı qalırlar, cənab. Xeyr, xeyr əzizim, burada bütün işlər alicənablıqla və təmiz görülür, müştərilər isə bizim dostlarımızdır... Bəlkə öz otağınızı görmək istəyirsiniz?.. Əgər etirazınız yoxdursa, 113-cü otağı sizə veririk. Mövhumatçı deyilsiniz ki?

- Xeyr, qətiyyən. Ancaq iş burasındadır ki, mən dindar ailədə böyümüşəm, intihar fikri xoşuma gəlmir.

- İntihar haqda söhbət olmayıb, ola da bilməz, cənab! - deyə, cənab Bersteker elə səmimiyyətlə inandırdı ki, müsahibinin daha sözu qalmadı.

- Sarkoni, 113-cü otağı cənab Monyeyə göstər. Uç yüz dolları isə, zəhmət olmasa, kassaya verin. Kassa irəlidə, mənim kabinetimin yanındadır.

Jan Monyenin 113 nömrəli otağına gün düşürdü, işıqlı idi. O, nə qədər göz gəzdirdisə də, ölüm gətirəsi bir vasitə görə bilmədi.

- Nahar saat neçədədir?

- Saat doqquzun yarısında, ser, - deyə xidmətçi cavab verdi.

- Yaxşı geyinmək lazımdırmı?

- Centlmenlərin çoxu belə edir, ser.

- Yaxşı! Mən də geyinərəm. Mənim üçün ağ köynək və qara qalstuk hazırlayın.

Aşağı düşərkən o gördü ki, qadınlar yaxası açıq, yaraşıqlı paltar, kişilər isə qara, səliqəli kostyum geymişlər. Cənab Bersteker onu böyük təntənə ilə qarşıladı:

- Ah, cənab Monye... Mən sizi axtarırdım... Bilirəm ki, təksiniz, istəyirdim sizi müştərilərimizdən biri ilə, miss Kibri Şou ilə bir stola dəvət edəm.

Monye üz-gözünü turşutdu:

- Mən buraya kef çəkmək üçün gəlməmişəm... Ancaq... Əlinizlə işarə etməmiş onu mənə göstərə bilərsinizmi?

- Cənab Monye, pianonun yanında əyləşib jurnal oxuyan, gen ağ donlu gənc qadın miss Kibri Şoudur. Heç inanmıram ki, onun xarici görkəmi xoşunuza gəlməsin... Əksinə, çox mülayim, gözəl, ağıllı və incə qadındır.

Doğrudan da, miss Kibri Şou gözəl idi. Qara tellərinin xırda buruqları boynunun arxasına toplanmışdı. Hündür və yaraşıqlı, alnı açıq idi. Ağıllı gözlərindən mehribanlıq duyulurdu. Görəsən, bu cür gözəl məxluq nəyə görə ölmək istəyir? Yəni bu qadın da buraya müştəri kimi, mənim gəldiyim məqsədlə gəlib?

- Əlbəttə, - deyə, cənab Bersteker sözünə ikiqat qüvvə verməyə çalışdı.

- Əlbəttə, elə isə tanış edin.

Nahar sadə olsa da, çox ləzzətli idi. Yeməkden sonra Jan Monye Klara Şounun həyatının, heç olmasa, əsas əhvalatlarını öyrənə bilmişdi. Klara varlı və xoşxasiyyət bir kişinin arvadı imiş, ərini sevmirmiş. Altı ay əvvəl ərini tərk edib, Nyu-Yorkda rast gəldiyi gənc bir yazıçının arxasınca Avropaya gəlir. Klara elə hesab edir ki, şirindilli və sırtıq oğlan onunla evlənəcək və ərindən boşanır. Lakin İngiltərədə ilk gündən məlum olur ki, gənc yazıçı ondan mümkün qədər tez yaxa qurtarmağa çalışır. İncimiş və heç nə başa düşməyən Klara oğlanı başa salmağa çalışır ki, onun ucbatından hər şeydən məhrum olub, indi çox pis vəziyyətə düşə bilər. Yazıçı doyunca gülübmüş:"Klara, siz, doğrudan da, zəmanə qadını deyilsiniz!.. Əgər bilsəydim ki, bu qədər vasvasısınız, sizi ərinizdən və uşaqlarınızdan ayrılmağa qoymazdım... Bəli, onların yanına qayıtmaq lazımdır, əzizim... Siz böyük bir ailəyə evdarlıq etmək üçün yaranmısınız."

Klaranın bircə ümid yeri qalır: o inanır ki, əri Norman Kibri Şou ilə tezliklə görüşə bilsə, asanlıqla könlünü alacaq. Lakin qohumlar, dostlar onun Klaraya olan kinini artırmağa çalışdılar. Normanla xoş danışmaq mümkün olmadı. Klara bir neçə dəfə alçaldı, üzrxahlıq etmək istədi, bir şey çıxmadı. Nəhayət, bir səhər "Tanatos"dan məktub aldı. Fikirləşdi ki, öz dərdindən yalnız burda tez və asanlıqla yaxa qurtara bilər.

- Bəs siz ölümdən qorxmursunuz? - deyə Jan Monye soruşdu.

- Əlbəttə, qorxuram... Ancaq həyatdan daha çox qorxuram...

- Çox gözəl ifadədir.

- Mən gözəl ifadə işlətmək istəmirdim, - deyə Klara təvazökarlıq etdi.

-Yaxşı, indi söyləyin görək, siz nə üçün buradasınız?

Jan Monye öz əhvalatını söyləyib qurtaran kimi Klara onu danlamağa başladı:

- Heç inanmağım gəlmir! Necə yəni?.. Əmlakınızın qiyməti düşdüyünə görə ölmək istəyirsiniz?.. Başa düşmürsünüz ki, əgər yaşamağa cürətiniz çatsa, bir ildən sonra lap elə iki, üç, yaxud beş ildən sonra itkinizi unudarsınız, bəlkə də təzədən qazana bilərsiniz?..

- Əslində, varımı itirməyim bir bəhanədir. Əgər yaşamaq üçün bircə məqsədim qalmış olsaydı, varsız da yaşayardım. Sizə bayaq söylədim ki, arvadım da məni tərk etdi... Fransada nə bir qohumum var, nə də dostum... Həm də sizdən nə gizlədim, mən öz vətənimi də uğursuz bir eşq macərasından sonra tərk etmişəm. İndi kimin üçün mübarizə etməliyəm?

- Özünüz üçün... Sizi sevəcək insanlar üçün... İnanıram ki, sizi sevənlər olacaq... Əgər ən ağır dəqiqələrdə bir-iki qadını etibarsız görmüsünüzsə, nahaq yerə qalanları haqda eyni fikirdə olursunuz.

- Siz doğrudan inanırsınız ki, yaxşı qadınlar... demək istəyirəm ki, mənim sevə biləcəyim, bir neçə il yoxsul və mübarizələrlə dolu həyat keçirməyə razı olacaq qadınlar var?

- Mənim heç şübhəm yoxdur. Elə qadınlar var ki, mübarizəni sevir və yoxsulluqdan romantik bir ləzzət duyurlar. Məsələn, elə mən özüm.

- Sizmi?

- Oh, mən ancaq demək istəyirdim ki... - o dayandı, tərəddüd etdi, sonra yenidən:- məncə, zala qayıtsaq yaxşıdır... Biz burada tək qalmışıq, mehmanxana müdiri də narahat-narahat yerində fırlanır.

- Siz necə bilirsiniz, - o, sözarası Klara Kibri Şounun çiyinlərinə sincab dərisindən tikilmiş zərif örtüyü saldı. -Siz necə bilirsiniz, yəqin ki, bu gecə?..

- Hələ yox! Siz ki, bu gün gəlmisiniz...

- Bəs siz?

- Mən iki gündür burdayam.

Ayrılarkən onlar, ertəsi gün səhər birgə çıxıb dağda gəzmək üçün vədələşdilər. Səhər günəş qalxıb ətrafı işığa qərq etmişdi. Jan Monye soyuq duş qəbul edib çıxarkən fikirləşdi: "Yaşamaq necə gözəldir!" Sonra özü də öz fikrinə təəccüb etdi. Onun cəmisi bir neçə dollar pulu və bir neçə gün vaxtı qalmışdı. Jan köksünü ötürdü. Saat ondur! Klara məni gözləyəcək. O tələsik geyindi. Ağ kətan kostyumda özünü daha da gümrah hiss edirdi. Jan, Klara Kibri Şou ilə tennis meydançasında görüşdü. Klara da ağ geyinmişdi, dünən gəlmiş balaca avstriyalı qızlarla söhbət edə-edə gəzinirdi. Qızlar Monye yaxınlaşan kimi aralanıb getdilər.

- Yoxsa məndən qorxurlar?

- Xeyr, onlar sizdən utanırlar. Mənə öz əhvalatlarını danışırdılar.

- Maraqlıdırmı?.. Mənə də danışarsınız... Yaxşı yata bildinizmi?

- Çox yaxşı yatmışam. Qorxuram bu hiyləgər Bersteker bizim içkilərə narkoz qatmış ola.

- Zənn etmirəm, bu gecə yuxum çox şirin olub, təbii bir yuxu ilə yatmışam. Bu səhər özümü yaxşı hiss edirəm.

Bir andan sonra Jan əlavə etdi:

- Həm də çox xoşbəxtəm.

Klara gülümsəyərək ona baxdı, ancaq bir söz demədi.

- Gəlin, bu cığırla gedək, -Jan uzağa aparan bir cığır göstərdi. - Mənə bayaqkı balaca avstriyalılardan danışın... Siz burada mənim Şəhrizadım olacaqsınız... Amma bizim gecələrimiz min bir olmayacaq. Heyhat!..

- "Bizim gecələrimiz"... Klara onun sözünü kəsdi:

- Bu qızlar əkiz bacıdırlar. Əvvəl Vyanada, sonra Budapeştdə yaşayıblar. Bir yerdə

böyüyüblər, özlərindən başqa yaxın dostları olmayıb. On səkkiz yaşda onlar keçmiş zadəgan ailəsindən olan bir macar oğlanla tanış olublar. Oğlan çox gözəl imiş, həm də yaxşı çalıb-oxuyurmuş. Qızların ikisi də eyni vaxtda oğlana dəlicəsinə vurulur. Bir neçə ay sonra oğlan bacılardan biri ilə evlənmək fikrinə düşür. O biri bacı ümidsizlikdən özünü suda boğmaq istəyir, ancaq onu xilas edirlər. Onda nişanlı bacı da qraf Nikiyə ərə getməkdən imtina edir. Bacılar ikisi bir yerdə ölmək qərarına gəlirlər... Elə həmin vaxt sizin kimi, mənim kimi, onlar "Tanatos"un məktubunu alıblar.

- Səfeh iş görüblər! - deyə, Jan Monye təəssüf etdi - Onlar gənc, həm də çox qəşəngdirlər... Gedib Amerikada yaşasınlar, orda bu qızlardan ötrü çoxları dəli-divanə olar. Bir-iki həftə səbr etmək lazım idi, sadəcə.

- Əslində, elə bizim hamımız səbrsizliyin ucundan buraya gəlib çıxmışıq. - Klara melanxolik səslə dilləndi. - Lakin hər birimiz öz ağlımızı başqaları üçün daha yaxşı işlədirik... Kim deyir ki, ruhi əzablara dözmək üçün insanda həmişə kifayət qədər qüvvə tapılır?

"Tanatos"un sakinləri bütün günü parkda, qaya döşündə, dərədə gəzişən ağ geyimli kişi ilə qadına rast gəldilər. Onlar şirin-şirin mübahisə edirdilər. Hava qaralanda mehmanxanaya qayıtdılar. Meksikalı bağban onların qucaqlaşdığını görüb, üzünü yana çevirdi.

Nahardan sonra bütün axşamı Jan Monye kimsəsiz balaca salonda Klara Kibri Şounun yanında əyləşib nə isə pıçıldayır, elə bil onu ovsunlayırdı. Direktor iri qara bir jurnalı vərəqləyirdi. O, hesablara göz gəzdirir, hərdən qırmızı qələmlə sətirlərdən birini pozurdu.

- Axşamınız xeyir, cənab Monye!.. Mənə bir qulluğunuz, varmı?

- Bəli, cənab Bersteker, ümidvaram ki, kömək edərsiniz... Yəqin sözlərim sizə qəribə görünəcək... Qəfildən hər şey dəyişdi... Bəli, həyat özü belədir... Sözün qısası, mən fikrimi dəyişmişəm... Daha ölmək istəmirəm...

Cənab Bersteker təəccüblə ona baxdı:

- Siz zarafat etmirsiniz ki, cənab Monye?

- Anlayıram, sizə iradəsiz və dəyişkən adam təsiri bağışlaya bilərəm... - deyə gənc fransız izah etdi. - Təbii haldır ki, yeni şərait insanda yeni duyğular yaradır. Səkkiz gün əvvəl sizin məktubunuzu alarkən özümü ümidsiz və bütün dünyada kimsəsiz hesab edirdim. Elə zənn edirdim ki, mübarizəyə başlamağıma dəyməz... Bu gün hər şey dəyişdi... Əslində, bu sizin sayənizdə oldu, cənab Bersteker.

- Mənim sayəmdəmi, cənab Monye?

- Əlbəttə. Mənimlə stol arxasında üz-üzə əyləşdirdiyiniz qəşəng qadın bu cür möcüzə yaratdı... Miss Kibri Şou çox gözəl qadındır, cənab Bersteker.

- Mən ki, sizə deyirdim, cənab Monye.

- Həm gözəldir, həm də cəsarətli... Mən ona öz əhvalatımı söylədim. O, məmnuniyyətlə mənim səfil həyatıma yoldaş olmağa razılaşdı... Sizə təəccüblü gəlir, eləmi?

- Xeyr, təəccüblənmirəm... Burada belə əhvalatlar tez-tez olur... Mən bu işə çox sevinirəm, cənab Monye... Siz hələ gəncsiniz, çox gəncsiniz...

- Əgər siz narazı olmasanız, biz miss Kibri Şou ilə sabah Diminqə yola düşərik.

- Deməli, miss Kibri Şou da sizin kimi... fikrini dəyişib?

- Bəli... Əlbəttə. Özü gəlib sizə danışacaq... İndi bircə mürəkkəb məsələ qalır... Sizə verdiyim üç yüz dollardan başqa demək olar ki, pulum yoxdur. Həmin pul toxunulmaz əmlak olur, yoxsa, mən yol pulu üçün bir az götürə bilərəm?

- Biz namuslu adamlarıq, cənab Monye... Görülməmiş iş üçün pul almırıq. Sabah səhər kassa günə iyirmi dollardan pulunuzu hesablayacaq, qalanı isə sizə qaytarılacaq.

- Siz çox nəcib və alicənab adamsınız... Ah, cənab Bersteker, mən sizə çox borcluyam! Yeni bir səadət tapdım... Yeni bir həyat…

- Qulluğunuzda hazırıq, - deyə cənab Bersteker gülümsündü. Sonra çıxıb uzaqlaşan Jan Monyenin arxasınca baxdı. Masanın üstündə bir düyməni basdı və dedi:

- Sarkonini yanıma göndərin.

Bir neçə dəqiqədən sonra qapıçı gəldi.

- Siz məni çağırmısınız, senyor direktor?

- Çağırmışam, Sarkoni... Bu axşam… Bu axşam 113-cü otağa qaz buraxmaq lazımdır... Saat ikiyə yaxın.

- Senyor direktor, ölüm qazından əvvəl yuxu qazı göndərmək lazımdırmı?

- İnanmıram kı, lazım ola... O çox yaxşı yatır. Sarkoni... Sabah, danışdığımız kimi, 17-ci otaqdakı balaca qızları da...

Qapıçı çıxan kimi miss Kibri Şou kabinetin qapısında göründü.

- Gəl içəri, - deyə, cənab Bersteker çağırdı. Elə indicə istəyirdim səni çağırtdırım. Müştərin gəlib mənə elan etdi ki, yola düşməyə hazırlaşır.

- Zənnimcə, məni tərifləməyə dəyər, - deyə, Kibri Şou lovğalandı.

- İş təmiz görülüb.- Bəli, həm də tez... nəzərdə saxlayıram.

- Deməli, bu gecə?

- Hə, bu gecə.

- Zavallı oğlan! Mehriban və xəyalpərvər adamdı...

- Onların hamısı xəyalpərvər olur, - deyə, Bersteker donquldandı.

- Yaman qəddar adamsan, hər dəfə bu zavallılar həyatın qədrini bilməyə başlayanda nəfəslərini kəsirsən.

- Qəddaram?.. Əksinə, bizim üsulumuzun əsl insanpərvər cəhəti də elə burasındadır: gözlənilmədən işimizi həyata keçirmək. Bu adam dini əqidələrdən çəkinirdi... Çalışıram günahsız ölsün.O, qarşıdakı vərəqə baxıb əlavə etdi:

- Sabah istirahət edirsən... Birisi gün isə sənin üçün təzə müştəri var... O da bankirdir, ancaq bu dəfə İsveçdən... özü də çox cavan deyil.

Klara fikirli-fikirli dilləndi:

- Bu fransız oğlan hamısından yaxşı idi.

Direktor ciddiləşdi:

- İş vaxtı ayrıseçkilik olmaz. Al, bu sənin on dolların, bu on dollar isə mükafatdır. Klara pulları götürüb çantasına qoydu. Sonra köksünü ötürdü. Klara qapıdan çıxan kimi cənab Bersteker qələmini götürdü. Balaca dəmir xətkeşi səliqə ilə siyahının üstündə gəzdirib, adların birində saxladı, üstündən səliqəli bir qırmızı xətt çəkdi.

*Tərcümə:*
**Hamlet Qoca**



# WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

## DISNEY'S ANIMAL KINGDOM
## WALT DISNEY WORLD RESORT
## LAKE BUENA VISTA, FL

Since 1998, this animal-themed park has successfully marketed Mickey Mouse and silverback gorillas under one all-inclusive "roof." If it has four legs or wings or a tail, chances are you'll find it at this zoo/museum/school theme park. Don't miss the Kilimanjaro Safaris, Expedition Everest, or the 14-story Tree of Life sculpture carved with some 325 animals. Fun fact: at one point park creators also wanted to include a section for mythological creatures called "Beastly Kingdom."

**ANNUAL VISITORS: 10,198,000**






## SYDNEY OPERA HOUSE

With its dramatic cantilevered roof and harbor setting, the Sydney Opera House is easily Australia's most recognizable landmark—and its most visited. Few tourists leave Sydney without at least stopping here for a photo op. But you can do much more: go backstage for a tour, attend one of the 40-plus weekly performances, and watch the sun set over the city and Sydney Harbour Bridge from the alfresco Opera Bar. Make your grand exit on the scenic Manly Ferry, which passes right by.




## SMITHSONIAN NATIONAL MUSEUM OF NATURAL HISTORY,

Dinosaur fossils, a huge stuffed elephant, and an insect zoo have been wowing kids for generations (and for free). The 126-million-item collection even includes the notorious Hope Diamond. But this National Mall favorite continues to innovate, in the last few years opening the Ocean Hall and the ambitious Hall of Human Origins, where visitors come face-to-face with specimens and models of their ancestors.




The gold-spired Grand Palace is one of Thailand's most important sacred sites. The riverfront complex, built in 1782, housed Thai kings for 150 years. The Outer Court serves as the visitor entrance today; the Center Court was the king's residence; and the Inner Court, the quarters of his consorts and daughters. Keep an eye out for Wat Phra Kaew, the Temple of the Emerald Buddha, located near the Outer Court.




Of course it's corny—replete with candy shops, T-shirt emporiums, stuffed animals, and fried food—but this tourist magnet at the edge of Fisherman's Wharf offers great views of Alcatraz and the Golden Gate Bridge. Perhaps the wooden pier's biggest attraction is the noisy community of sea lions that bark and bask on the docks. Aquarium of the Bay is by the pier's entrance.

# XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ

## BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

**Ünvan:**


**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn